# Fransanın Afrikada neokolonializm siyasəti insanlığa ləkədir



**Dünən Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə “Afrikada Fransanın neokolonializm siyasəti” mövzusunda beynəlxalq konfrans keçirilib.**

Məclisdə Seneqaldan, Burkina-Fasodan, Kamerundan, Qvineya-Bisaudan, Konqo Demokratik Respublikasından, Mavritaniyadan, Zimbabvedən, Nigerdən, Fransadan və onun əsarəti altında olan Mayot adasından nümayəndələr, hüquqşünaslar, QHT rəhbərləri, siyasətçilər və ekspertlər iştirak ediblər.

*(ardı 5-ci səhifədə)*

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 217 (30621) 4 oktyabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Şərqi Zəngəzur dirçəlir, gələcəyə qucaq açır



Səhifə ⇨ 2

## Ermənistan törətdiyi cinayətlərə görə Azərbaycandan üzr istəməlidir

### *Prezident İlham Əliyevin 2 məktubu kontekstində*

**Prezident İlham Əliyev oktyabrın 2-də ölkəmizdə keçirilən iki mötəbər toplantının iştirakçılarına məktub ünvanladı. Onları salamladı, tədbirlərin işinə uğurlar arzuladı. Toplantılardan biri “İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu” mövzusunda Beynəlxalq Bakı Forumu, digəri isə “İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun müdafiəsi” mövzusunda beynəlxalq konfrans idi. Dövlətimizin başçısının hər iki məktubundakı məqamların üzərində dayanacağıq.**



“Ermənistan beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini də pozaraq Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyi və kütləvi məzarlıqların dəqiq yeri haqqında məlumatları təqdim etməkdən boyun qaçırır. Ermənistan törətdiyi bütün bu cinayətlərə görə üzr istəməlidir”. Hesab edirik ki, Prezident İlham Əliyevin “İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu” mövzusunda Beynəlxalq Bakı Forumunun iştirakçılarına ünvanlanmış məktubundakı bu fikirlərlə onun “İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun müdafiəsi” mövzusunda beynəlxalq konfransın iştirakçılarına məktubdakı aşağıdakı fikirlər bir-birini tamamlamaqdadır: “Ermənistan öz destruktiv mövqeyindən əl çəkməli və beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini yerinə yetirməlidir. Əgər Ermənistan, həqiqətən də, Azərbaycanla sülhə nail olmaq istəyirsə, onda əsir və girov götürülmüş azərbaycanlılara münasibətdə törədilmiş vəhşilikləri qətiyyətlə pisləməli və günahkarları cəzalandırmalıdır. Bu, həmçinin iki ölkə arasında təsirli etimad quruculuğu tədbirlərindən biri ola bilər”.

Prezident İlham Əliyevin ayrıca son dərəcə vacib olan bir məqama da diqqət yetirdiyi görünür. Söhbət bilavasitə Azərbaycanla Ermənistan arasında etimad mühitinin formalaşmasından gedir. Daha doğrusu, Ermənistanın Azərbaycanın etimadını qazanmasından. Bunun yolu isə rəsmi şəkildə üzr istəməkdən keçir. Dövlətimizin başçısı hər iki məktubunun müxtəlif hissələrində sadaladığı faktlarla Ermənistanın Azərbaycandan nəyə görə üzr istəməli olduğunu diqqətə çatdırır. Məsələn, Prezident artıq bir ildir ölkəmizin öz suverenliyini və konstitusiya quruluşunu tam bərpa etdiyini, ərazilərimizdə mövcud olan “boz” zonanın aradan qaldırıldığını, separatizmə son qoyulduğunu vurğulayır.

*(ardı 8-ci səhifədə)*

## Prezident İlham Əliyev Suqovuşanın azad olunması ilə bağlı paylaşım edib



**Prezident İlham Əliyev Suqovuşanın işğaldan azad edilməsi ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb.**

Paylaşımda “Zəfər tariximiz - Suqovuşanın Ermənistan işğalından azad edilməsindən dörd il ötür” sözləri yer alıb.

## Azərbaycan – “sabitlik adası”nın inkişaf vektoru və dünyaya nümunə

### Prezidentin siyasi xətti, nüfuz və güc iyerarxiyasındakı mövqeyimiz

**Dünya mürəkkəb geosiyasi mübarizə meydanıdır. Hərdən elə gəlir ki, Üçüncü Dünya müharibəsi başlayıb. Bəlkə başlayıb da. Ola bilər, müharibənin tarixi hadisə kimi vətəndaşlıq hüququ qazanması üçün zamana ehtiyac var. Yəni, mümkündür ki, onilliklər sonra hazırkı dövrü araşdıranlar indi baş verənləri əsl savaş kimi qiymətləndirsinlər.**



Dünya müharibəsi necə olmalıdır? Sual ritorikdir, çünki onu ayrıca hadisə kimi müəyyənləşdirən meyarlar sıradan çıxıb. İndi informasiya savaşı, media intervensiyası, hibrid təcavüzlər kimi yeni meyillər yaranıb. Görünür, əlahəzrət zaman keçdikcə həmin meyillər baxımından da ümumiləşdirilmiş adlar tapılacaq. Hələlik isə tam bir sistemsizlik var.

Birinci və ikinci cahan savaşını doğuran səbəblər, hətta bəhanələr məlumdur. Onlar barədə söz açmaq niyyətindən uzağıq. Təkcə onu deyək ki, maraq və mənafe toqquşmaları dünyanı cənginə alan hər iki böyük fəlakətdəki başlıca halqadır. Nəzərə alaq ki, yetmiş, yüz iyirmi il əvvəl həmin maraq və mənafelər indiki qədər dərin deyildi, beynəlxalq siyasət də hazırkı dövrdən fərqli olaraq, çoxgedişli mahiyyət daşımırdı.

Hazırda yer üzündə yaşananları məhz dünya müharibəsi kimi qiymətləndirmək üçün ciddi, ancaq pərakəndə əsaslar var. Bu əsasların - yaxın coğrafiyamızda yaşananların, qeyri-sabitliyin, terror aktlarının və qanlı qarşıdurmaların fonunda, istər-istəməz, Azərbaycandakı vəziyyətə də diqqət yetirmək zərurəti yaranır. Qətiyyətli şəkildə, böyük əminliklə vurğulaya bilərik ki, ölkəmiz tam bir “sabitlik adası”dır. Elə bir ada ki, ümumilikdə dünya üçün nümunədir. Heç şübhəsiz, üzərindən illər keçdikdən sonra Azərbaycanın hazırkı əmin-amanlıq diyarı statusu barədəki fikirlər fundamental elmi araşdırmaların da başlıca mövzusuna çevriləcək.

Bəli, qlobal miqyasdakı mürəkkəb şəraitə rəğmən, Azərbaycanda dinclik hökm sürməkdədir. Ancaq ölkəmizdə, demək olar, hər kəs yaşadığımız Cənubi Qafqaz platformasının nə qədər çətin müstəvi olduğunun fərqindədir. Bu barədə müxtəlif fikir və düşüncələr irəli sürənlər var, hətta fantaziyalarını işə salanlar tapılır. Hər halda, dünyanı cənginə almış gərginlik ab-havasının hansısa təsirləri hiss olunmalıdır. Nə xoş ki, təsirlər özünü əsasən konsprioloji baxışlar şəklində göstərir. Bir çox baxış, mülahizə və ideyaların isə reallıqdan uzaqlığından söz açmır, hər birini təbii qarşılayırıq. Dedik axı təsirlər hiss olunmalıdır.

Təsirlər həm də ona görə olmalıdır ki, xalqımız hazırda Ermənistanla sülh prosesindən, habelə ölkənin barış mühitinə zidd hərəkət və davranışlarından xəbərdardır. Rəsmi İrəvanın və havadarlarının anti-Azərbaycan “fəaliyyəti” xüsusunda dünyadakı mürəkkəb siyasi situasiyanın Cənubi Qafqaz seqmentinin aktiv olduğunu söyləyə bilərik. Başlıca məqam ondadır ki, Azərbaycan dövləti bu seqmentin mövcudluğu şəraitində belə, öz kursundakı dinamikanı, rasionallığı, institusionallığı qoruyur, ətraf aləmin təzyiqləri qarşısında duruş gətirərək, həm iqtisadi inkişafa nail olur, həm hərbi qüdrətini, həm beynəlxalq nüfuzunu artırır, həm də daxili sabitliyi təmin edir.

*(ardı 7-ci səhifədə)*




Səhifə ⇨ 10




Səhifə ⇨ 12

# Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri

## Cəbrayılın Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunun Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar.**

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma kənddə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihələndirilən ümumi ərazi 248 hektardır və perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub.

Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün tikilən 334 fərdi evin hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür. İnşa olunan evlər iki, üç, dörd və beş otaqdan ibarətdir.

Həmçinin burada məktəb binası, uşaq bağçası və digər iaşə obyektlərinin tikintisi davam etdirilir.

Diqqətə çatdırıldı ki, kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənddə hazır evlərə baxdılar.

Qeyd edək ki, Horovlu kəndinin təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

## Prezident orta məktəb binasının açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər.**

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Diqqətə çatdırıldı ki, ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində abadlıq işləri görülüb, futbol, basketbol, voleybol və açıq oyun meydançaları yaradılıb.

Xatırladaq ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Cəbrayıl şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Prezidenti 2021-ci ildə Sərəncam imzalayıb.

Təhsil ocağının təməli 2021-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Bu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapıb. Tədbirlər Planına əsasən, Elm və Təhsil Nazirliyinə 2022-2026-cı illərdə ərazi planlaşdırma sənədlərinə uyğun olaraq, yaşayış məntəqələrində təhsil müəssisələrinin tikintisi və bərpası ilə bağlı təkliflərin hazırlanması tapşırılıb.

## Cəbrayılda alkoqolsuz içkilər istehsal ediləcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Cəbrayıl şəhərində "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməlini qoyub.**

"Azərsun Holdinq" şirkətinin Müşahidə Şurasının sədri Abdolbari Gözəl dövlətimizin başçısına istehsal kompleksi haqqında məlumat verdi.

Bildirildi ki, qazlı və qazsız su, soyuq çay, soyuq qəhvə, limonadlar, təbii meyvə şirəli içkilərin istehsal ediləcəyi müəssisənin illik istehsal gücü 250 milyon PET şüşə, 350 milyon alüminium tənəkə qutu təşkil edəcək. Ölkəmizdən valyuta axınının qarşısının alınmasına töhfə verəcək alkoqolsuz içkilərin istehsalı kompleksi müasirlik və dayanıqlılıq prinsiplərinə uyğun avadanlıqlarla təmin ediləcək. Müəssisədə alternativ enerji mənbələrindən istifadə olunacaq.

Tam istehsal gücü ilə fəaliyyətə başladıqdan sonra kompleksdə Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Cəbrayıl şəhərinə qayıdacaq 300-ə yaxın sakinin işlə təmin edilməsi nəzərdə tutulur.

Alkoqolsuz içkilərin istehsalı kompleksinin istismara verilməsi üçün ilkin mərhələdə 35 milyon manat həcmində investisiyanın qoyuluşu nəzərdə tutulur.

Prezident İlham Əliyev kompleksin təməlini qoydu.

## Damazlıq yumurta fabrikində təməlqoyma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Cəbrayıl rayonunda "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin təməlini qoyub.**

"Hicaz" MMC-nin təsisçisi Səfər Sadıqov dövlətimizin başçısına müəssisə haqqında məlumat verdi. Bildirildi ki, müəssisə 3 sahədən - damazlıq yumurta, inkubator və yem fabriklərindən ibarət olacaq.

Birinci mərhələdə 30 hektar ərazidə hər biri 1600 kvadratmetr olmaqla 24 damazlıq yumurta istehsalı sahəsi tikiləcək. Burada illik 24 milyon ədəd damazlıq yumurta istehsal ediləcək. Bununla yanaşı, 2 hektar ərazidə saatda 40 ton istehsal gücünə malik yem fabriki və inzibati bina inşa olunacaq. Həmçinin 2 hektar ərazidə yerləşən soyuducu anbar və illik 24 milyon ədəd yumurta tutumuna malik inkubasiya fabriki fəaliyyət göstərəcək.

Bütün istehsal zamanı müasir avadanlıqlardan istifadə olunacaq. Müəssisədə istehsal olunan məhsulun keyfiyyətinin daim nəzarətdə saxlanılması məqsədilə ən müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya da fəaliyyət göstərəcək.

Layihə üzrə 150 daimi iş yerinin yaradılması nəzərdə tutulub.

Prezident İlham Əliyev fabrikin təməlini qoydu.



## "Araz Vadisi İqtisadi Zonası"nda yeni müəssisələr yaradılacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlqoyma mərasimlərində iştirak ediblər.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına və birinci xanıma sənaye parkında görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. Bu baxımdan yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin - sənaye zonalarının (sənaye parkları və məhəllələri) yaradılması və fəaliyyətinin genişləndirilməsi xüsusi önəm kəsb edir.

İşğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, yeni əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır.

*(ardı 3-cü səhifədə)*

# “Araz Vadisi İqtisadi Zonası”nda yeni müəssisələr yaradılacaq





*(əvvəli 2-ci səhifədə)*

İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. azad edilmiş ərazilərimizə investorların marağını artırır. Cəbrayıl rayonunun Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.

Dövlətimizin başçısının 2021-ci il 4 oktyabr tarixli Fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində Cəbrayıl rayonunda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı yaradılıb. Sənaye parkının əsas fəaliyyət istiqaməti kimi Parkda logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır.

Ərazisi 200 hektar olan sənaye parkı logistik imkanlar baxımından çox əlverişli ərazidə təşkil olunub ki, bu da sahibkarların diqqətini cəlb edən əsas məqamlardan biridir. Belə ki, bu sənaye parkı yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir.

Sənaye parkının hazırda 13 rezidenti və 1 qeyri-rezidenti var. İnvestorlar tərəfindən ümumi olaraq parka 133,8 milyon manat investisiyanın yatırılması, 2 mindən çox iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parkına 20 milyon manatdan artıq investisiya yatırılıb, 40-dan çox daimi iş yeri yaradılıb.

Rezidentlər tərəfindən sənaye parkında fibrobeton və polistirolbeton blokların, quru inşaat qatqılarının, tamet daşların, müxtəlif çeşiddə yapışqan lentlərin, ayaqqabıların, dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların və digər məhsulların istehsalı, 40 otaqlı hotelin və 100 nəfərlik restoranın tikintisi həyata keçiriləcək, logistik mərkəz inşa olunacaq.

Hazırda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında bir müəssisə fəaliyyət göstərir. Müəssisədə kənd təsərrüfatı texnikalarına, yük maşınlarına texniki servis xidməti göstərilir.

*

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənaye parkında əvvəlcə Litvanın “Dominari” şirkətinin mebel klasterinin təməlqoyma mərasimində iştirak etdilər.

Məlumat verildi ki, Litvanın “Dominari” şirkəti “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Şirkət tərəfindən sənaye parkının 10 hektar ərazisində 5 mərhələdən ibarət mebel klasteri layihəsinin həyata keçirilməsi nəzərdə tutulur.

İlkin mərhələdə döşək istehsalının əsas xammalı olan paralon materialının istehsalı zavodunun və mebel klasterinin müxtəlif mərhələlərini parça ilə təmin edəcək toxuculuq fabrikinin qurulması planlaşdırılır. İnvestisiya dəyəri 50 milyon manatdan çox olan müəssisədə ilkin mərhələdə 650 nəfər işlə təmin ediləcək. İşçilərin Cəbrayıl və ətraf rayonlardan cəlb olunması nəzərdə tutulur.

Şirkət ildə 6 min ton elastik poliuretan, 250 min ədəd müxtəlif mebel, həmçinin döşəklər, divanlar və çarpayılar üçün 1 milyon ədəd üzlük, 200 min döşək, 5,5 min kubmetr mebel komponentləri istehsal edəcək. İstehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, ixracı da həyata keçiriləcək.

Qeyd edildi ki, Litvanın “Dominari” şirkəti qısa müddət ərzində Baltikyanı ölkələrin və Şərqi Avropanın aparıcı mebel istehsalçılarından birinə çevrilib. Hazırda şirkət 2 min işçi və 200-dən çox korporativ müştəri bazasına malikdir.



Prezident İlham Əliyev “Dominari” şirkətinin mebel klasterinin təməlini qoydu.

*

Sonra dövlətimizin başçısı və birinci xanım sənaye parkında “Karabakh Stone” MMC-nin zavodunun təməlqoyma mərasimində iştirak etdilər.

Məlumat verildi ki, “Karabakh Stone” MMC 2024-cü ilin iyulunda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Şirkət sənaye parkının 3,5 hektar ərazisində yol və müxtəlif sahələrin abadlaşdırılması üçün dekorativ daşlar (tamet daşlar) və səki bordürlərinin istehsalı ilə məşğul olacaq.

İnvestisiya həcmi 7,8 milyon manat olan layihə çərçivəsində 95 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

İstehsal gücü 1 milyon 250 min kvadratmetr təşkil edəcək müəssisədə hazırlanacaq məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. Türkiyə texnologiyasından istifadə ediləcək müəssisənin 2025-ci ildə fəaliyyətə başlaması planlaşdırılır.

Dövlətimizin başçısı zavodun təməlini qoydu.

*

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənaye parkında, həmçinin “Prestij-Kimya” MMC-nin zavodunun təməlqoyma mərasimində iştirak etdilər.

Bildirildi ki, şirkət sənaye parkının 2,15 hektar ərazisində dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların istehsalını həyata keçirəcək zavod inşa edəcək. İnvestisiya dəyəri 5,8 milyon manat olan müəssisədə 214 nəfər daimi işlə təmin ediləcək.

Türkiyənin, Çinin, Avropanın qabaqcıl ölkələrinin texnologiyalarından istifadə ediləcək müəssisədə il ərzində 30 min ton müxtəlif dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhsulların istehsal olunması nəzərdə tutulur. Müəssisədə istehsal olunacaq məhsulların daxili bazarla yanaşı, xarici bazarlarda da satışı planlaşdırılır.

Dövlətimizin başçısı zavodun təməlini qoydu.

# Prezident İlham Əliyev Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin (ASC) Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.**

“Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Rəqəmsal İdarəetmə Mərkəzi iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə hər birinin gücü 2500 kV olan iki güc transformatoru, 35 və 0,4 kV-luq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə isə idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Mərkəzin elektrik təchizatı üçün 110/35/10 kilovoltluq “Zəngilan” yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib.

Diqqətə çatdırıldı ki, Mərkəz elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Prezident İlham Əliyev “Azərişıq” ASC-nin Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı.

Qeyd olundu ki, rəqəmsal yarımstansiyadan qidalanan istehlakçılar elektrik enerjisi verilişində fasilələrin yaranması barədə məlumatları onlayn qaydada əvvəlcədən ala bilərlər. Bərpaolunan enerji mənbələrinin şəbəkələrə inteqrasiya edilməsi prosesi rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə işin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə koordinasiyasını tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, yaşıl enerji mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir, daimi işçi heyətə ehtiyac olmur.

# Zəngilan şəhərində beşinci yaşayış kompleksinin təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində beşinci yaşayış kompleksinin təməlini qoyub.**

Dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Qeyd olundu ki, yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir. Kompleksin ərazisi məktəb və uşaq bağçası, Zəngilan Konqres Mərkəzi və şəhər parkının yaxınlığında yerləşir.

Yaşayış məhəlləsi 5 hektar ərazini əhatə edir. Burada binalar 3, 4, 5 və 6 mərtəbədən ibarət olacaq. Ümumilikdə bu yaşayış kompleksində 334 mənzilin inşası nəzərdə tutulub.

Prezident İlham Əliyev yaşayış kompleksinin təməlini qoydu.

# 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olub.**





Dövlətimizin başçısına yaşayış kompleksi barədə məlumat verildi.

Qeyd edək ki, Zəngilan şəhərində quruculuq işlərinin geniş vüsət aldığı yerlərdən biri də bu yaşayış kompleksidir. Kompleksin təməli 2022-ci il oktyabrın 19-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Bildirildi ki, 12 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 1,92 hektardır və burada 104 mənzil inşa olunub. Kompleksdəki binaların inşasında modern və minimalistik memarlıq yanaşmalarından, həmçinin milli naxış elementlərindən istifadə edilib.

Yaşayış məhəlləsi şəhərin mərkəzi hissəsində, məktəb, uşaq bağçası və şəhər parkının yaxınlığında, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir.

# Altıncı yaşayış kompleksində 177 mənzil olacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində altıncı yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak edib.**

Dövlətimizin başçısına yaşayış kompleksi barədə məlumat verildi.

Bildirildi ki, yaşayış kompleksi orta sıxlıqlı ərazidə, məktəb, uşaq bağçası, inzibati və ticarət zonalarının yaxınlığında yerləşəcək. Kompleks 3 hektar ərazidə yaradılacaq.

Baş plana uyğun olaraq, kompleksdə 3, 4, 5 və 6 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Burada tikiləcək yaşayış binalarında 177 mənzilin olması planlaşdırılıb.

Prezident İlham Əliyev altıncı yaşayış məhəlləsinin təməlini qoydu.

# İstirahət kompleksində tikinti işləri davam edir







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olub.**

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksdə yaradılacaq şərait barədə məlumat verdi.

Qeyd edək ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Kompleksdəki hotel binasının təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Hotel binasında 111 nömrə, konfrans, iclas və ziyafət zalları, fitnes və spa mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. İstirahət kompleksinin ərazisində, həmçinin 10 kottec də qonaqların istifadəsinə veriləcək.

Hoteldə 70 nəfərdən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub. Kompleksin ərazisində üzüm və digər meyvə bağları salınacaq.

Bir sözlə, müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi hotel kompleksi müasir standartlar səviyyəsində inşa olunur. Rayona səfərə gələnlərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.

# “Sarıqışlaq” Su Elektrik Stansiyası istifadəyə verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan rayonunda “AzərEnerji” ASC-nin “Sarıqışlaq” Su Elektrik Stansiyasının açılışında iştirak edib.**

“AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, “Sarıqışlaq” SES Oxçuçayın üzərində kaskad üsulla tikilən Zəngilan silsiləsindəki 4 SES-dən biridir və buna qədər digər 3 SES - “Cahangirbəyli”, “Şayıflı” və “Zəngilan” Su Elektrik stansiyaları dövlətimizin başçısının iştirakı ilə istismara verilib.

Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq tikilən “Sarıqışlaq” SES-də eyni vaxtda derivasiya borularının montajından, bünövrə işlərindən tutmuş maşın zalının tikilməsinə, açıq paylayıcının qurulmasına qədər bütün işlər tam normativ qaydalara uyğun həyata keçirilib.

Flora və faunanın qorunması üçün xüsusi qurğular quraşdırılmaqla yaradılan baş suqəbuledicidən çıxan suyun 35 faizi çay məcrasında saxlanılmaqla derivasiya boruları çəkilib və borudan çıxan suyun itkisiz şəkildə çaya təkrar buraxılması təmin edilib.



“Sarıqışlaq” SES-də tikilən maşın zalında çayda su azalarkən özünü avtomatik dayandıra bilən 2 ekoturbin quraşdırılıb ki, bu turbinlər Oxçuçayın ekoloji axımından iki dəfə artıq suyun çayda saxlanılmasını təmin edir.

Qeyd olunub ki, su elektrik stansiyasında 110 kV-luq açıq paylayıcı qurğu tikilib. Bu qurğu nəinki “Sarıqışlaq” SES-də, eyni zamanda “Şayıflı” SES-də istehsal olunan yaşıl enerjinin sistemə ötürülməsi funksiyasını icra edir. Burada həm yarımstansiya, həm də bütövlükdə su elektrik stansiyası rəqəmsal avadanlıqlarla təchiz edilərək avtomatik idarəetmə sistemi ilə təmin olunub.

*(ardı 5-ci səhifədə)*

# “Sarıqışlaq” Su Elektrik Stansiyası istifadəyə verilib



Yerli mütəxəssislər tərəfindən layihələndirilməklə, tam yeni tikilmiş 42 MVt gücündə kaskad tipli bu 4 stansiya qoyuluş gücünün 70 faizdən çox hissəsi ilə çalışır. Burada istehsal olunun enerjinin bir hissəsi daxili tələbata sərf edilir, artıq qalan enerji isə ölkə enerjisisteminə yönləndirilir. Bu da regional enerji müstəqilliyini artırır və ətraf mühitin qorunmasına töhfə verir.

Ümumilikdə isə bu günədək “AzərEnerji” tərəfindən Qarabağda və Şərqi Zəngəzurda istismara verilən 270 meqavat gücündə 32 Su Elektrik Stansiyasında hava şəraitindən asılı olan digər bərpaolunan enerji mənbələrindən fərqli olaraq, 24 saat fasiləsiz yaşıl enerji istehsal edilir.

Prezident İlham Əliyevin regionun yaşıl enerji zonasına çevrilməsi barədə qəti mövqeyinin nəticəsi kimi ölkə enerjisistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur regionları istismarda olan su elektrik stansiyaları hesabına ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı bölgəyə çevrilib və elektrik enerjisi tələbatı tam həcmdə yaşıl enerji hesabına təmin edilir.



*(əvvəli 4-cü səhifədə)*

“Sarıqışlaq”da il ərzində 33 milyon kilovat-saatadək elektrik enerjisinin istehsal olunması, bununla da 7,4 milyon kubmetr qaza qənaət edilməsi və atmosferə atılan 13 min ton karbon qazının qarşısının alınması nəzərdə tutulur.

Prezident İlham Əliyev “Sarıqışlaq” Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, “Sarıqışlaq” SES-in də daxil olduğu 4 SES-dən ibarət 42 meqavatlıq Zəngilan silsiləsi işğaldan azad edilən ərazilərdə yaradılan ən böyük silsilədir.

***AZƏRTAC***

# Əli Əsədovun Belarusa səfəri



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Minskə rəsmi səfəri çərçivəsində oktyabrın 3-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Əli Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Belarus dövlətinin başçısına çatdırıb.

Görüşdə Azərbaycan ilə Belarus arasında dostluq və tərəfdaşlıq münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə olunub.

Qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

*

**Belarus Respublikasına rəsmi səfəri çərçivəsində Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi Azərbaycan Respublikasının nümayəndə heyəti oktyabrın 3-də Minsk şəhərindəki “Qələbə” abidəsini ziyarət edib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, Əli Əsədov abidənin önünə əklil qoyub.

Sonra Azərbaycanın və Belarusun Dövlət himnləri səsləndirilib.

*

**Minskdə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 3-də Belarus Respublikasının Baş naziri Roman Qolovçenko ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, əvvəlcə hökumət başçılarının məhdud tərkibdə görüşü keçirilib. Sonra müzakirələr hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüşdə Azərbaycan-Belarus dövlətlərarası münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə olunub, iki ölkənin prezidentlərinin sıx təmasları və birgə səyləri nəticəsində müxtəlif sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın dinamik inkişafı qeyd edilib.

Bu xüsusda Belarus Prezidentinin bu ilin mayında Azərbaycana dövlət səfərinin əhəmiyyəti vurğulanıb.

Hökumət başçıları iqtisadi-ticari əməkdaşlığa dair cari məsələləri müzakirə ediblər. Bildirilib ki, bu ilin 8 ayının yekunları üzrə qarşılıqlı ticarətin həcmində 39 faiz artım müşahidə olunub. Ticarət dövriyyəsinin artması tendensiyasının dəstəklənəcəyinə əminlik ifadə edilib.

Vurğulanıb ki, dövlət başçılarının qarşılıqlı maraq doğuran bir sıra perspektivli istiqamətlər üzrə layihələrin hazırlanması ilə bağlı birgə qərarı çoxşaxəli qarşılıqlı fəaliyyətə mühüm təkan verib.

Bu baxımdan iki ölkənin prezidentlərinin razılaşmalarının və tapşırıqlarının icrasına xüsusi diqqət yetirilir.

Bir sıra sahələrdə, o cümlədən sənaye kooperasiyası, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aqroşəhərciklərin salınması, həmçinin peşə təhsili sahəsində konkret layihələrin işlənib hazırlanmasında əldə olunan uğurlardan məmnunluq ifadə edilib.

Sənaye kooperasiyası Azərbaycan-Belarus əməkdaşlığının əsas istiqaməti kimi qiymətləndirilib, Gəncə Avtomobil Zavodu ilə Belarusun aparıcı maşınqayırma müəssisələri arasında uzunmüddətli uğurlu qarşılıqlı fəaliyyətə xüsusi diqqət yetirilib.

Hökumət başçıları aqrar sahədə əməkdaşlığın sabit inkişafını qeyd edib və hər iki tərəfin kənd təsərrüfatı məhsullarının qarşılıqlı tədarükünü artırmağa hazır olduğunu təsdiqləyiblər.

Tərəflər nəqliyyat və tranzit sektorunda əməkdaşlığın dərinləşdirilməsini zəruri hesab ediblər.

Ənənəvi olaraq mədəni-humanitar əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə edilib. Hökumət başçıları mədəni, elmi və gənclər mübadiləsinin intensivləşdirilməsini, eləcə də təhsil sahəsində qarşılıqlı fəaliyyətin inkişafını təqdir ediblər.



Tərəflər, həmçinin Belarus Prezidentinin dövlət səfəri zamanı iki ölkənin bir sıra şəhərləri arasında qardaşlaşmış şəhərlər əlaqələrinin yaradılmasına dair sazişlərin imzalanmasının göstəricisi kimi regionlararası əməkdaşlığın genişləndirilməsini qeyd ediblər.

Turizm sahəsində əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğu vurğulanıb.

Əli Əsədov və Roman Qolovçenko, həmçinin qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivlərini müzakirə edib, Azərbaycan və Belarus üçün qarşılıqlı maraq doğuran bütün aktual məsələlər üzrə birgə fəaliyyət göstərməyə hazır olduqlarını bildiriblər.

Danışıqların yekununa dair Ağdam rayonunda kənd təsərrüfatı istehsalının inkişafı, səhiyyə sahəsində əməkdaşlıq, Ağdam rayonunun Qızıl Kəngərli kəndində aqroşəhərciyin layihələndirilməsi və yanğınsöndürmə avadanlığının tədarükü ilə bağlı bir sıra sənədlər imzalanıb.

***XQ***

## Almaniya Federativ Respublikasının Prezidenti Zati-aliləri cənab Frank-Valter Ştaynmayerə

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Alman Birliyi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

Biz Azərbaycan-Almaniya əlaqələrinin hərtərəfli inkişafına xüsusi önəm veririk. İnanıram ki, ölkələrimiz arasında dostluq münasibətlərinin, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Noyabr ayında Bakıda keçiriləcək COP29 çərçivəsində Almaniya ilə sıx əməkdaşlıq edəcəyimizə ümidvar olduğumu bildirirəm.

Belə bir bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2024-cü il**

## İraq Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdüllətif Camal Rəşidə

**Hörmətli cənab Prezident!**

İraq Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri birgə səylərimizlə bundan sonra da inkişaf edəcək, həm ikitərəfli qaydada, həm də çoxtərəfli təsisatlarda əməkdaşlığımız daha da genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İraq xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2024-cü il**

## Koreya Respublikasının Prezidenti Zati-aliləri cənab Yun Sok Yola

**Hörmətli cənab Prezident!**

Koreya Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan Koreya ilə əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Koreya Respublikasına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 sentyabr 2024-cü il**

# Fransanın Afrikada neokolonializm siyasəti insanlığa ləkədir




**(əvvəli 1-ci səhifədə)**

Müzakirələr "Delimitasiyası olunmuş, lakin azad olmayan: neokolonializmin Afrikada yeni təzahürləri", "Afrikanın inkişafı üçün iqtisadiyyatın dekolonizasiyası", "Afrikalıların kimliyin müəyyənləşdirilməsi üçün sosial və mədəni dirçəliş" mövzularında sessiyalarla davam edib.

Mavritaniyalı jurnalist Abdarahman Von bildirib ki, Afrika ölkələri Fransa müstəmləkəçiliyindən əziyyət çəkən ölkələrdəndir: “Bu müstəmləkə vəziyyəti qadınlarımızın, uşaqlarımızın ləyaqətlə yaşamalarına imkan vermir. Bizə qarşı diskriminasiya siyasəti həyata keçirilir, qul kimi yanaşılır. İnanırıq ki, müstəmləkəçiliyə qarşı bu mübarizəmizi qazanacağıq”.

Milli Məclisin deputatı Nizami Səfərov deyib ki, insanlıq əleyhinə cinayətlərin konsepsiyası məhz Afrikada hələ də izləri görünən Trans-Atlantik qul ticarəti ilə bağlıdır. İnsanlıq əleyhinə cinayətlərin mənbəyi məhz quldarlıq, Afrikada baş verən qul ticarətidir. Şübhəsiz ki, Fransa bu cinayətin törədilməsində çox fəal rol oynayıb. 1998-ci ildə Qayanadan olan deputat Kristian Tobira Fransa parlamentində səsləndirdiyi qanun layihəsində iki məsələ öz əksini tapmalı idi: Fransanın daxili cinayət qanunvericiliyinə uyğun olaraq quldarlığın, qul ticarətinin insanlıq əleyhinə cinayət kimi tanınması və reparasiya məsələsi, ümumiyyətlə, beynəlxalq müstəvidə reparasiya və kompensasiya. Ancaq çox təəssüf ki, bu məsələ Afrika xalqlarına, Afrika dövlətlərinə münasibətdə qanun layihəsindən kənarda qaldı”.

Malidən olan QHT rəhbəri Kabin Dumbia qeyd edib ki, iqtisadi müstəqilliyi əldə etmək üçün təbii resurslara tam sahib olmaq, istehsal zəncirini qurmaq, yerli istehsalı təşviq etmək zəruridir. Bəzən xarici qüvvələr sülhü təmin etmək və ya terrorla mübarizə adı altında Afrika ölkələrinə müdaxilə edirlər. Konqo Kinşasa Dünyəvilik Evinin rəhbəri Dani Bos Sinqoma Kabaqambe deyib: "Konqo Demokratik Respublikası kolonializm uğrunda mübarizədə həlak olmuş Patris Lubumbanın vətəndir. Neokolonializmlə mübarizə bütün bəşəriyyətin vəzifəsi olmalıdır”.

Mübarizə fəalı Kemi Seba “neoliberalizm” adı altında Qərb dəyərlərinin bir çox ölkələrə yeridildiyini bildirib. Onun sözlərinə görə, Berlin divarının dağıdılmasından sonra Avropa dövlətləri Mali, Benin, Burkina-Faso və digər Afrika ölkələrini bir-birindən ayırmağa çalışdılar. Lakin indiki Afrika gəncləri bunu bilir və buna imkan vermirlər: “Azərbaycan hazırda Fransa ilə gərginlik yaşayır. Siz nəzərə alın ki, biz 500 ildir bu ölkənin zülmündən əziyyət çəkirik. Rəsmi Parisin Qarabağla bağlı mövqeyi Afrika ölkələri, Qviana, Martinika və Qvadelupaya münasibətilə daban-dabana ziddir”.

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq İlyas Hüseynov qeyd edib ki, ikili standartların ən çox müzakirə olunan və ən ağrılı tərəfi böyük dövlətlərin kiçik dövlətlərə, ümumiyyətlə, bir dövlətin digər iki dövlətə qarşı fərqli, qərəzli münasibətidir: “İkili standartlara misal kimi ABŞ, Fransa və digər ölkələrin Ermənistan və Azərbaycana qarşı siyasətini göstərmək olar. ABŞ Konqresinin Azərbaycan dövlətinə yardımı qadağan edən 907-ci düzəlişi də ikili standartın bariz nümunəsi hesab olunur”.

Sessiyalardan sonra Təşəbbüs Qrupunun illik fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş etdirilib.

***XQ***

# Gəncə 2020-ci il oktyabrın 4-də

## *Ermənistanın dinc şəhərə raket hücumu qorxaqlıq və məğlubiyyət reaksiyası idi...*



**– Bu nə səs idi?! Bu sualı hamı bir-birinə verərək səs gələn tərəfə qaçırdı. Biri deyirdi yəqin haradasa qaz partlayışı baş verdi. Bir başqası göydən meteorit düşdüyünü iddia edirdi... Amma heç kimin ağlına belə gəlməzdi ki, bu, raket zərbəsidir, cəbhə bölgəsindən 70-80 kilometr aralıda yerləşən Gəncəyə ermənilər tərəfindən atılan ilk xain raket zərbəsi.**

Oktyabrın 4-ü bazar günü idi. Həmin gün şəhər yenə də erkən oyanmışdı. Bir tərəfdən ordumuzun müharibədə qazandığı qələbə xəbərləri, digər tərəfdən Gəncənin artıq ilk şəhidlərini qarşılaması, bu tərəfdən də koronovirus bəlası adamları səksəkəli yatmağa, narahat gecələr keçirməyə məcbur etmişdi. Həmin gün Cəbrayıl şəhərinin azad olunacağı xəbərini də hamı səbirsizliklə gözləyirdi.



Bir gün əvvəl, oktyabrın 3-də Gəncənin 3 igid oğlu – Şahlar Nağıyev, Hüseyn Quliyev və Nicat Qasımov Şəhidlər xiyabanında torpağa tapşırılmışdı. Oktyabrın 4-də daha bir şəhidin – Hikmət Məmmədovun dəfninə hazırlıq gedirdi. Goranboyun Buzluq kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdu. Sentyabrın 27-dən oktyabrın 4-dək Gəncə Şahlar Nağıyev, İlqar Bürcəliyev, Nağı Həşimov və ümumilikdə 17 şəhidi ilə vidalaşmışdı.

...Aradan 4 il keçib. Amma o səhər gördüyüm mənzərəni heç vaxt unuda bilmirəm. Gəncədə uzun illər "Vtoroy çast" kimi tanınan ərazi insan selinə bürünmüşdü. Raketin zərbəsindən yaranan toz-duman hələ də çəkilməmişdi. Adamlar çaşqınlıqla ora-bura qaçırdılar. Hamı kömək göstərmək istəyirdi. Lakin polis, Fövqəladə Hallar Nazirliyinin regional idarəsinin əməkdaşları yaxına heç kimi buraxmırdılar. Sakinlərə xəbərdarlıq edirdilər ki, çəkilsinlər, təkrar zərbələr ola bilər, yaxud zərbədən ciddi zədə almış binalar çökər, bədbəxt hadisə baş verər və sair.

Atılan iki raket zərbəsi şəhərin Nəriman Nərimanov, Əli Nəzmi və Əziz Əliyev küçələrindəki bir sıra qədim yaşayış binalarını dağıtmış, biri isə partlamamışdı. Yeri gəlmişkən, zərbədən dağılan, yanan binaların əksəriyyəti Gəncəyə xas olan qırmızı kərpicdən tikilmiş qədim, iki-üç əsrə yaxın tarixi olan binalar idi.

Minik avtomobilləri yararsız hala düşmüşdü. Raket bir sakinin idarə etdiyi "20 EF 705" nömrəli (şəkildə) nəqliyyat vasitəsini param-parça etmişdi. İçərisində də Tunar Əliyev. Cəmi 20 yaşı var idi. Artıq əsgəri xidmətini də başa çatdırıb geri qayıtmışdı, kafelərin birində işləyirdi. Tunar Gəncəyə oktyabrın ayrı-ayrı günlərində atılan raket zərbələrindən sonra həyatını itirən



26 nəfər mülki sakindən ilk şəhid olanı idi.

Validə Əliyeva, Tunarın anası: – Axşamdan demişdi ki, məni səhər tezdən oyat. Dostları ilə yığışıb Toğanaya, əsgərlərə sovqat aparmalı idi... Ayağımın ucunda yatdığı otağa keçdim və istədim ehmalca oyadam. Gördüm elə şirin-şirin yatır ki, qıymadım, geri qayıtdım... Bir qədər sonra özü oyanıb gəldi. Dedi: "Ana, niyə oyatmamısan, uşaqlar məni gözləyir. Yalandan dedim ki, çağırdım eşitmədin. Süzdüyüm bir stəkan çayı da yarımçıq içib tələsik qapıdan çıxanda mənə elə qəribə baxıb: "Sağ ol, ana, mən getdim" – dedi. O baxışları ömrümün sonuna kimi unutmayacağam. Sanki vidalaşırdı mənimlə.

Tunar ailəmizin sonbeşiyi, iki bacının bir qardaşı idi. O qədər mehriban, istiqanlı, tərbiyəli uşaq idi ki, bunları sözlə ifadə edə bilmirəm. O, mənim arzularımı da özü ilə apardı...

Qoşqar Əliyev, Tunarın atası: – Hamı raketlərin düşdüyü səmtə tərəf qaçırdı. Toz dumandan iki addımlıqdan o tərəf görünmürdü. Bir təhər küçənin başlanğıcına çatdım. Polislər hər yeri bağlamışdılar, adamları geri qaytarırdılar. Təkrar raket zərbəsinin baş verə biləcəyindən ehtiyat edirdilər. Mən də hamı kimi dağıdılmış evə uzaqdan baxıb kor-peşman evə döndüm. Tunarın telefonu cavab vermirdi. Dedim bəlkə iş yerinə dönüb, getdim, orada da yox idi. Evə qayıtdım. Amma ürəyim elə döyünürdü ki, elə bilirdim indicə köksümdən çıxacaq. Bir azdan telefonuma əzik-üzük bir maşın şəkli gəldi və altından da yazmışdılar ki, "Qoşqar dayı, bax gör, bu, Tunarın maşınıdır?" Maşını tanıdım və sonra baş verənləri xatırlamaq istəmirəm...

Bəli, oktyabrın 4-də birinci dəfə "OTR-21 TOÇKA" ballistik raketindən Gəncə vuruldu. Doğrudur, biz hücuma görə məsuliyyəti Ermənistanın daşıdığını bildirsək də, müəyyən qüvvələr ittihamları rədd edirdilər. Hücuma görə məsuliyyəti rəsmi olaraq Dağlıq Qarabağın rəsmiləri üzərinə götürdülər. Onlar hədəfin mülki insanlar yox, guya şəhərdə olan hərbi təyinatlı binalar, habelə Gəncə Beynəlxalq Aeroportu olduğunu bildirdilər. Halbuki Gəncədə bu cür obyektlərin olması xülyadır, onların növbəti uydurmasıdır. Sovetlər dönəmində bunlar olub. Amma görün neçə illərdir ki, Azərbaycan müstəqil dövlətdir və heç bir ölkənin burada nə bazası, nə hərbi aerodromu var. Təbii ki, erməni tərəfi özünü təmizə çıxarmaq üçün iyrənc və vəhşi hərəkətlərini gizlətməyə çalışırdı.

Tarixi qələbəmizi bayram etdiyimiz günlərdə tanınmış jurnalist-politoloq, daim Azərbaycanın haqq işini hər cəhdlə müdafiə edən Maksim Şevçenko ilə ayaqüstü apardığım söhbət yadıma düşür. Maksim deyirdi: "Dinc əhaliyə raket hücumu terrorun qatı nümunəsidir. Bu əməllərin məqsədi mülki sakinlərin öldürülməsi və şəhərdə



genişmiqyaslı dağıntılar törədilməsi yolu ilə kütləvi vahimə yaratmaq olub. Lakin bu cür xain hücumlar əks nəticə verdi. Azərbaycanlılar, o cümlədən Gəncənin qəhrəman oğulları bunun cavabını öz doğma torpaqlarını qaytarmaq üçün hərb meydanında verdilər, terror hücumlarından ölənlərin də əvəzinə vuruşub, onların qisasını aldılar".

... Dörd il əvvəl Gəncəyə atılan ilk raket zərbəsi, əslində, bu qədim şəhərə, Nizami yurduna, onun qəhrəman sakinlərinə deyil, vaxtilə buranın çörəyini yemiş nankorlara – sarkisyanlara, petrosyanlara, köçəryanlara, paşinyanlara, siyasət qumarlarına şirnikləndirilmiş vardanyanlara, arutunyanlara... dəydi. Elə dəydi ki, bir də hardasa sığınacaq tapdıqları başqa bir ölkədə yenidən erməni dövləti qurmaq xəyalına düşsələr, 44 günlük dərs, "dəmir yumruq ", Azərbaycan xalqı, onun yenilməz Ordusu, Prezidentimiz, Ali Baş Komandanımız gəlib dayanacaq gözləri önündə. O zaman yəqin ki, "yox, biz bir daha başqalarının torpaqlarına göz dikmərik", – deyərək ötən günlərini yada salacaq, dərindən ah çəkəcəklər...

Nə deyim, inanmağım da gəlir, inanmamağım da. Qozbeli qəbir düzəldər, deyiblər.

*Hm let QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

**Gəncə şəhəri**

# XİN: Litvanın AŞPA mövqeyi əsassız və qərəzlidir

**Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsberqisin Avropa Şurası Parlament Assambleyasının 2 oktyabr tarixli iclası zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlər tamamilə əsassız və qəbuledilməzdir.**

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsberqisin Avropa Şurası Parlament Assambleyasında Azərbaycan əleyhinə səsləndirdiyi fikirlərə dair bu şərhinin davamında deyib: "Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın dalana dirəndiyini qeyd edən, Avropa Şurası Parlament Assambleyası ilə dialoqa, açıq məsələləri həll etməyə çağıran Litva xarici işlər nazirinə xatırlatmaq istərdik ki, dialoqu dayandıran və bundan imtina edən Azərbaycan deyil, məhz AŞPA-da Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması barədə ədalətsiz və hüquqi cəhətdən suallar doğuran təşəbbüsü dəstəkləyən 76 nəfər parlament üzvləri olub. Avropa Şurası nizamnaməsinin pozulması, AŞPA tərəfindən səlahiyyətlərin aşılması nəticəsində baş vermiş məlum addımdan sonra da Azərbaycan tərəfi müxtəlif kanallarla dialoqa açıqlığını, vəziyyətin həllində səmimi şəkildə maraqlı olduğunu nümayiş etdirib.



Görünən odur ki, Avropa Şurası Nazirlər Komitəsində sədr olan Litva tərəfi Azərbaycanın AŞPA-da hüquqlarının əlindən alınmasından qətiyyən narahat deyil. AŞPA daxilində Azərbaycana qarşı son illər, xüsusilə də ərazilərimizin Ermənistan işğalından azad edilməsindən sonra qərəzli yanaşmalar, ölkəmizin beynəlxalq hüquqa və ədalətə söykənən mövqeyinə kölgə salınmağa yönəlmiş cəhddir. AŞPA-da təmsilçilik Azərbaycanın haqqıdır və bu haqqın qeyd-şərt olmadan təmin edilməsi zəruridir".

Azərbaycan nümayəndə heyətinin səlahiyyətləri barədə məsələyə səs verdiklərinə görə Avropa Şurası Parlament Assambleyası deputatlarının Azərbaycana girişinə qoyulan qadağa ilə bağlı fikirlərə gəldikdə isə bildirilir ki, bu qərar Azərbaycan Respublikasının qanunvericiliyi əsasında suveren hüququmuz çərçivəsində atılıb: "Nazir Landsberqisin AŞPA-nın tribunasından istifadə edərək Azərbaycanda insan hüquqları ilə bağlı səsləndirdiyi əsassız fikirləri də qətiyyətlə qınayırıq. Azərbaycanda milli qanunvericiliyə və Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olaraq bütün əsas hüquq və azadlıqlara tam hörmət edilir. Əsaslı sübutlar əsasında başlanmış və qanunvericiliyin tələblərinə uyğun olaraq aparılan təhqiqatları "ifadə azadlığını məhdudlaşdıran sanksiyalar" kimi qələmə vermək tamamilə yanlışdır.

Litva naziri nədənsə Ermənistan ərazisindən qovulmuş 300 mindən çox azərbaycanlının hüquqları barədə danışmır. Bu kimi qərəzli mövqedən çıxış etmək əvəzinə, Litva nazirinin öz fəaliyyətinə diqqət yetirməsi, həmçinin Azərbaycanla dialoq və əməkdaşlığın bərpası üçün zəruri addımlar atmağa AŞPA-ya çağırış etməsi daha yaxşı olardı".

**Zəfər yürüşünün ünvanları**



# Vətən müharibəsinin xronikası: 4 oktyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərfərlə yazıldı.**

## Zəfər marafonunun 8-ci günü

• Azərbaycan Ordusu Cəbrayıl şəhərini və Cəbrayıl rayonunun bir neçə kəndini işğaldan azad edib. Prezident, Ali Baş Komandan İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bu barədə paylaşım edib: "Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan ordusuna! Qarabağ Azərbaycandır!"

• Prezident İlham Əliyev Cəbrayıl şəhərinin və Cəbrayıl rayonunun doqquz kəndinin işğaldan azad olunması ilə bağlı Azərbaycan xalqına müraciət edib. Müraciətdə vurğulanıb: "Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın ediblər.

Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir".

• Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib.

Müsahibədə Ermənistanın təkcə mülki əhalinin yaşadığı kəndləri ağır artilleriyadan istifadə edərək atəşə tutmaqla yox, eyni zamanda, işğal olunmuş ərazilərdə əcnəbilərin qanunsuz məskunlaşmasını təmin etməklə Cenevrə Konvensiyanı kobud şəkildə pozduğunu bildirən dövlətimizin başçısı deyib: "Biz ərazilərimizin azad olunmasını istəyirik, biz iki ölkə arasında olan münaqişənin həllini tapmağa imkan yaratmaq üçün mandatı olan vasitəçilərə çox güvənirdik. Lakin danışıqlar masasında konstruktiv yanaşma nümayiş etdirmək əvəzinə, Ermənistan iyul ayında bizə qarşı hərbi hücuma keçdi və biz onlara adekvat cavab verdik. Onlar terror aktları törətməyi planlaşdıran diversiya qrupunu göndərdilər və bu diversiya qrupunun başçısı yaxalanmışdır. İndi o, ifadə verir və sentyabr ayında onlar bizim kəndlərimizi və şəhərlərimizi artilleriya bombardmanına tutdular. Münaqişə bölgəsinə yaxın yaşayan sıravi azərbaycanlıların 500-dən çox evi tamamilə dağıdılmışdır və ya onlara ziyan dəymişdir. Buna görə Ermənistan bu təcavüzkar hərəkətləri dayandırmalıdır, onlar qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını üzərlərinə öhdəlik götürməlidirlər".

• Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb.

Müdafiə Nazirliyi mətbuat xidmətinin yaydığı məlumatda bildirilib ki, artıq həmin postda Azərbaycan Bayrağı dalğalanır.

Xatırladaq ki, Mübariz İbrahimov təmas xəttində Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən qəhrəmancasına həlak olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Mübariz İbrahimova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

• Müdafiə Nazirliyinin məlumatında bildirilib ki, Suqovuşan–Ağdərə istiqamətində gedən döyüşlər zamanı düşmənin 77-ci tank taborunun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb. Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə ordumuz tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində 4



avtomobil texnikası məhv edilib. Alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb. Düşmən çoxlu sayda itki verib.

• Ermənistan silahlı qüvvələri Gəncə şəhərində mülki əhalinin sıx yaşadığı məntəqələri ağır artilleriyadan atəşə tutub. Nəticədə bir nəfər həlak olub, 32 nəfər xəsarət alıb. İnfrastruktura və tarixi tikililərə ciddi ziyan dəyib.

Bununla bağlı Baş prokuror Kamran Əliyevin bəyanatında bildirilib: "Məlum olduğu kimi, sentyabrın 27-dən Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasına qarşı başlanmış təcavüz davam edir. Azərbaycan Ordusu tərəfindən əks tərəfə tutarlı cavablar verilməklə mühüm yaşayış məntəqələri və strateji yüksəkliklər azad olunub.

Buna cavab olaraq qondarma "Dağlıq Qarabağ Respublikasının prezidenti" Arayik Arutunyanın tapşırığı əsasında oktyabrın 4-də saat 10 radələrində Cenevrə Konvensiyasının tələbləri pozularaq cəbhə zonasından kənarda yerləşən Azərbaycan Respublikasının ikinci böyük şəhəri, beş yüz mindən çox dinc əhalinin yaşadığı Gəncə şəhəri raket və top mərmilərindən atəşə tutulub".

Bəyanatda da sonra bildirilib ki, əldə olunan məlumata əsasən, Gəncə şəhər sakini Əliyev Tunar Qoşqar oğlu həlak olub, 32 nəfər müxtəlif dərəcəli bədən xəsarəti alıb. Bununla yanaşı, şəhərin infrastrukturuna, yaşayış evlərinə külli miqdarda ziyan vurulub. Dəymiş ziyanın məbləği hadisə yerində fəaliyyət göstərən Baş Prokurorluğun əməliyyat-istintaq qrupu tərəfindən baxış keçirilməklə və digər zəruri istintaq hərəkətləri yerinə yetirməklə dəqiqləşdirilir.

Baş Prokurorluğun məlumatına əsasən, Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində Beyləqan şəhərində iki dinc sakin həlak olub, iki nəfər isə xəsarət alıb. Bununla da həlak olan mülki şəxslərin sayı 22-yə, xəsarət alanların sayı 73-ə çatıb.

• Düşmən Xızı və Abşeron bölgəsinə iki ədəd 300 kilometr məsafəli orta mənzilli raket atıb.

• Azərbaycanın Baş prokuroru Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı beynəlxalq qurumların rəhbərlərinə müraciət ünvanlayıb.

*XQ*

# Azərbaycan – “sabitlik adası”nın inkişaf vektoru və dünyaya nümunə



(əvvəli 1-ci səhifədə)

Tam əminliklə deyə bilərik ki, qlobal miqyasda hökm sürən mürəkkəb təbəddülatlar durumunda ölkəmizdə ictimai-siyasi sabitliyin saxlanılması, bilavasitə Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir. Nəzərə alaq ki, ölkəmizdə Prezident və Parlament seçkiləri keçirildi. Onu da nəzərə alaq ki, seçki heç də adi proses deyil. Dünyanın müxtəlif məmləkətlərində mövcud müstəvidə hansı gərgin situasiyaların yaşandığını hamımız çox yaxşı bilir və görürük. Belə qənaətə gəlirik ki, Azərbaycanın “sabitlik adası” formulu kənar təsirlərə qarşı ciddi müqavimət təbiətinə malikdir. Yazımızın bu yerində Prezident İlham Əliyevin yeddinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin ilk iclasında 2024-cü ilə qiymət xüsusunda səsləndirdiyi fikirlərin üzərində dayanmaq istərdik: “Builki prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, ölkəmizin bütün ərazisində keçirilmişdir. Bu, tarixi hadisədir. İkinci Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir. Ona görə əminəm ki, 2024-cü il bu baxımdan tarixdə qalan il olacaq. Çünki prezident və parlament seçkiləri bütün ərazilərdə keçirilərək bir daha Azərbaycan xalqı öz iradəsini ortaya qoydu”.

Bu gün onu da tam qətiyyətlə demək mümkündür ki, Azərbaycandakı mövcud sabitliyin əsasında duran başlıca amil dövlətimizin siyasi kursunun milli maraqlara tam cavab verməsidir. Milli maraq və mənafelərin rəhbər tutulması xalq-iqtidar vəhdətini formalaşdırır. Elə bir vəhdəti ki, dünyanın bir çox yerlərində ona nəinki rast gəlinmir, heç oxşar durum da yoxdur. Daha bir qənaətə gəlirik ki, Azərbaycanın hazırkı dinamik inkişafı da məhz Xalq-Hakimiyyət vəhdətindən qaynaqlanır. Nəticə etibarilə haqqında söz açdığımız qlobal təbəddülatlar ölkəmizdən yan ötür. Daha böyük nəticələr isə bunlardır: infrastruktur layihələri geniş miqyas alır, avtomobil yolları, tunellər, körpülər, dəmir yolları inşa olunur, beynəlxalq hava limanları istifadəyə verilir, enerji potensialımız gücləndirilir, su elektrik stansiyaları qurulur, məktəblər, xəstəxanalar, sosial obyektlər, kəndlər salınır, bir sözlə, bərpa-quruculuq tədbirləri görülür, üstəlik Böyük Qayıdış Proqramı çərçivəsində işğaldan azad edilmiş bölgələrimizin məskunlaşdırılması həyata keçirilir. Prezident İlham Əliyev çox doğru vurğulayır: “Bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub, - həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə”.

Beynəlxalq müstəvidə güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin təmin olunduğu ölkə kimi tanınan Azərbaycanın inkişafında, əldə etdiyi nailiyyətlərdə həm də müasir çağırışlara əsaslanma faktorunun müstəsna payı var. Bu əsaslanmada mühüm yeri müasir çağırışların milli inkişaf modelinə uğurlu şəkildə tətbiqi tutur. Ümumən, Azərbaycanın “sabitlik adası” formulunu xarakterizə edən cəhətlər isə həddən artıq çoxdur. Həmin cəhətlərin hər biri barədə söz açmaq, konkret rəqəmləri sadalamaq mümkündür. Əminik ki, xalqın rifahı naminə hədəflənən nəticələrin, parlaq göstəricilərin əldə edilməsi, siyasi, hüquqi və sosial-iqtisadi islahatların davamlı olaraq reallaşdırılması ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasındakı mövqeyini daha da möhkəmləndirəcək, həmçinin bundan sonrakı sürətlə irəliləyişimizi şərtləndirəcək.

***XQ-nin analitik qrupu***

# Ermənistanın siyasi oyunbazlığı Moskvanı hiddətləndirir

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova oktyabrın 2-də keçirdiyi mətbuat konfransında maraqlı açıqlamalar verib. O, Qərb ölkələrini həm Ermənistanda, həm də, bütövlükdə, Cənubi Qafqazda sabitliyi pozmaqda ittiham edib. Deyib ki, Qərbin fəaliyyəti məhz bölgədə sabitliyi pozmağa yönəlib.**





Ermənistanda kibertəhlükəsizlik, enerji və sərhəd təhlükəsizliyinə nəzarəti gücləndirməyi planlaşdıran ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) planlarından narazılığını bildirən Zaxarova azərbaycanlı jurnalistin sualına cavab olaraq, Amerika təşkilatının İrəvana maliyyəni artırmaq niyyətindən də məmnun qalmadığını qeyd edib: “Bu, sadəcə olaraq, Qərb ölkələrinin Ermənistanda və bütövlükdə, Cənubi Qafqazda sabitliyi pozmaq istədiklərini təsdiqləyir. Bəs bunun hansı nəticələri var? Bu rəqəmləri siz də bilirsiniz. Onlar gəlişigözəl ifadələrlə danışırlar. Biz bununla bağlı bir neçə dəfə qiymətləndirmə vermişik. Bu faktları, bu tendensiyaları görməmək, artıq oxşar eksperimentlərin aparıldığı qonşu dövlətlərin və dünyanın digər ölkələrinin təcrübəsini nəzərə almamaq mümkün deyil”.

Onun sözlərinə görə, bunun nəticələrindən yalnız milli yönümlü siyasət aparan, tarixi bilən, milli maraqlardan çıxış edən, müvəqqəti rəhbər olmayan, sadəcə, siyasi piar (özünü reklam etmək–S.H.) adamı olmayan, ancaq öz ölkəsi və xalqı haqqında düşünən həqiqi dövlət xadimləri yayına bilərlər: “Yalnız bu halda uğur qazanmaq olar. Amma bütün bunlarla oynasanız, Qərbin vədləri ilə oynasanız... Budur, Qərb, Amerika İrana söz verdi ki, İsrailin törətdiyi siyasi qətllərə cavab verilməzsə, o zaman Vaşinqton gərginliyin azaldılmasına zəmanət verəcək. Ümumiyyətlə, düşünürəm ki, siz və mən Yaxın Şərqdə baş verənlərə və orada gərginliyin necə “azaldıldığını” birlikdə izləmişik. Hamı başa düşür ki, çox şey vəd edə bilərlər, amma konkret kimin nə vəd etdiyini nəzərə almaq lazımdır”.

M.Zaxarova Ermənistan–Rusiya münasibətlərində yaranmış soyuqluq, xüsusilə İrəvanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) fəaliyyətini dondurması barədə də danışıb. Bəyan edib ki, ümumiyyətlə, KTMT hərbi blok deyil. Deyib ki, KTMT öz təhlükəsizliyi ilə bağlı məsələlərdən narahat olan ölkələri birləşdirən təşkilatdır: “Nə nizamnamə sənədlərində, nə də fəaliyyət tarixində bu strukturun kiməsə qarşı yönəldiyini təsdiq edən və ya göstərən bir sübut, bir söz belə yoxdur. Olduqca konkret çağırışlar və bu strukturun məşğul olduğu konkret problemlər, məqsədlər, vəzifələr var. KTMT heç kimə qarşı yönəlməyib. O, NATO deyil. KTMT NATO çətiri, brendi və ya françayzinq (kommersiya münasibətlərinin bir növü–S.H.) altında hər hansı yeni birləşmə deyil. Ona görə də bu kimi fikirlərin heç bir halda KTMT-yə aidiyyəti yoxdur”.

Diplomat Ermənistan media nümayəndəsinin təxribatçı sualına cavab olaraq bildirib ki, Avropa İttifaqı militarizasiya kursu götürüb: “Söhbət təkcə aqressiv planlarını gizlətməyən NATO-dan yox, həm də hərbiləşdirmə kursu götürmüş Avropa İttifaqından gedir. Çünki o, doğrudan da, NATO-nun bir növ əlavəsinə çevrilib. Yeri gəlmişkən, həmin Avropa İttifaqı Azərbaycanın dəfələrlə ifadə etdiyi narazılıqlara baxmayaraq, Ermənistanda qondarma mülki müşahidə missiyasını yerləşdirib. Bu isə bərabərhüquqlu olmayan, qarşılıqlı hörmətə əsaslanmayan tərəfdaşlıq və ya əməkdaşlıqdır. Görürsünüz ki, bu, Avropa İttifaqının öz maraqlarını regionda aqressivcəsinə yeritməsidir. Halbuki bu regionun Avropa İttifaqına aidiyyəti yoxdur. Avropa İttifaqı nümayəndələri xoş niyyət pərdəsi altında gizlənərək, Azərbaycana, İrana, Türkiyəyə və əlbəttə ki, Rusiyaya qarşı kəşfiyyat məlumatları toplamaqla məşğuldurlar. Bəlkə də ilk növbədə Rusiyaya qarşı...”

M.Zaxarova daha sonra deyib: “Ümid etmək istəyirəm ki, tezliklə Azərbaycan və Ermənistan arasında münasibətlərdə üçüncü tərəfin iştirakı artıq olacaq”.

Rusiya rəsmisinin fikirlərinə Ermənistanda reaksiya özünü çox gözlətməyib. Rəsmi şəxslər bununla bağlı hansısa açıqlamalar verməsələr də, Paşinyan iqtidarına yaxınlığı ilə seçilən media resursları dərhal hərəkətə gəliblər. Onlardan Zaxarova mətbuat konfransını bitirər-bitirməz “Armenian Report” saytında yerləşdirilmiş “Müqavilələrə sadiq olmayanlar haqqında. Tarixə ekskursiya” sərlövhəli analitik məqalə diqqəti cəlb edir. Məqalədə bildirilib ki, Ermənistan baş naziri Nikol Paşinyan bir neçə gün əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşəndə onu tənqid edənlərin çoxu görüşün yeri və vaxtının gizli simvolikasına diqqət çəkiblər. Xatırladaq ki, görüş Nyu-Yorkdakı “Türk evi”ndə keçirilib: “Bəli, bəzən bu və ya digər hadisələrin baş verdiyi yerlər, zaman, hətta dövlət adamlarının dedikləri çox önəmli olur. Oktyabrın 2-də Varşavada Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Rusiyanı tənqid atəşinə tutaraq, Moskvanı 2020-2023-cü illərdə Ermənistana kömək göstərməməkdə ittiham edib. Düz 80 il əvvəl Varşavada nə baş verdiyini bilirsinizmi? 1944-cü il oktyabrın 2-də anti-Hitler üsyanı, nəhayət, o zaman Polşanı işğal edən alman nasistləri tərəfindən yatırılmışdı. Həmin vaxt sovet ordusu artıq Polşaya daxil olmuşdu və Varşavanın kənarında idi. Onlar üsyançı polyaklara dəstək verə bilərdilər. Amma yox – İosif Stalinin başqa planları var idi: Polşanı SSRİ-nin nəzarətində olan sosialist dövlətə çevirmək. Kreml bu məsələdə liberal, həm anti-faşist, həm də anti-sovet baxışlara malik daxili orduya deyil, kommunist Polşa ordusuna arxalanırdı. Nəticədə üsyan qan içində boğuldu, 18 minə yaxın üsyançı və 180 min dinc sakin həlak oldu. Onilliklər boyu kommunistlər tərəfindən Polşa xalqının “beyninin yuyulması”, hər cür “dostluq bayramları” polyaklara şərqdən olan slavyan “qardaşları”nın ən böyük xəyanətini unutdura bilmədi”.

Yazıda qeyd edilib ki, bu mənada A. Mirzoyan polyaklara yaxşı başa düşəcəkləri sözləri deyib: “Onilliklər ərzində erməni xalqı inanırdı ki, nəsə olarsa, Rusiya Federasiyası bizə kömək edəcək, bizi qoruyacaq. Amma ermənilər gördü ki, belə deyil, biz bu yardımı görmədik. Üstəlik, 2020-ci il müharibəsindən sonra Rusiya sülhməramlıları Dağlıq Qarabağa göndərildi, lakin biz gördük ki, məcburi köçkünlük (?) zamanı sülhməramlı missiya işləmədi və özünü doğrultmadı”.

Bildirilib ki, 2021-2022-ci illərdə sərhəddəki silahlı toqquşmalar zamanı İrəvanın KTMT-dəki müttəfiqləri heç bir reaksiya verməyiblər: “Doğrudan da, ermənilərin və xüsusən də “Artsax xalqı”nın başına gələnlər 80 il əvvəl Varşava üsyançılarının başına gələnlərlə eyni idi. Xalqımız Azərbaycan–Türkiyə müttəfiqliyinin qoşunlarına (?) qarşı II Qarabağ savaşında KTMT və Rusiyanın köməyə gələcəyinə ümid edərək “mərdliklə” döyüşdü. Amma bu, 2020-ci ildə baş vermədi. Dedilər ki, bu, KTMT-nin məsuliyyət zonasında deyil. 2021-2022-cü illərdəki sərhəd insidentləri zamanı bildirdilər ki, sərhədləriniz müəyyən edilməyib. 2023-cü ilin sentyabrında isə “sizin Paşinyan özü Qarabağı Praqada təslim etdi” deyərək yaxalarını kənara çəkdilər. Yeri gəlmişkən, oktyabrın 2-də Mariya Zaxarovadan mirvari muncuğu kimi yeni sözlər eşitdik: “Ümumiyyətlə, KTMT hərbi blok deyil... KTMT öz təhlükəsizliyindən narahat olan ölkələri birləşdirən təşkilatdır”, “o, heç kimə qarşı yönəlməyib” və sair. Halbuki, 2013-cü ilin sentyabrında bizə hər şeyi başqa cür vəd etmişdilər. Deyirdilər ki, KTMT-nin arxasında, daş divarın arxasında dayandığı kimi dayanacağıq!”

Yazıda qeyd edilib ki, yüz il əvvəl Ermənistanın ilk ədliyyə naziri olmuş Artaşes Çilingaryan yazırdı: “Nə qədər ki, biz qul idik və təslim olmağa hazır idik, rus bizim “dostumuz” idi. Amma biz azad və suveren olduğumuz, azad olmaq və suveren qalmaq istədiyimiz gündən Rusiya bizim düşmənimiz oldu və o, bizim ən təhlükəli düşmənimizdir”. Həmin vaxtdan bir əsr keçib, amma soyuq şimal ölkəsinin siyasətində heç nə dəyişməyib. Baxmayaraq ki, nəsə dəyişib – Rusiyanın təsiri zəifləməyə başlayıb – bu şübhəsizdir. MDB isə əslində, ölü qurumdur. Biz çox gözəl başa düşürük ki, Rusiyada müqavilələr və qanunlar həmişə öz mülahizələri əsasında şərh olunub. Məgər biz bilmirik ki, məhsullarımız müxtəlif bəhanələrlə Rusiyaya buraxılmır?! Dünən politoloq Alen Gevondyan belə bir fikir səsləndirib: “Ola bilər ki, bu, diqqətdən kənarda qaldı, lakin Rusiya ilk bəyan etdiyi məqsədinə çatdı – dünya çoxqütblü oldu”. Dünyanı deyə bilmərəm, amma postsovet məkanı mütləq çoxqütblü olub, hətta deyərdim ki, tamamilə dağılır. Nəhayətsiz və dönməz şəkildə. Rusiyanın başa düşmək vaxtıdır ki, onun kimi imzaladığı müqavilələrə əməl etməyən tərəfdaşa heç vaxt dəyər verməyəcəklər”.

Göründüyü kimi, Rusiya–Ermənistan münasibətlərində xeyli vaxtdır əsməyə başlayan soyuq küləklər indi daha da güclənib. Rusiya ilə iqtisadi əməkdaşlıqdan faydalanan, ancaq siyasi əlaqələrin inkişafından yayınan Nikol Paşinyanın hakimiyyəti dövründə bu tendensiyanın daha da şiddətlənəcəyi gözlənilləndir.

**Politoloq Aydın Quliyev XQ-yə bildirdi ki,** ümumiyyətlə, Rusiya–Ermənistan münasibətləri uçuruma doğru böyük sürət götürüb. Onun sözlərinə görə, hətta, bu münasibətlərin geridönməz şəkil aldığı iddia edilir: “Rusiya–Ermənistan münasibətlərinin hazırkı səviyyəsi strateji müttəfiqlikdən çox uzaqdır. Açıq şəkil almış mövqe döyüşləri gedir. Hər iki ölkənin məmurlarının, dövlət xadimlərinin verdikləri açıqlamalar, ritorikaları düşmənçilik xarakterindədir. Sirr deyil ki, Ermənistan Rusiyanın orbitindən uzaqlaşmaqla bağlı artıq qəti qərar qəbul edib. Rusiyanın atacağı addımların nədən ibarət olacağı hamı tərəfindən izlənilsə də, hələlik yumşaq ritorikadan uzağa getmir. Güman etmək olar ki, Rusiya Paşinyanın ya 2026-cı ildə, ümumiyyətlə, hakimiyyətdən gedəcəyinə, ya da həmin tarixədək devriləcəyinə ümid edir”.

Onun sözlərinə görə, Rusiya hər şeyi Paşinyanın adı ilə bağlayır. Belə bir illüziya var ki, Nikol iqtidardan getdikdən sonra Rusiya–Ermənistan münasibətlərini əvvəlki məcraya qaytarmaq mümkün olacaq: “Amma düşünürəm ki, bu, Moskvanın növbəti yanlış narrativlərindən biridir. Ona görə ki, Ermənistanda artıq xalq da anti-Rusiya ovqatına köklənib. Siyasi elitanın böyük bir hissəsi Rusiyaya etimad bəsləmir. Belə olan təqdirdə proqnozlaşdırmaq olar ki, Paşinyan, hətta, yaxın müddətdə digər bir şəxslə əvəz olunsa belə, İrəvanın Rusiyadan uzaqlaşmaq və Qərbə yaxınlaşmaq siyasəti indiki kimi davam edəcək. Bu siyasi kursun sürəti bəlkə bir qədər də artacaq”.

Müsahibimiz qeyd etdi ki, bu baxımdan Rusiyanın indiki şəraitdə Ermənistanı qərbyönümlü siyasətdən döndərmək üçün daha təsirli və aktiv addımlar atmasına ehtiyac var. Ancaq Rusiya hələlik buna getmək istəmir. Təbii ki, Rusiya Ermənistanı qıcıqlandırmaqdan və Qərblə inteqrasiya istiqamətində daha fəal addımlara sövq etməkdən də çəkinir. Real vəziyyət isə göstərir ki, Rusiya ehtiyatlı mövqe tutduqca Paşinyan Qərbə inteqrasiya istiqamətində intensiv addımlar atır. Eyni zamanda, Paşinyan ölkədə ictimai rəyi də sürətlə Rusiyanın əleyhinə kökləməkdə davam edir. Yəni, təkcə Paşinyan özü Qərbə doğru getmir, bütün Errmənistanı, cəmiyyəti və dövləti o istiqamətə yönəldir. Bu isə bölgədə Rusiyanın mənafeləri, sülh və təhlükəsizlik baxımından olduqca təhlükəlidir.

Politoloq onu da dedi ki, Rusiya Ermənistanla münasibətlərdə əvvəlki səhvləri təkrarlamaqda davam edir. Əgər Moskva daha sərt və konkret addımlar atsa, bunun nəticələrindən danışmaq olar. İndiki şəraitdə isə Rusiyanın apardığı siyasətin Ermənistanı Qərbə inteqrasiyadan döndərmək gücündə olduğunu demək çətindir.

***Səxavət HƏMİD***
***XQ***

# Ermənistan törətdiyi cinayətlərə görə Azərbaycandan üzr istəməlidir

(əvvəli 1-ci səhifədə)



Azərbaycanın suverenliyini pozan, konstitusiya quruluşunu şübhə altına alan, ərazilərimizdə separatizm ocağı yaradan Ermənistan otuz ilə yaxın müddətdə beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamə və qərarlarına məhəl qoymamış, torpaqlarımızda etnik təmizləmə həyata keçirərək, bir milyondan artıq soydaşımızı qaçqın və məcburi köçkün vəziyyətinə salmışdır.

Bəli, münaqişə bitsə də, onun fəsadları aradan qalxmayıb. Dövlətimizin başçısının da bildirdiyi kimi, "Ermənistan uzun müddət işğal altında saxladığı ərazilərimizdə ekosid, urbisid, kultursid törədərək torpaqlarımızı və çaylarımızı çirkləndirmiş və zəhərləmiş, meşələrimizi məhv etmiş, şəhər və kəndlərimizi dağıtmış, habelə burada insanların yaşamaq hüququnu təhdid edən və ətraf mühitə ciddi ziyan vuran çoxsaylı minalar basdırmışdır. Eyni zamanda, xalqımızın bəşəri əhəmiyyətə malik mədəni irsi dağıdılmış, dini-mədəni abidələrimiz yerlə-yeksan edilmişdir".

Əlbəttə, Prezident İlham Əliyevin diqqətə çatdırdığı məqamların hər birinin arxasında insan taleyi dayanır. O tale ki, onda doğma yurd yerlərindən didərgin düşmək kimi acı aqibət var. Bu aqibət isə həm də ədalətsizlikdir. Elə bir ədalətsizlik ki, baş verməsi, böyük ölçüdə, bəşəri cinayət kontekstində dəyərləndirirlməlidir.

Cinayət cəzasız qalmamalıdır. Bu səbəbdən dövlətimizin başçısı yada salır və vurğulayır ki, Birinci Qarabağ müharibəsində Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş insanlığa yaraşmayan əməlləri sübut edən kifayət qədər foto və videolar mövcuddur: "Müharibə cinayətləri və bəşəriyyətə qarşı cinayətlər törətmiş bəzi şəxslər bu gün Azərbaycanın ədalət mühakiməsi qarşısında cavab versə də, Ermənistanda buna görə hələ bir nəfər belə məsuliyyətə cəlb olunmamış, əksinə onlar qəhrəmanlaşdırılmışdır".

Bəli, insanlıq əleyhinə cinayətlərə ciddi və həssaslıqla yanaşılmalıdır. Çünki mövcud xüsusdakı cəzasızlıq mühiti belə hallara qarşı müqaviməti azaldır, qeyri-insani davranışları və rəftarı normaya, etalona çevirir ki, mövcud tendensiyanın bütövlükdə dünyanı təhdid təbiəti var. Ona görə də dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü olaraq, silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər məsələsinə yalnız öz problemi kimi yox, dünyanın bir sıra ölkələrinin üzləşdiyi qlobal problem qismində yanaşır: "Ölkəmizin təşəbbüsü ilə BMT Baş Assambleyasında hər iki ildən bir itkin düşmüş şəxslər mövzusunda qətnamənin irəli sürülməsi və konsensusla qəbul olunması bu məsələyə beynəlxalq səviyyədə diqqətin artırılması istiqamətində fəaliyyətimizin tərkib hissəsidir".

Onu da vurğulayaq ki, Ermənistan hazırda, faktiki olaraq, terror dövlətidir. Beynəlxalq ictimaiyyətin ölkə ilə bağlı qərar verməsi mütləqdir. Ermənistanda indinin özündə də canilər qəhrəman obrazında təqdim olunursa, nəzərə alınmalıdır ki, belə təqdimatlar erməni varlığının tarix kimi qələmə verdiyi keçmişdən qaynaqlanır. Keçmiş ağır yük kimi bu varlığın boynundan asılıb. Nəinki asılıb, habelə, patoloji xəstəliyə çevrilib. Hazırkı Ermənistan iqtidarı isə eynilə sələfləritək xəstəlikdən qurtula bilmir. Çox təəssüf ki, dünyada aktual olan ikili standartlar siyasəti fonunda buna diqqət yetirən yoxdur. Nəticədə Ermənistanda müharibə caniləri bir yandan qəhrəmanlaşdırılırsa, digər tərəfdən onlar rahat şəkildə gəzib-dolaşırlar. Sanki heç nə etməyiblər. Bu azmış kimi, onlar hakimiyyətə də iddialarını ortaya qoyur, ölkənin siyasi industriyasında söz sahibinə çevrilirlər. Həyasızlıq ondadır ki, belələrinin əksəriyyəti özlərinin ictimai çıxışlarında dinc azərbaycanlılara münasibətdə həyata keçirdikləri vəhşilikləri dilə gətirib, əməlləri ilə öyünüblər. Ancaq Ermənistan hakimiyyəti və dünya susur. Susqunluq varsa, heç şübhəsiz, səmimiyyət yoxdur. Müvafiq olaraq, rəsmi İrəvan səmimiyyətdən uzaqdırsa, onun Bakı ilə sülh gündəliyinə sadiqliyindən söz açmağa dəyməz.

Sonda Prezident İlham Əliyevin hər iki məktubunda vurğuladığı fikirlər kontekstində ümumiləşdirmə apararaq deyə bilərik ki, dövlətimizin başçısının bildirdikləri, faktiki olaraq, Cənubi Qafqazda gerçək barış mühitinin yaranması üçün Ermənistanın Azərbaycan qarşısında yerinə yetirməli olduğu mənəvi, siyasi və hüquqi öhdəliklərin məcmusudur. Deməli, dövlətimizin başçısının haqqında söz açdığı etimad mühitini formalaşdıracaq iki komponent var: Ermənistanın Azərbaycandan üzr istəməsi və ölkənin müharibə canilərini cəzalandırması. Çox təəssüf ki, rəsmi İrəvan kimi, erməni toplumu və ictimai rəyi bunun dərkindən uzaqdır, özü də fərqinə varmayacaq qədər rəzil və iflic durumdadır. Hazırda yaşanan proseslər onu da bir daha təsdiqləyir ki, Ermənistanın anladığı bir dil var - gücün və zorun dili.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Vətənsiz Simonyan

## *Yaxud erməni parlament sədrinin əcdadları üçün nekroloq əvəzi*

**Ermənistan parlamentinin spikeri Alen Simonyan yenə sərsəmləyib. Deyəsən, obrazlı desək, Aşıq Ələsgərin sazı onun da gözünə girib. Simonyan böyük el sənətkarının abidəsinin açılışı fonunda səslənmiş Qərbi azərbaycanlıların öz tarixi yurdlarına qayıtmaları mövzusuna həyasızcasına reaksiya verib.**

Əvvəlcə onu bildirək ki, rəsmi İrəvan Qarabağ ermənilərinin bölgəyə qayıtmaları ilə bağlı məsələni daim gündəmdə saxlamaqdadır. Bir vaxtlar bunu Azərbaycan-Ermənistan sülh gündəliyinin tərkib hissəsinə çevirmək cəhdləri nəzərə çarpırdı. Ermənistan hakimiyətinin Qarabağ ermənilərinə beynəlxalq təhlükəsizlik təminatı ritorikasına baş vurduğu, beləliklə, Azərbaycanın yurisdiksiyasını şübhə altına almaq yolu tutduğu vaxtlar da olub.

Amma avantürist niyyətlərin heç biri baş tutmadı. Erməni qövmü özünün olmayan Qarabağ torpağından suyu süzülə-süzülə çıxdı. Hələ o qövmün 44 günlük müharibə zamanı Azərbaycan torpaqlarından "it kimi qovulduğundan" danışmırıq. Yaxşı olar ki, Simonyan mənsubu olduğu millə halda ki, Ermənistan sülh istəmir, bölgədə yeni reallıqlar formalaşdırmağa həvəslənir, başqa nə etməliyik? İndi oturub gözləməliyik ki, erməni qövmü güclənsin və başımıza əvvəl açdığı oyunları təkrarlasın? Axı nə Paşinyan, nə Simonyan bunun bir daha baş verməyəcəyinə dair hansısa təminat vermir. Nəinki təminat vermir, üstəlik, erməni iqtidarı, demək olar, hər gün min oyundan çıxır. Hələ Ermənistandakı qatı revanşist və şovinist kəsimi demirik. Həmin sürü tam ayrı bir mövzudur...

A.Simonyanın açıqlamasındakı növbəti həyasızlıq isə onun azərbaycanlıların tarixi vətən axtarışında Altay dağlarına göndərilməli olduğunu dilə gətirməsi, daha doğrusu, sərsəmləməsidir. Güman edirik, əvvəldə diqqətə çatdırdığımız tarixi



tin üzləşdiyi bu rəzalət barədə düşünsün. Amma təkcə düşünməsin, eyni zamanda, nəticə çıxarsın.

Belə bir misal var: yersiz gəldi, yerli qaç. Cənubi Qafqazda erməni qövmünün heç vaxt yeri olmayıb və bu "mahiyyətini" indi də saxlamaqdadır. Bunu söyləmək üçün əlahəzrət tarix var. Tarixdən məlumdur ki, ermənilərin yaşadığımız coğrafiyaya köçü 1826-1828-ci illərin Rusiya-İran müharibəsindən sonra yaşanıb. Əlbəttə, bundan əvvəl, hələ çar I Pyotrun zamanından mövcud istiqamətdə cəhdlər olub, ancaq reallaşmayıb. Daha doğrusu, Rusiya uğur qazana bilmədiyi üçün məsələ gerçəkləşməyib.

Əlbəttə, tarixi faktların hamısını sadalamaq niyyətindən uzağıq. Heç şübhəsiz, Simonyan özü də hər şeydən xəbərdardır. Ancaq həm onun, həm də ümumən ermənilərin iki əsrdir qətiləşdirdikləri bir fikir var ki, o da azərbaycanlılar və türklərlə dinc şəkildə birgə yaşamın qeyri-mümkünlüyüdür. Bunun əksi imperiya maraqlarının yerinə yetiriməsinə fokuslanaraq zombiləşmiş erməni qövmünün gen yaddaşı üçün tam kənar durumdur.

Simonyan nəzərə almalıdır ki, Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarından deportasiyası erməni xəstəliyinin nəticəsidir. Spiker onu da nəzərə almağa borcludur ki, bu xəstəlik, yəni, özünün də sıralarında təmsil olunduğu qövmün ərazi iddiası nəticəsində ortaya çıxmış acgözlüyü yaşanmasaydı, hazırda Cənubi Qafqaz coğrafiyasında sülh və əmin-amanlıq mühiti hökm sürürdü. Bu mühit olmadığından və Ermənistan dövləti avantürist və anarxist niyyətlərə kökləndiyindən, Azərbaycan xalqı haqqı olanı əldə etmək uğrunda mübarizə ruhundadır. Qərbi Azərbaycan məsələsi məhz buna görə gündəmdədir.

Azərbaycanlıların tarixi vətənlərinə qayıdışı beynəlxalq hüququn və fundamental insan haqlarının ayrılmaz tərkib hissəsidir və Ermənistana qarşı ərazi iddiası deyil. Ərazi iddiası fonunda hər cür alçaqlığa yol verən sıralarında simonyanların, paşinyanların və digər yanların təmsil olunduqları Ermənistan adlı dövlət qırığıdır. Ancaq Simonyanı qınamaq olmur. Axı bu məxluqun mücərrəd, heyvanilikdən fərqlənməyən təfəkkür tərzi üçün fundamental insan haqları anlayışı yoxdur. Ona görə Qərbi azərbaycanlıların doğma ocağına qayıdış hüququnu ərazi iddiası kimi yozur. Başqa nə düşünsün? Əsla, mümkün deyil!

Azərbaycan Ermənistana qarşı ərazi iddiası irəli sürməsə də, ölkəmiz və xalqımız tarixi yadda saxlayır və ondan nəticə çıxarır. Nəticə çıxarır ki, gələcəkdə növbəti deportasiyalarla, faciələrlə, fəlakətlərlə üzləşməsin. Ermənistan adlı dövlət qeyd etdiyimiz bu əməlləri törətməkdən imtina etmədiyinə, daim təcavüzkarlığa köklədiyinə, niyyətini həyasızcasına pərdələməyə cəhd göstərdiyinə görə, tarixdə olanların hamısını bir-bir yada salacağıq. Məsələn, bildirəcəyik ki, Ermənistan qədim Azərbaycan torpağıdır. Simonyanın təmsil olunduğu komandanın həyasızlığı güclənəcəyi təqdirdə, bunu nəinki deyəcək, əməli fəaliyyətə də keçəcəyik. Bəlkə keçməyək? Bir məqamlarla Simonyanın, əslində, vətənsiz olduğunu sübuta yetirdik. Əlbəttə, demək çətindir ki, erməni spikerin əcdadları kimlərdir. Yəni, Azərbaycan torpaqlarına Türkiyədənmi, İrandanmı, Suriyadanmı və ya başqa haradan gələnlərdir. Güman edirik, o, öz mənşəyi barədə məlumatlı olar. Ululuğu olmayan babalarından bölgədə hansı təxribatçı planı gerçəkləşdirmək əmrinin verildiyini də soruşmamış olmaz.

Yəni, erməni qövmü bölgəyə yaşamaq, rahat ömür sürmək üçün gətirilməyib. Simonyan dərk etməlidir ki, bu gün onun təmsil olunduğu komanda da eyni "ampluanı" icra etməkdədir. Ondan əvvəlki erməni hakimiyyətinin də məramında başqa şey yox idi və bu səbəbdən işğal və faciələr törətmişdi. Simonyanlar, paşinyanlar və başqaları demokrat qiyafəsində iqtidar kürsüsündə əyləşəndə isə qorxunc tendensiyaya son qoymaq şansına malik idilər. Ancaq nə etdilər? "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını eşitdik. Gördük ki, irqçilik və etnik müstəsnalıq ideologiyası özünü demokrat adlandıran baş nazir Nikol Paşinyan hakimiyyətinin də başlıca fəaliyyət dəstxətidir.

Bilavasitə, Simonyanın adını çəkdiyi Altay dağlarından söz düşmüşkən, qeyd edək ki, son dörd ildə bu deyim artıq ikinci dəfədir işlənir. İlk dəfə 44 günlük müharibə başlayanda, 2020-ci il sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı müharibəyə start verəndə, ölkə ordusunun baş qərargah rəisi məqsədlərinin azərbaycanlıları Altay dağlarına qovmaq olduğunu bildirmişdi. Müdafiə naziri isə "yeni ərazilər uğrunda yeni müharibə" şüarını ortaya ataraq erməni varlığının dağıdıcı, sülhdən uzaq mahiyyətini ortaya qoymuşdu. Bu məsxərə dolu həyasızlıqların Ermənistan üçün hansı qorxunc aqibətlə nəticələndiyini bütün dünya gördü. Beynəlxalq aləm erməni qövmünün necə rəzil və miskin duruma düşdüyünə şahidlik etdi. Paşinyanın yalvarmadığı dünya lideri qalmadı. Ölkənin rəhbəri adını daşıyan şəxs gərək indi utandığından üzə çıxmaya. Amma çıxır və arsızcasına İrəvanın küçələrində velosiped sürür, hərdən Simonyanı da yanına alıb veyillənir. Necə deyərlər: utanmasan, oynamağa nə var ki?

Sonda Simonyan, belə demək mümkünsə, Altay dağları məntiqinin onun xalqa çevrilə bilməyən, hələ də tayfa təfəkküründə qalan milləti üçün hansı acınacaqlı durum formalaşdırdığını yaxşı-yaxşı düşünsün. Düşünsün ki, 44 günlük müharibə zamanı gördükləri "dəmir yumruq" yerindədir və hər zaman başlarına enə bilər. Simonyan "dəmir yumruğ"un yeni zərbəsinin daha öldürücü olacağını, Cənubi Qafqazda Ermənistan adlı heç nəyin qalmayacağını götür-qoy eləsin. Onsuz da bugünkü erməni rəhbərliyinin yeritdiyi siyasət erməni varlığını ibtidai mərhələyə doğru geri qaytarmaqdan başqa bir şey deyil. O mərhələdə dünyanın müxtəlif yerlərinə pərən-pərən düşmüş ermənilər var idi, dövlət yox!

***Ə.RÜSTƏMOV***
***XQ***

# İrəvanda "Bakıdan hücum" xofu

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Varşavada avropalılara yenə deyib ki, "Azərbaycanın Ermənistana qarşı yeni hərbi planlar həyata keçirməyə çalışacağı ilə bağlı qorxular var". Baş nazir Nikol Paşinyan da işçisinin sayaqlamasını təkrarlayıb. O da deyib ki, Azərbaycanın Ermənistana yeni hücumu ilə bağlı təhdidlər var. Əcəba, İrəvan yenə niyə "qoca qitə"dəkilərə belə sayaqlamalarla narahat edirlər? Məqsəd aydındır, erməni hökuməti belə "təhdidləri" səsləndirməklə Azərbaycanın sülh gündəliyinə sadiq olmadığını göstərməyə çalışır. Eyni zamanda, İrəvan mümkün "hücumun qarşısını almaq" niyyətilə Qərbdəki sponsorlardan daha çox hərbi-maliyyə yardımı almaq istəyir.**



"Azərbaycanın Ermənistana və Ermənistan ərazilərinə qarşı yeni hərbi planlar həyata keçirməyə çalışacağı ilə bağlı həqiqətən də ciddi narahatlıqlar var." Bunu Varşava Təhlükəsizlik Forumunda çıxışı zamanı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan deyib. "İndi Azərbaycan tərəfi, bildiyiniz kimi, əsasən Ermənistanın demək olar ki, bütün ərazisi ilə üst-üstə düşən "Qərbi Azərbaycan" narritivindən istifadə edir. Bunun ərazi iddiası olmadığını iddia edirlər, amma təəssüf ki, təəssürat tamamilə fərqlidir. Xarici işlər naziri və ya hökumətim olaraq etimadı necə inkişaf etdirə biləcəyimi soruşursunuz? Təəssüf ki, mən etimaddan danışa bilmirəm, Çünki Azərbaycanın sülh planlarından əmin deyiləm", - deyə o bildirib.

Mirzoyan daha sonra Brüsselə minnətdarlığını açıqlayıb: "Avropa İttifaqı müşahidə missiyası göndərib və maraqlısı odur ki, Azərbaycan eyni missiyanı öz sərhədində keçirməyə razı olmayıb. Missiya sərhədin yalnız Ermənistan tərəfində vəziyyətə nəzarət edir. Qeyd etməliyik ki, missiyanın yerləşdirilməsindən sonra heç bir ciddi eskalasiya baş verməyib. Bu, həqiqətən işləyir və biz Avropa İttifaqının bu səylərini yüksək qiymətləndiririk".

Maraqlıdır ki, Mirzoyanın açıqlamasından sonra erməni hökumətinin üzvləri İrəvanın yeni-köhnə narrativini təkrarlamağa başlayıblar. Hakim "Vətəndaş Müqaviləsi" partiyasının parlament fraksiyasının katibi Artur Hovhannisyan əmin deyil ki, Azərbaycan sülh müqaviləsini imzaladıqdan sonra Ermənistana hücuma cəhd etməyəcək. Oktyabrın 3-də Milli Assambleyada keçirilən ənənəvi brifinqdə jurnalistlərə müraciət edən Ovannisyan deyib: "Siz düşünürdünüzmü ki, Rusiya Ukraynanın təhlükəsizliyinin təminatçısı olmaqla bir gün ona hücum edəcək?"

Onun sözlərinə görə, jurnalistlər, sadəcə, cavabı olmayan suallar verirlər. "Biz dəyişən dünyada yaşayırıq və heç kim sabah nə olacağını bilmir. Biz hər şeyi edirik ki, Ermənistan vətəndaşları öz regionlarında dinc yaşasınlar. Nə olub-olmayacağı ilə bağlı proqnozlar verə bilmərik. Biz real siyasətlə məşğul oluruq və hər hansı eskalasiya riskinin qarşısını almaq üçün hər şeyi edirik", - deyə deputat izah edib.

Baş nazir Nikol Paşinyan da məsələyə münasibətini açıqlayıb. Paşinyan xarici işlər naziri Ararat Mirzoyanın Azərbaycanın Ermənistana qarşı əlavə hərbi planlarının olması barədə bəyanatına toxunaraq qeyd edib ki, belə analitik nəticələr var, lakin Ermənistanın qəbul etdiyi strategiyadan kənara çıxmağa ehtiyac yoxdur: "Biz strategiya qəbul etmişik və bu strategiyaya ardıcıl şəkildə əməl etməliyik. Mən demirəm ki, biz Azərbaycanın dediklərinə və demədiklərinə məhəl qoyaq, amma digər tərəfdən bu o demək deyil ki, Azərbaycanın hər bəyanatından sonra strategiyamızı dəyişməliyik. Xeyr, bizim strategiyamız dəyişməməlidir və biz sülh gündəmini ardıcıl olaraq irəli sürməli və sülh sazişinin imzalanması üçün əlimizdən gələni etməliyik".

Paşinyan daha sonra fantaziyalarını inkişa etdirərək deyib ki, Azərbaycanın getdikcə daha çox yeni mövzular qaldırması o deməkdir ki, "Azərbaycan sülh müqaviləsi imzalamağa o qədər də meyilli deyil". Baş nazirin sözlərinə görə, Azərbaycanın bəyanatlarında məqsəd Ermənistanın öz strategiyasından kənara çıxmasını təmin etməkdir. "Bu bəyanatların daxildə və ya xaricdəki qüvvələr tərəfindən verilməsindən asılı olmayaraq, strategiyamızdan kənara çıxmayacağıq. Sülh gündəliyinin kənara çıxmadan ardıcıl, yorulmaz, prinsipial şəkildə həyata keçirilməsi yolu ilə sülhə zəmanət verirəm", - deyə Paşinyan fikrini yekunlaşdırıb.

Əlbəttə, 44 günlük müharibədə məğlubiyyətin ağır yükünü Ermənistanda hələ də çiyinlərdə daşıyırlar. Amma ermənilər məğlubiyyət yükünü çiyinlərindən reallıqlarla barışmaqla, qonşularla barışmaqla və keçmişdə Azərbaycan vətəndaşlarına qarşı törətdikləri vəhşiliklərə görə üzr istəməklə atmaq əvəzinə, siyasi janqlyorluqla, riyakarlıqla, yalançı məsum obrazına girməklə məşğuldurlar. İndi İrəvan hökumətinin üzvləri birağızdan olmayan Azərbaycan təhdidlərindən danışmağa başlayıblar. Halbuki Azərbaycan təhdid etmir, sadə reallıqları diqqətə çatdırır. Bakı sülh prosesinin ciddi olduğunu və İrəvanın yarımçıq sülh müqaviləsinin arxasınca qaçmamağa çağırır.

Azərbaycanın təklifləri aydındır, İrəvan möhkəm sülh istəyirsə, həmin təklifləri qəbul etməlidir. Amma biz nəyi müşahidə edirik? İrəvan bu və ya başqa bahənələrlə sülh gündəliyi ətrafında siyasi spekulyasiyalarla məşğuldur. Ermənistan bir tərəfdən sülh prosesinə sadiq olduğunu iddia edir, digər tərəfdən əyri yollarla qazandığı pullarla müxtəlif silahlar alır. Bu riyakarlıqlarını da "Azərbaycan təhdidi" ilə pərdələmək istəyirlər. Özünü müdafiə olunan tərəf kimi qələmə verməyə can atan Ermənistan hökuməti regionda təhlükəsizliyə ciddi təhdid yaradan destruktiv addımlar atır. Təbii ki, bir sıra amillər onu göstərir ki, Paşinyanın Azərbaycanla sülh müqaviləsi bağlamağa qətiyyən meyili yoxdur. ABŞ, Fransa və Hindistanla açıq və sıx hərbi-texniki əməkdaşlıq məqsədi Cənubi Qafqazda gərginliyi artırmaqdır.

İrəvanın məramı və niyyəti aydındır – ermənilər vaxt qazanmaq istəyirlər. Düşünürlər ki, sülh gündəliyinə "sadiqliyini" deməklə destruktiv addımlarına bəraət qazandıracaqlar. Amma İrəvan yanılır ki, regionda yeni reallığı yaradan Azərbaycan otuz il işğalçılıq siyasəti yürüdən Ermənistanı yaxşı tanıyır və Paşinyanın məkrli planından xəbərdardır. Bakı Paşinyanın yarımçıq sülh imzalamağa tələsməsini də çox yaxşı bilir. Regionda möhkəm sülhün bərqərar olmasında maraqlı olan Azərbaycan gözəl bilir ki, yarımçıq sülh müqaviləsi yeni müharibəyə səbəb ola bilər. Görünən odur ki, Paşinyan Bakı ilə tez bir zamanda imzalanmış yarımçıq sülh müqaviləsinə görə ona fayda vəd edən yeni tərəfdaşlarının vədləri ilə yaşayır. Lakin bütün bunlar kiçik Ermənistanı böyük oyunda piyadaya çevirir. Şahmat oyununda da piyadanın aqibəti çox hallarda yaxşı nəticə ilə yekunlaşmır.

***S.ELAY***
***XQ***

# Milli ideya və millət ideyası

### II məqalə



## Din, milli ideya və millət

Milli ideya ilə millət anlayışlarının müqayisəsi kontekstində maraqlı və düşündürücü olan özəllik bir sıra böyük dövlətlərin birbaşa dini kimlikdən əsas mənəvi, əxlaqi və şüuri ənənə kimi istifadə etməklə bu məsələyə məzmun vermələri ilə bağlıdır. Rusiyanın nümunəsində bunun bir sıra aspektlərinə nəzər sala bilərik. XIX əsrdə V.Solovyov rus milli kimliyi və milli ideyasını "Moskva – üçüncü Roma" tezisi ilə izah edirdi. Rus filosoflar araşdırmalarında dini ənənəni milli ideyanın təməlinə qoyurdular. "Rus ideyası" buradan qaynaqlanırdı.

Müasir araşdırmalarda da buna oxşar vurğular mövcuddur. Məsələn, A.V.Aqeyev yazır: "Kimsənin ağlına gəlmir ki, kütlə potensial millət kimi ilk dəfə olaraq katolik kilsəsinin ideyası ideoloji məzmun alandan sonra formalaşdı, daha dəqiqi - teoloji məzmun aldı (xristianlıq İsasız məzmunlaşdığı kimi)" .

Buradan tədqiqatçı müasir mərhələdə millət ideyasına maraqlı keçid edir. Onun yazdığına görə, "cəmiyyətin texnogenliyi" indiki mərhələdə sosial varlığa malik olmanın "zəruri nümayişidir". Eyni zamanda, filosofun fikrinə görə, "kimsənin şübhəsi olmaması üçün, millət ideyası keçmişdə, indi də və gələcəkdə ənənə ixtira etmək vasitəsilə konstruksiya olunur".

İnanmaq çətindir ki, millət ideyası üçün ənənə "ixtirası" yalnız "kimsənin şübhəsi olmaması" üçün edilir. Burada hər bir tarixi və sosial-mədəni gerçəkliyin kollektiv şüurda obrazı təməl rolunu oynayır. Yəni insanlar və ya kütlə boş yerdən özündən ideya yarada bilməz. Məntiqi olaraq da, əgər doğrudan kütlə şübhə olmaması üçün nə edirsə, deməli, onun öncədən nəyin şübhə, nəyinsə qeyri-şübhə olması haqqında dəqiq təsəvvürü olur. Bu məqam kütləyə konkret istiqamət verir və ona uyğun ideya məqsədini ortaya qoyur. Bu, "konstruksiyadır", təbii ki, lakin insanın hər bir fəaliyyət növü müəyyən mənada konstruksiyadır – insanın "quraşdırmasıdır"! B.Andersonun "millət təxəyyüldür" fikrini də vurğulanan məqamların ideya və praktiki sərhədləri çərçivəsində qəbul etmək daha doğrudur. Yəni real olaraq millət kollektiv birgəyaşamın əyani formasıdır, struktur-funksional gerçəklikdir.

Eyni zamanda, o, hər şeydən öncə, ənənəyə əsaslanan və sosial, mədəni, tarixi, sivilizasion faktorların qarşılıqlı təsirində formaşalan "ideya"dır. B.Anderson bir qədər də irəli gedərək vurğulayır ki, Avropa millətlərində dövlət əsas olaraq "beyində formalaşmışdır" və Böyük Britaniya burada istisnadır, çünki ingilislər dövləti nəzəriyyə və konsepsiya əsasında deyil, qədimdən praktiki fəaliyyətdə, birgəyaşamın gündəlik gerçəkliyində aldıqları təcrübə əsasında yaratmışlar (Andersonun fikridir).

Belə alınır ki, məsələn, italyanlar və ya almanlar dövlətlərini artıq mövcud olan konsepsiyalar əsasında yaratmışlar və bu da yekunda həm millət, həm də milli ideya anlayışlarının məzmununa təsir etmişdir. Belə olduğu halda da millət və milli ideya anlayışlarının tarixi, sosial, mədəni və sivilizasion ənənəyə söykənmiş olduğu nəticə alınır. Millətlər və onların milli ideyaları bu ənənənin üzərində bərqərar olurlar.

Bütün bunların fonunda A.V.Aqeyev maraqlı bir nəticəyə gəlir. O, "texnogen kvazidin" anlayışını daxil edir və yazır ki, bu, "millət ideyasının mahiyyətini ehtiva edir". Həmin keyfiyyətdə bu ideya etnomədəni subyektliyin ilkin obrazından ayrılaraq "özünü substansiya kimi təsbit edir".

Deməli, vurğulanan yanaşmaya görə, müasir mərhələdə millət ideyası və milli ideya "kvazidin"ə söykənir və bu əsasda konstruksiya olunur.

## Demokratik, multikultural milli ideya örnəyi

Demokratik, multikultural dəyərlərə əsaslanan, tarixi, sosial-mədəni, sivil ənənə üzərində bərqərar olan milli ideya da mövcuddur. Azərbaycan Respublikasının milli ideyası məhz bu xarakterdə və mahiyyətdədir. Artıq bu tezisi irəli sürməyə imkan verən konkret təcrübə də mövcuddur. Biz, keçən əsrin 90-cı illərinin əvvəllərində ulu öndər Heydər Əliyevin müəyyən etdiyi milli ideyanın məzmun və məqsədinə əsaslanaraq, məsələni bu cür qoyuruq.

Azərbaycan Respublikası keçən əsrin 90-cı illərinin əvvəllərində çətin bir vəziyyətə salınmışdı (xarici təzyiqlər, təcavüz və daxili səriştəsiz idarəetmə nəticəsində). Söhbət faktiki olaraq xüsusi səviyyədə özünü göstərən kritik durumdan gedir. Belə bir şəraitdə perspektivli milli ideya müəyyən etmək üçün zəngin dövlətçilik ənənəsi, tarixi təcrübə, liderlik səriştəsi, sosial-mədəni və sivilizasion dəyərlərə sadiqlik gərək idi. Azərbaycan cəmiyyət olaraq məhz bu keyfiyyətlərə malik olduğunu nümayiş etdirdi. Ulu öndər milli ideyanı "ərazi bütövlüyünü təmin etmək" kimi müəyyən edərək, Azərbaycanın ən kritik durumda belə proqressiv strateji qərarların qəbuluna qadir olduğunu sübut etdi.

Aparılan təhlillər göstərir ki, milli ideyanın formalaşmasında və məzmunlaşmasında tarixi, geosiyasi, etno-mədəni, sosial-mədəni, sivilizasion faktorlar kompleks halında ciddi iştirak edirlər. Onlar faktiki olaraq milli ideyanın məzmunu ilə yanaşı, strateji hədəfini də müəyyən etməyə imkan yaradırlar.

## Lider və milli ideya

Ancaq bunlarla yanaşı, geosiyasi və tarixi-mədəni kontekstdə çox mühüm bir faktoru da nəzərə almaq gərəkdir. Biz, liderin yuxarıda vurğuladığımız bütün şərtlər daxilində fəaliyyətinin həlledici rol oynadığını nəzərdə tuturuq. Məsələ ondan ibarətdir ki, ən zəngin tarixi-mədəni və geosiyasi təcrübəyə malik dövlətdə belə, lider çağdaş tələblər səviyyəsində fəaliyyət göstərmirsə, onun təsir dairəsi inklüziv legitim deyilsə və qəbul etdiyi qərarlara toplumsal inam yoxdursa, ən yaxşı nəzəri milli ideya belə reallaşmaya bilər.

Çünki milli ideya statik faktor deyildir – o, çox dinamik və feili aktivlik tələb edən praktiki fenomendir. Özü ideya şəklində mövcud olur, lakin şüur vasitəsilə kollektivi daim hərəkətə səsləyir. Yalnız ideya və praktiki davranış sistemi kimi milli ideya gerçək anlam ala bilər. Bundan kənarda o, mücərrəd obraz kimi real təsiri olmayan ideya olaraq qalacaqdır. Məsələnin bu aspektində liderin rolu ön plana çıxır.

Birincisi, lider milli ideyanı dövrə adekvat müəyyən etməlidir. O, incə şəkildə dövləti, toplumsal, etno-mədəni, sosial, geosiyasi, sivilizasion faktorların qarşılıqlı əlaqəsindən alınan nəticələri dəqiq aydınlaşdırmalıdır. Bu əsasda milli ideyanı elə müəyyən etməlidir ki, bütövlükdə cəmiyyət üçün aktual məsələ olsun. Nümunə kimi, Heydər Əliyevin ərazi bütövlüyünün bərpası məsələsini zamanında və düzgün kontekstdə milli ideya kimi müəyyən etməsini göstərə bilərik. Həmin dövrdə Azərbaycan cəmiyyəti üçün ən aktual məsələ işğala son qoymaqdan ibarət idi. Bunu aparılan çoxlu sayda sosioloji tədqiqatlar və vətəndaşların daxili canatmaları sübut edir. Lakin məhz Heydər Əliyev işğala son qoymaq məsələsini milli ideya səviyyəsində lakonik və konkret ifadə edə bildi. Özlüyündə "ərazi bütövlüyünü bərpa etmək" olduqca səmərəli tapıntıdır.

Məsələ ondan ibarətdir ki, həmin dövrdə siyasi dairələrdə abstrakt demokratiya və liberalizm kimi ideyalar üstünlük təşkil edirdi. Bundan başqa, Heydər Əliyevə qədər Azərbaycanda iki iqtidar oldu. Lakin onların heç biri ərazi bütövlüyünün bərpasını milli ideya kimi müəyyən edə bilmədi.

İkincisi, lider qəbul edilən milli ideyanın gerçəkləşməsinə tam imkan yaradacaq idarəetmə üsulu və strukturları yaratmalıdır. Azərbaycanda 1993-cü ilin iyunundan başlayaraq dövlət idarəetməsində bu məqsədə xidmət edən islahatlar aparılmış və davamlı olaraq tədricən qarşıya qoyulan milli məqsədə doğru inkşaf baş vermişdir.

Üçüncüsü, lider dövlətin və cəmiyyətin təhlükəsizliyi üçün sistemli, ardıcıl və nəticəverici tədbirlər görməlidir. Bunun üçün daxili və xarici siyasətin prioritetləri düzgün müəyyən edilməlidir. Xarici siyasətdə təhlükəsizliyin kompleks halında təmini üçün düşünülmüş siyasi-diplomatik addımlar atılmalıdır.

## Milli ideya və millətin formalaşması

Belə alınır ki, milli ideyanın uğurlu və nəticəverici olması çoxlu sayda amillərin qarşılıqlı əlaqəsi sayəsində mümkündür. Burada tarixi-mədəni, etno-mədəni, siyasi, geosiyasi və sivilizasion dəyərlər təsirli rol oynayırlar. Ancaq onlar bir yerdə milli ideyanın substantiv bazasını, potensial sahəsini təşkil edə bilirlər. Həmin potensialın reallaşması və ya reaktuallaşması üçün liderə ehtiyac vardır. Bütün tarixi dönəmlərdə və ölkələrdə milli ideya məhz bu kontekstdə təzahür edə bilmişdir.

Bu özəlliyin dərin fəlsəfi anlamı vardır. Belə ki, milli ideya özlüyündə baxışlar, fikirlər və mənəvi-əxlaqi faktorlardan formalaşsa da, onun gerçək olması üçün feili aspekt həlledici rol oynayır. Fəlsəfi olaraq, bu, sonsuz ideya prosesinin hər mərhələdə praktiki reaktuallaşamasının mühüm şərt olduğu anlamını verir. Bu mənada milli ideya həm substandır, həm də praktiki fəaliyyət üsuludur.

Bu keyfiyyətdə milli ideya həm ideya kimi stimul verəndir, həm də praktiki fəaliyyət növü olaraq reallaşma mexanizmidir. Milli ideyanın fəlsəfəsinin bu iki aspekti sintez halında onun konkret məzmun və məqsədini müəyyən edir.

Bütün bunlardan belə bir məntiqi nəticə çıxır ki, milli ideyanın mahiyyəti ilə formalaşdırıldığı cəmiyyətin reallıqları arasında konkret tarixi dönəmdə sıx bağlantılar vardır. Bundan başqa, milli ideyanın məzmun almasında liderin oynadığı rol belə fikir yaradır ki, millət ideyası ilə milli ideyanın münasibətlərində maraqlı bir aspekt də mövcuddur. Yəni lider milli ideyanı düzgün müəyyən etməklə millət ideyasını da zənginləşdirir. O mənada ki, bütövlükdə, millətin inkişafı prosesinə zamanın tələblərinə uyğun istiqamət verir, strateji məqsədlər müəyyənləşdirir. Həmin anlamda fəlsəfə və politologiya üçün milli lider ideya-millət anlayışlarının qarşılıqlı əlaqəsi daha da aktual problem kimi qəbul edilməlidir.

## Milli ideya və millət ideyasının yeniləşməsi

Yenə də Azərbaycan nümunəsində problemin bu aspektinə aid nümunələr göstərmək olar. Heydər Əliyev XX əsrin 90-cı illərində milli ideyanı "ərazi bütövlüyünü bərpa etmək" kimi müəyyən etməklə həm də həmin mərhələdə Azərbaycanda millətin inkişafının istiqamətinə konkret məzmun vermiş oldu. Toplum kollektiv varlıq kimi özü üçün ümumi təkamül yolunu dəqiqləşdirdi. Hansı amal uğrunda inkişaf etməli olduğunu dərk etdi.

Bu proses, təbii ki, Azərbaycanda millət ideyasının milli ideya kontekstində zənginləşərək yeniləşmə yönünü də aydınlaşdırmış oldu. Fərz etsək ki, milli ideya ərazi bütövlüyünün bərpası ilə deyil, məsələn, mücərrəd demokratik və liberal dəyərlərin bərqərar olması kimi müəyyən edilsəydi, indiki qalib toplum, millət və xalq yaranardımı? Mən bu suala müsbət cavab verə bilmirəm. Bunun iki səbəbi vardır.

Birincisi, ərazisinin bir hissəsi işğal altında olan heç bir ölkə, dövlət və cəmiyyət, sözün həqiqi mənasında, demokratik və liberal ola bilməz. Demokratiyanın klassikləri şərt kimi hüququ, insan haqlarını, qanunun aliliyini qoyurdular. Ərazisinin bir qismi işğal altında olan dövlət hansı əsasla hüquqdan, insan haqlarının təminindən və qanunun aliliyindən danışa bilər? Danışsa da, kim onun sözlərinə inanar? İlk sual belə olar: "öz dövlətinin, cəmiyyətinin və vətəndaşının hüquqlarını təmin edə bilmirsənsə, demokratiyanı necə başa düşürsən?" Yarımçıq dövlətçilikdə, natamam cəmiyyətdə və təbii hüquqları təmin edilməyən toplumda demokratiya və liberalizm yalnız gəlişigözəl söz ola bilir.

İkincisi, Avrasiya məkanında yerləşən dövlətlərin təcrübəsi göstərir ki, "demokratiya və liberalizm" deyib, qışqırmaqla reallıq arasında kəskin ziddiyyətlər ola bilir. Nümunə – Ukrayna və Gürcüstan! Bu iki dövlət indi çoxlu sayda daxili ziddiyyətlər və hərbi qarşıdurmalar burulğanında çapalayırlar. Ancaq keçən əsrin 90-cı illərində milli ideya kimi məhz demokratiya və liberalizmi seçmişdilər. Azərbaycanla müqayisədə fərq göz qabağındadır.

Məsələyə bir də indiki tarixi mərhələdə Azərbaycanda milli ideya və millət ideyasının yeni məzmunu və məqsədləri prizmasında baxmaq çox maraqlı və aktualdır.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Türkiyə – Azərbaycan qardaşlıq universiteti

**Bu ildən ölkəmizdə fəaliyyətə başlamış Türkiyə–Azərbaycan Universitetində tədris ingilis dilində, Orta Doğu Texniki, İstanbul Texniki və Haccettepe universitetlərinin təhsil proqramları əsasında aparılır. Bu ali məktəbdə tələbələrə Türkiyədə verilən təhsili ölkəmizdə almaq imkanı yaradılıb.**



Təhsil müəssisəsinin mətbuat katibi Sevinc İsgəndərova bizi universitetdə yaradılmış şərait, tələbə və müəllimlərlə tanış etdi. Bina tamamilə təmir edilib, ən son avadanlıqlarla təchiz olunub. Laboratoriya, kompüter və digər otaqlarda keyfiyyətli tədris üçün şərait yaradılıb. O bildirdi ki, Orta Doğu, İstanbul Texniki və Haccettepe universitetləri Azərbaycandan isə Texniki Universitet TAU-da tədris prosesinə tərəfdaş kimi cəlb olunub:

– Yeni və "çətir universitet" modeli hesab edilən Türkiyə–Azərbaycan Universiteti iki ölkənin birliyini qoruyacaq düşüncədə gənclərin yetişdirilməsinə xidmət edəcək. Bu universitetdə dərs keçən bütün müəllimlər Türkiyədən göndərilib. Sonda məzunlara buranın və tərəfdaş universitetlərin diplomları veriləcək. Bu il DİM xətti ilə 86 azərbaycanlı tələbə qida mühəndisliyi, sənaye mühəndisliyi və kompüter mühəndisliyi ixtisaslarına qəbul edildi. Düzü, yüksək bal toplamış abituriyentlərin Türkiyə–Azərbaycan Universitetini seçəcəyini gözləyirdik. Bunun üçün mediada kifayət qədər təbliğat aparıldı, açıq qapı günləri təşkil edildi. Bu universiteti seçən tələbələrin imtahan balları gözlədiyimizdən də yüksək idi.

Tələbələrin bir qisminin ingilis dilində oxumaq çətinliyi var. Onlar hazırlıq kurslarına cəlb olunublar, növbəti ildən 1-ci kursa başlayacaqlar.

Bu gün ixtisaslara baxış bucağı da dəyişib. İllər öncə hüquqşünas, hakim olmaq istəyənlər çox idi. İndi mühəndis ixtisaslarına maraq artıb. 3 mühəndislik sahəsi üçün burada hər bir şərait var. Nəzəriyyə və təcrübə paralel şəkildə öyrənilir. Dövlətimizin dəstəyi və Türkiyənin tərəfdaşlığı ilə yaradılan bu universitetin tələbələri yaxşı təhsil almaqla yanaşı, mənimsədikləri biliyin qarşısında yüksək iş imkanlarına da sahib ola biləcəklər.

Orta Doğu Texniki Universitetinin müəllimi Mətin Özdəmir təcrübəli mütəxəssis kimi Bakıya göndərilib. ODTU dərs proqramlarının uyğunlaşdırılmasına məsul şəxsdir. O bildirir ki, tədris ingilis dilində olduğu üçün tələbələrin bu dildə rahat danışmalarını, akademik həyatlarında uğurlu olmalarını istəyirik. Bir il müddətində əsas hədəfimiz tələbələrin ingilis dilini tam mənimsəmələri üçün bütün imkanlardan istifadə etməkdir:

– Mən ODTU-da ingilis dili üzrə bir çox fərqli səviyyələrdə dərs keçdiyim üçün tələbələrə akademik səviyyədə ingiliscə yazmaq və danışmaq dərsləri verirəm. Düzü, tələbələrin bilik səviyyəsindən razıyıq. Burada təhsil alanlar da, müəllimlər də həvəslidirlər.

**Yeni sistemi qurmaq, ingilis dilini tələb olunan səviyyəyə çatdırmaq üçün Mətin müəllimlə Azərbaycana gəlmiş 4 müəllimdən biri olan Ümman Tümkaya söhbətimizə qoşuldu:**

– 25 ilə yaxındır ki, müəlliməm. Buradakı işimiz daha məsuliyyətlidir. Çünki başlanğıcı biz qoyuruq. Digər tərəfdən Bakıya ilk dəfə gəldiyimiz üçün yerli şəraitə alışmağa çalışırıq.

**Anıl Albağlar isə bildirir ki, 15 ildir Orta Doğu Texniki Universitetində işləyib:**

– Mən hazırlıq proqramında ingilis dilini tədris edirəm. Həvəsli olmaları baxımdan burdakı universitetin tələbələri ilə Orta Doğu Texniki Universitetdə təhsil alanlar arasında fərq görmürəm. Əslində, ingilis dili bilgiləri də eynidir. Sadəcə, tələffüz zamanı bir qədər çətinlik çəkirlər. O da ana dilinin leksikonundan irəli gəlir. Mən bir il "intermediate" səviyyəsində ingilis dilini tədris edəcəyəm. ODTU-da necədirsə, burada da o şəkildə olacaq.

**Təkcə öyrətməklə kifayətlənməyib, azərbaycanlı tələbələrdən də nələrisə öyrənməkdə maraqlı olan Mediha Toraman Bakıdakı fəaliyyətindən həvəslə söz açdı:**

– 15 il müəllimlik təcrübəm var. Görürəm ki, tələbələrin fikri yalnız dərsdədir, pedaqoqları yaxşı dinləyirlər, mənimsəmə bacırqları yüksəkdir. Bu, Türkiyə–Azərbayan Universiteti üçün güclü başlanğıc ola bilər.

**Səlimə Tabanlıoğlu da həmkarlarının fikirlərinə şərik çıxdı:**

– Biz buraya 1 il müddətinə göndərilmişik. Məqsədimiz ingilis dilini yetərli səviyyədə tələbələrə mənimsətməkdir. Azərbaycanlı tələbələr həvəslidirlər, öyrənməyə yüksək maraq göstərirlər. İnanıram ki, zəhmətimiz hədər getməyəcək.

**Tələbələr isə universitetdən, müəllimlərindən, tədris prosesinindən məmnunluqla söz açdılar. Hər biri yüksək bal toplayıb və yeni ali məktəbə mükəmməl mühəndis olmaq arzusu ilə gəlib.**

**Onlar da TAU-nu seçməkdə peşman olmadıqlarını söylədi. 645,5 balla kompüter mühəndisliyi ixtisasında təhsil alan Tuncay Qafarlı universitetdə təhsilin yüksək səviyyədə olduğunu dedi:**

– Universitetin şəraiti, müəllimlərin tələbkarlığı çox yaxşıdır. Türkiyənin 3 universitetinin proqramları burada tətbiq olunur. Ailəm və orta məktəb müəllimlərim də bu universiteti seçmək fikrimi əvvəlcədən dəstəklədilər. Burada şanslar daha çoxdur.

**Elyura Hümbətova da qrup yoldaşının dediklərini təsdiqlədi:**

– Seçim zamanı tərəddüddə olsam da, Türkiyə–Azərbaycan Universitetinin təhsilinin yüksək olduğunu düşünürdüm. Elə gözlədiyim kimi də oldu. Dərslərimiz ingilis dilində aparılır. Bizə hər şeyi dərindən öyrədirlər. Mənim məqsədim proqramçı olmaqdır. İstəyirəm ki, ixtisasımı çox yaxşı bilim, sahəmin əsl mütəxəssisinə çevrilim.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*





# Cəbrayılda “Şəfəq” Günəş Elektrik Stansiyasının tikilməsi gerçəkləşir

*BP bu layihə əsasında Dövlət Neft və İnvestisiya şirkətləri ilə Birgə İştirak Müqaviləsi imzalayıb*

**BP Cəbrayıl rayonunda 240 MVt-lıq “Şəfəq” Günəş Elektrik Stansiyası (GES) layihəsinin investoru olaraq Dövlət Neft və Azərbaycan İnvestisiya şirkətləri ilə səhmdarlar sazişi imzalayıb, bununla da “Cəbrayıl Solar Limited” (SJSL) adlı yeni birgə müəssisə yaradılıb. Bu müəssisə layihəyə aid birgə investisiya fəaliyyətini həyata keçirəcək.**



“BP-Azerbaijan” şirkətindən verilən məlumata görə, bundan əvvəl səhmdarlar sazişi üzrə danışıqlara başlamaq məqsədilə ötən ilin sentyabrında eyni tərəflər arasında qoşulma sazişi imzalanmışdı. “Şəfəq” layihəsində “Virtual enerji ötürmə mexanizmi” adlanan yeni kommersiya modelindən ilk dəfə istifadə olunacağı gözlənilir. Həyata keçəcəyi təqdirdə bu mexanizm layihənin Cəbrayıl rayonunda istehsal edəcəyi günəş enerjisinin ölkənin elektrik enerjisi şəbəkəsinin operatoru olan “Azərenerji”yə həmin yerdə çatdırılmasını, “Azərenerji”-nin isə sonra eyni həcmdə elektrik enerjisini Səngəçal terminalına verməsini təmin edəcək. Bu da, öz növbəsində, terminalın həmin bərpaolunan elektrik enerjisindən öz ehtiyacı üçün istifadə etməsinə imkan verəcək.

Səhmdarlar sazişini SJSL adından BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda maliyyə məsələləri üzrə vitse-prezidenti Kolin Allan, SJSL-də səhmdar şirkət kimi BP adından BP-nin günəş enerjisi və quruda külək enerjisi üzrə vitse-prezidenti Noelia Marivela Alvarez, Dövlət Neft Şirkəti adından bu qurumun prezidenti Rövşən Nəcəf və AİŞ-in icraçı direktoru Ülvi Mansurov imzalayıblar.

Mərasimdə çıxış edən Kolin Allan deyib: “Biz Dövlət Neft və Azərbaycan İnvestisiya şirkətlərini yeni tərəfdaşlarımız kimi belə bir mühüm potensial layihədə bizə qoşulmasından çox məmnunuq. Birgə işimiz layihənin icrasını sürətləndirəcək və Dövlət Neft Şirkəti, eləcə də Azərbaycan hökuməti ilə əməkdaşlığımızın yeni bir mərhələyə daxil olmasını şərtləndirəcək. İndi biz Səngəçal terminalının karbonsuzlaşdırılması və Xəzər regionunda əməliyyat emissiyalarının azaldılması üçün çalışdığımız bir vaxtda əsl innovativ bir yanaşmanı dəstəkləmək üçün hər bir tərəfdaşın dərin təcrübəsini bir araya gətirə bilərik”.

Dövlət Neft Şirkəti ilə BP arasında uzun illərdir ki, davam edən qarşılıqlı səmərəli əməkdaşlıqda yeni səhifə açıldığını bildirən qurumun rəhbəri Rövşən Nəcəf 30 il öncə “Əsrin müqaviləsi”nin imzalanması ilə başlayan bu əlaqələrin bu gün də uğurla davam etdirildiyini vurğulayıb: “Əminəm ki, birgə fəaliyyət nəticəsində Cəbrayıl rayonunda “Şəfəq” layihəsinin uğurlu icrası Azərbaycanın bərpaolunan enerji potensialının inkişafında mühüm rol oynamaqla yanaşı, işğalçıdan təmizlənən ərazilərin “yaşıl” enerji zonasına çevrilməsi istiqamətində görülən genişmiqyaslı işlərə mühüm töhfə verəcək”.

AİŞ-in icraçı direktoru Ülvi Mansurov isə bu layihənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində rəhbərlik etdiyi qurumun əsas investisiya layihəsi olduğunu, mühüm strateji önəm daşıdığını, eyni zamanda, “Şəfəq” GES-in ölkəmizin 2030-cu ilədək bərpaolunan enerji mənbələrinin payının 30 faizədək artırılması məqsədini dəstəkləməklə yanaşı, Cəbrayıl regionunun iqtisadi inkişafına böyük töhfə verəcəyini diqqətə çatdırıb.

Yeri gəlmişkən, xatırladaq ki, səhmdarlar sazişi müəyyən kommersiya və tənzimləyici şərtlər yerinə yetirildikdən sonra qüvvəyə minəcək. Bundan sonra isə SJSL səhmdarlarının iştirak payları belə olacaq: bp – 50,01 faiz, SOCAR – 39,99 faiz və AİŞ – 10faiz.

Xatırladaq ki, “Şəfəq” layihəsi Cəbrayıl rayonunda 240 MVt gücündə dəyişən cərəyanlı günəş elektrik stansiyasının tikilməsini nəzərdə tutur. Azərbaycan Energetika Nazirliyi ilə BP arasında 2021–2022-ci illərdə “Şəfəq” layihəsinin həyata keçirilməsinə dair icra sazişi və ona bir sıra əlavələr imzalanıb. Layihənin ətraf mühitə və sosial-iqtisadi sahəyə təsirinin qiymətləndirilməsi sənədi 2024-cü ildə ictimaiyyətə açıqlanaraq müzakirə edilib və Azərbaycan hökuməti tərəfindən təsdiqlənib.

Cəbrayılda 240 MVt-lıq “Şəfəq” GES tikilməsi məqsədilə BP, Azərbaycan Dövlət Neft Şirkətinə məxsus “SOCAR Green” MMC və İqtisadiyyat Nazrliyinin “Azərbaycan İnvestisiya Şirkəti” arasında imzalanan Birgə İştirak Müqaviləsi ilə bağlı iqtisadiyyat naziri və Dövlət Neft Şirkəti Müşahidə Şurasının sədri Mikayı Cabbarov “X” sosial şəbəkəsindəki hesabında bildirib ki, işğaldan azad edilmiş ərazilərin iqtisadi və “yaşıl” enerji potensialının reallaşdırılması üçün mühüm təşəbbüslər həyata keçirilir. Bu layihə birbaşa xarici investisiya cəlb edilməsi ilə ölkəmizin "yaşıl” keçid hədəfinin dəstəklənməsinə, Cəbrayıl rayonunun iqtisadi inkişafı və günəş enerjisi potensialından istifadə etməklə bölgənin enerji təminatının gücləndirilməsinə, Xəzər dənizi və Səngəçal terminalında karbon emissiyalarının azaldılmasına töhfə verəcək.

### Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Məlum olduğu kimi, BP şirkəti Azərbaycanın Cəbrayıl rayonunda 240 meqavatlıq günəş elektrik stansiyasının tikintisini nəzərdə tutan “Şəfəq” layihəsinin ilkin yeganə investoru olaraq “SOCAR Green” və Azərbaycan İnvestisiya Şirkəti ilə səhmdarlar sazişi imzalayıb. Sazişə əsasən “Şəfəq (Cəbrayıl) Solar Limited” adlı yeni birgə müəssisə yaradılıb. “Şəfəq” layihəsi ilə bağlı birgə investisiya fəaliyyəti məhz həmin müəssisə tərəfindən həyata keçiriləcək.

Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, günəş elektrik stansiyasının tikintisi üçün Cəbrayıl rayonunun ərazisinin seçilməsi heç də təsadüfi deyil. Aparılan tədqiqatların nəticəsində məlum olub ki, Azərbaycanda günəş enerjisini orta illik zaman çərçivəsində elektrik enerjisinə çevirməyin ən yüksək faydalı iş əmsalı Cəbrayıl rayonunun ərazisinə düşür. BP şirkətinin stansiyanın tikintisi üçün həmin ərazini seçməsi də məhz bu amillə bağlıdır. Yeri gəlmişkən, günəş enerjisindən elektrik enerjisi əldə etmək üçün ən yüksək faydalı iş əmsalı ilə seçilən digər münasib ərazi isə Naxçıvan Muxtar Respublikasıdır.

BP-nin işğaldan azad olunmuş Cəbrayıl rayonunun ərazisində günəş elektrik stansiyasının inşa edilməsi ilə bağlı qərarı özlüyündə çox böyük əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, adətən, dünyada bu sahədə ixtisaslaşmış şirkətlər “yaşıl” enerjiyə öz töhfələrini verirlər. Eyni zamanda, bunun Azərbaycan üçün də əhəmiyyəti olduqca yüksəkdir. Belə ki, Xəzəryanı ölkələr içərisində ilk dəfə məhz Azərbaycanda ən böyük neft və qaz hasilatçısı olan şirkət belə bir təşəbbüslə çıxış edir.

Digər tərəfdən, 2025-ci ilin sonlarında stansiya istismara verildikdən sonra bu, postsovet məkanının ilk ən böyük günəş elektrik stansiyalarından biri kimi tarixə düşəcək. Məlum olduğu kimi, “Şəfəq” Günəş Elektrik Stansiyasının istehsal gücü 240 meqavat təşkil edəcək. Bütövlükdə isə, stansiyada il ərzində, təqribən, 700 milyon kilovat-saat elektrik enerjisinin əldə edilməsi planlaşdırılır ki, bu da kifayət qədər böyük rəqəmdir. Yeri gəlmişkən, Xəzər regionunda ən böyük, eləcə də dünya üzrə ilk beşliyə daxil olan Səngəçal terminalının elektrik təchizatı da tam olaraq “Şəfəq”dən alınan “yaşıl” enerji hesabına ödəniləcək.

## AİB “Azərbaycan Dəmir Yolları”na 47 milyon dollar kredit ayırıb

**Asiya İnkişaf Bankı (AİB) “Azərbaycan Dəmir Yolları” QSC-nin (ADY) rəqəmsal transformasiya layihəsinin həyata keçirilməsi üçün ölkəmizə 47 milyon ABŞ dolları məbləğində kreditin ayrılmasını təsdiqləyib.**




Bu barədə AİB-nin məlumatında bildirilir ki, həmin kredit Azərbaycana dəmir yolu sisteminin rəqəmsallaşdırılmasına, ölkənin dəmir yolu şəbəkələrinin təhlükəsizliyinin, etibarlılığının və səmərəliliyinin artırılmasına kömək edəcək. Layihə ADY-də gedənəsas proseslərin, o cümlədən dəmir yolu nəqliyyatının idarə edilməsi, investisiyanın planlaşdırılması və icrası, müştəri məlumatlarının emalı sisteminin, eləcə də korporativ funksiyaların rəqəmsallaşdırılmasını dəstəkləməyə yönəlib.

AİB-nin Mərkəzi və Qərbi Asiya Regional Departamentinin baş direktoru Yevgeni Jukovun sözlərinə görə, ölkəmizin modernləşdirilmiş və rəqəmsal dəmir yolu sistemi Şərqi və Mərkəzi Asiya iqtisadiyyatlarını Qafqaz və Avropa ilə əlaqələndirməyə, ticarət potensialını maksimum gücləndirməyə müsbət təsir göstərəcək.

Xatırladaq ki, AİB ilə ölkəmiz bu gün birgə biznes əməliyyatları strategiyasını uğurla reallaşdırır. Bu strategiya çərçivəsində bank Azərbaycanla əlaqədar kredit prioritetlərini müəyyənləşdirməyə çalışır. Eyni zamanda, maliyyə qurumu respublikamızla əlaqədar mühüm texniki yardım proqramlarında fəal iştirak edir. Ümumiyyətlə, AİB Azərbaycanla həyata keçirdiyi layihələrdə qarşıya qoyduğu məqsədləri – insanların həyat şəraitinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması, infrastrukturun müasir tələblər səviyyəsinə qaldırılması kimi vəzifələri uğurla yerinə yetirir.

Beynəlxalq maliyyə təşkilatı olan AİB 1966-cı ildə yaradılıb. Əsas məqsədi Asiya məkanında, bütövlükdə Şərq ölkələrində iqtisadiyyatın inkişafına yardım göstərməkdən ibarət olan bankın baş ofisi Filippinin Manila şəhərindədir. AİB-ni maliyyələşdirən 67 üzv-ölkə var ki, onlardan 48-i Asiya və Sakit Okean regionunda yerləşir.

## Mərkəzi Bankın valyuta ehtiyatları 11,8 milyard dollara çatıb

**Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları sentyabr ayında 11,8 milyard dollara yaxınlaşıb. Bankın məlumatında bildirilir ki, bu, əvvəlki ayla müqayisədə 0,1 faiz çoxdur. AMB-nin valyuta ehtiyatları son bir ildə 20,6 faiz, ilin əvvəli ilə müqayisədə isə 1,6 faiz çoxalıb.**



Məlumatda o da qeyd edilir ki, cari ilin avqustunda Azərbaycanda pul bazası sentyabr ayına nisbətən 1,7 faiz artaraq 20 milyard 897,4 milyon manata yüksəlib. Pul bazası ilin əvvəlinə nisbətən 0,1 faiz, son 1 ildə isə 16,8 faiz çoxalıb.

## Şuşadan Xankəndinə “işıq körpüsü”

**2023-cü ilin sentyabr ayında antiterror əməliyyatı keçirilərkən ölkə başçısının tapşırığına uyğun olaraq “Azərenerji” ASC-nin xüsusi qrupu operativ işə başladı və yeni anker dayaqlar quraşdırılmaqla cəmi 4 gün müddətində “Şuşa” yarımstansiyasından Xankəndi, eləcə də ətraf ərazilərə ilkin olaraq enerji verilməsi təmin edildi. Lakin separatçıların nəzarətində olan zaman 110 kilovoltluq xətlər və mövcud “Xankəndi” yarımstansiyası istismar müddətini çoxdan başa vurduğundan tez-tez qəza açılmaları baş verir, uzunmüddətli fasilələr yaranırdı.**



Məhz buna görə də cari ilin yazından başlayaraq “Azərenerji” Şuşa şəhərindən Xankəndiyə ən çətin dağlıq və meşəlik relyefdə 110 kV-luq ikidövrəli “Xankəndi-1”, “Xankəndi-2” yüksək gərginlikli ötürmə xəttinin çəkilməsinə start verib. Artıq ümumi uzunluğu 11 kilometr olan hava xəttinin çəkilməsi işi yekunlaşıb və 1,8 kilometr məsafədə yeraltı kabel xəttinin çəkilməsi işi aparılır.

Hazırda Xankəndi şəhərində müasir şəhər şəbəkəsi modelinə uyğun 110, 35, 10 kilovoltluq qapalı tipli yarımstansiyanın tikintisinə başlanılıb. Artıq tikinti işlərinin böyük hissəsi görülüb. “AzərEnerji”nin ictimaiyyətlə əlaqələr mərkəzinin rəisi Teymur Abdullayevin sözlərinə görə, “Xankəndi” yarımstansiyası işğaldan azad edilən ərazilərdə 110 kV-luq gərginlik sinfi üzrə tikilən ilk qapalı tipli yarımstansiyadır. Belə ki, burada kabel zirzəmisindən tutmuş 110, 35, 10 kilovoltluq paylayıcı qurğulara, o cümlədən 2 ədəd 63 MVA transformatorlara qədər bütün avadanlıqlar məhz binanın daxilində yerləşdiriləcək.

Yarımstansiyanın qapalı tipdə tikilməsi daha az yer tutmasına, avadanlıqların uzunmüddətli istismarına, müasir standartlara uyğun estetik görünüşünə, təhlükəsizliyinə və digər amillərə görə daha əlverişlidir. Yeni yarımstansiyada müasir tipli yanğından mühafizə sistemindən tutmuş, kiber təhlükəsizliyə qədər bütün tətbiqlər quraşdırılacaq. Qeyd edək ki, “Xankəndi” yarımstansiyasının ərazisində həm də anbar, qazanxana, maşın mexanizmlərinin təmir sahəsi və başqa yardımçı binalar da tikiliir. “Xankəndi” yarımstansiyasında işlərin yaxın aylarda yekunlaşdırılması planlaşdırılır.

## “İstisu” xarici bazarlara da çıxarılacaq




**Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə sentyabrın 2-də açılışı olan Kəlbəcər rayonundakı “İstisu” mineral su zavodunun məhsulları xarici bazarlara çıxarılacaq. Zavodun direktoru Adil Haqverdiyevin mediaya bildirdiyinə görə, artıq bununla bağlı danışıqlar aparılıb, oktyabr ayında ilk ixracın həyata keçiriləcəyi nəzərdə tutulub. Bu da həm müəssisə, həm də ölkə adına qürurverici bir hadisədir.**

Direktor bildirib ki, çox qısa zamanda dünya standartlarına uyğun müasir bir zavod inşa edilib, illərlə həsrətində olduğumuz “İstisu” markası yenidən canlandırılıb, xalqımıza təqdim edilib.

Müəssisədə 100 nəfərin işləməsi planlaşdırılır. Hazırda bu rəqəm 75-dir. Onun da 56 nəfəri Kəlbəcər sakinidir. Bu da çox qürurverici haldır ki, sakinlər məskunlaşmadan əvvəl işlə təmin olunublar. Əməkdaşlar arasında şəhid ailələri və müharibə iştirakçıları da var.

Qeyd edək ki, Kəlbəcər rayonunda “İstisu” mineral suyunun istehsalına 1976-cı ildə başlanılıb. Qısa müddətdə həm Azərbaycanda, həm də qonşu ölkələrdə bu su alıcı rəğbəti qazanıb. 1993-2020-ci illərdəki işğal dövründə isə zavodun fəaliyyəti dayandırılıb. 2022-ci il iyunun 26-da Prezident İlham Əliyev “İstisu”yun təməlini qoyub, 2024-cü ildən isə mineral suyun yenidən istehsal edilməsinə başlanılıb.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




*Bəşəriyyətin narahat gündəmi*

# Ekoloji fəlakətdən “yaşıl” transformasiyaya körpü

## *COP29-a yol haradan başlayır?*



***(əvvəli qəzetin 2 və 3 oktyabr tarixli saylarında)***

2015-ci il dekabrın 12-də konsensus yolu ilə qəbul edilmiş, lakin 5 ay sonra, 2016-cı il aprelin 22-də imzalanmış Paris sazişi isə universal xarakter aldı: dünyanın, demək olar ki, bütün ölkələri ona qoşuldular. Bu isə, əsasən, sənəddə emissiyaların azaldılması ilə bağlı öhdəliklərin olmaması səbəbindən reallaşdı.

Hüquqi cəhətdən məcburi olan yeganə məsələ milli səviyyədə müəyyənləşdirilmiş daxili iqlim siyasəti tədbirləri sayəsində verilən töhfələrin şəffaflıq şəraitində UNFCCC Katibliyinə təqdim edilməsi zərurəti idi. Buna baxmayaraq, hazırkı vaxta qədər qeydə alınmış töhfələrin faktiki miqdarının Paris Sazişinin temperatur hədəfinə çatmaq üçün kifayət etməməsi ehtimalı çox yüksəkdir. Bununla belə zaman keçdikcə töhfələrin getdikcə daha iddialı olacağı və nəticədə fəlakətli iqlim dəyişikliyinin qarşısını almaq üçün lazımi səviyyəyə çatacağı gözlənilir.

Paris Sazişi bütün əsas tərəflər arasında bir kompromis idi. Məhz bunun sayəsində aşağı karbonlu gələcəyə doğru irəliləmənin zəruriliyi ilə bağlı dünya ictimaiyyətinin konsensusunu qeydə almaq mümkün oldu. Bir çox aşağı səviyyədə olan aktorlar (təkcə dövlətlər deyil, həm də regionlar, bələdiyyələr, şirkətlər, banklar və investisiya fondları) üçün bu, özlərini gələcək aşağı karbonlu landşafta hazırlamaq, orada məxsusi rəqabət üstünlüklərini qeydə almaq üçün qabaqlayıcı siqnal idi.

Eyni zamanda, Paris Sazişi iqlim maliyyəsi lobbiçiliyi yolunda güclü rıçaqlar alan yoxsul ölkələrə yardım göstərmək üçün institusional çərçivəyə çevrildi. Qlobal iqlim yürüşündə hadisələri qabaqlamağa cəhd etməyən inkişaf etmiş ölkələrə (məsələn, ABŞ, Çin, Hindistan və xüsusilə karbohidrogen ixrac edən dövlətlərə) Paris Sazişi ağır öhdəliklər qoymur və emissiyaların azaldılması ilə iqtisadi inkişaf arasında tarazlıq yaratmaqdan ötrü karbonsuzlaşdırmaq məqsədilə nə vaxt və hansı alətlərin köməyindən istifadə etməyə qərar vermək üçün kifayət qədər çeviklik saxlayırdı.

Elə həmin 2015-ci ildə “dayanıqlı inkişaf” konsepsiyası ilə bağlı daha geniş spektrli vəzifələri həyata keçirmək üçün hərəkatın yenidən formatlaşdırılması baş verdi. 2015-ci il üçün müəyyənləşdirilmiş Minilliyin İnkişaf Məqsədlərinin yerinə BMT Baş Assambleyası Dayanıqlı İnkişaf Məqsədlərini qəbul etdi. Bu 17 məqsəddə bəşəriyyətin yoxsulluğunun və aclığının aradan qaldırılması, ölkədaxili və ölkələrarası gender bərabərsizliyi, eləcə də insan hüquqlarının, ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə üzrə öhdəliklər əksini tapırdı. Sənəddəki məqsədlər iqtisadi, sosial və ekoloji məsələləri davamlı inkişafa nail olmağa yönəldirdi. Hər bir məqsəd üçün 2030-cu ilə qədər onun həyata keçirilməsində irəliləyişin izlənilə biləcəyi, Dayanıqlı İnkişaf Məqsədlərinin tam icra ili olan bir sıra göstəricilər tərtib edildi.

***

Bu gün Avropa İttifaqı qlobal ekoloji və iqlim gündəminin pionerinə çevrilir. Bütün aparıcı ölkələrlə müqayisədə ekoloji problemləri öz strategiyalarının və hətta öz ideologiyalarının mərkəzinə ən aydın şəkildə yerləşdirən Avropa ölkələridir. Bu, ən bariz şəkildə özünü, təkcə “yaşıl” inkişafa deyil, həm də bu məqsədlə bütün Avropa iqtisadiyyatının restrukturizasiyasını nəzərdə tutan 2019-cu ildə qəbul edilmiş “Yaşıl kurs” tədbirlər paketində nümayiş etdirir. “Yaşıl kurs”un əsas istiqamətləri qanunvericilik səviyyəsində 2021-ci ildə qəbul edilmiş, 2050-ci ilə qədər karbon neytrallığına nail olmaq, həmçinin 1990-cı ilə nisbətən 2030-cu ilə qədər istixana qaz emissiyalarının 55 faiz azaldılması hədəflərini müəyyənləşdirən İqlim haqqında Qanunda təsbit olunub.

Bu məqsədə nail olmağın əsas vasitələrindən biri 2005-ci ildən qüvvədə olan emissiyalarla ticarətin Avropa sistemi çərçivəsində müəyyənləşdirilən karbon qiymətidir. 2022-ci ilə qədər artıq emissiyaların hər tonu üçün qiymət 80-90 avroya çatmışdı. Qanun, həmçinin 2040-cı ilə qədər gələcək hədəflərin uyğunlaşdırılmasını və 2050-ci ildən sonra mənfi karbon izinə keçidi nəzərdə tutur.

İqlim haqqında Qanunun müddəalarını həyata keçirmək üçün 13 sahəni əhatə edən “Fit for 55” tədbirlər paketi hazırlanmışdır ki, Avropa İttifaqı bu çərçivədə iqlim ambisiyalarını gücləndirməlidir. Bu tədbirlər bərpaolunan enerji mənbələrinin inkişafı və enerji səmərəliliyi, emissiya ticarəti sistemi vasitəsilə tullantıların azaldılması və üzv ölkələr arasında səylərin bölüşdürülməsi, enerji sektorunda vergiqoyma, binaların enerji səmərəliliyi, torpaqdan istifadə, torpaqdan istifadənin dəyişdirilməsi və meşə təsərrüfatı, nəqliyyat sektorları (dənizçilik, quru və hava nəqliyyatı) kimi sahələri əhatə edir. Bundan əlavə, 2023-cü ilin oktyabr ayından etibarən karbon sərhədinin tənzimlənməsi mexanizmi qüvvəyə mindi ki, bu da idxal olunan məhsullara karbon qiymətini səmərəli şəkildə tətbiq edir. Beləliklə, bu yolla Avropa istehsalçıları karbon qiymətləri olmayan ölkələrin şirkətlərinin “ədalətsiz” rəqabətindən qorunur.

2022-ci ildə bərpaolunan enerji mənbələri, habelə enerji səmərəliliyinə dair mövcud hədəfləri əhəmiyyətli dərəcədə sərtləşdirməyə yönəlmiş iddialı “REPowerEU” planı təklif edildi. 2023-cü ildə (əsasən Amerikanın “yaşıl” sənaye siyasəti təşəbbüslərinə cavab olaraq) “Yaşıl kursun sənaye planı” təqdim olundu ki, bu da sənayedə karbon neytrallığına nail olmağa, enerji keçidi üçün maliyyə resurslarını və digər stimulları səfərbər etməyə, onun üçün kritik materiallara davamlı çıxışı gerçəkləşdirməyə, elektrik enerjisi bazarında islahatlar aparmağa, nəhayət, “yaşıl” keçid sahəsində tənzimləmələri sadələşdirməyə kömək etməlidir.

Beləliklə, Avropanın iqlim siyasətində iqlim həyəcanı bilavasitə enerji təhlükəsizliyinin təmin edilməsi və enerji idxalından, xüsusən də Rusiyadan asılılığın azaldılması hədəfləri ilə əlaqələndirilmişdir. Bundan əlavə, iqlim diplomatiyasının intensivləşdirilməsi çərçivəsində Avropa İttifaqı iqlim siyasətində lider dövlətləri birləşdirən unikal format olan “İqlim klubu” ideyasını fəal şəkildə irəli sürür. “İqlim klubu”nun təşkili üçün əsas platforma “Yeddilər qrupu”dur. Lakin bununla yanaşı, Avropa İttifaqı inkişaf etməkdə olan ölkələrdə istixana qazlarının emissiyalarının azaldılmasına və bu təşkilatla ümumi “yaşıl” dəyərlərin yayılmasına, həmçinin Avropanın “yaşıl” texnologiyalarını təşviq etməyə yönələn aşağı karbonlu inkişafın maliyyələşdirilməsi üzrə fəaliyyətini də artırır.

Avropa İttifaqından fərqli olaraq, ABŞ-də iqlim siyasəti daha dəyişkəndir və əsasən, ölkə prezidentinin partiya mənsubiyyətindən asılıdır: məsələn, Respublikaçılar Partiyası iqlim dəyişikliyinə və onunla mübarizənin yüksək xərclərinə şübhə ilə yanaşır, eyni zamanda, güclü neft və qaz lobbisini təşviq edir. Demokratlar isə iqlim gündəmini paylaşdıqları liberal dəyərlərin geniş dairəsinə daxil edirlər. D.Trampın respublikaçı administrasiyası dövründə ABŞ Paris Sazişində iştirakını dayandırdı və ənənəvi enerji sektorunun inkişafı qarşısındakı bir çox maneələri aradan qaldırdı. Məsələn, Barak Obama dövründə bağlanan Keystone neft kəmərinin genişləndirilməsinə icazə verildi, onun ətrafında ekoloqlar və mühafizəkarlar – iqlim skeptikləri arasında mübarizə gedirdi.

Demokrat prezident Co Bayden də, öz növbəsində, iqlim dəyişikliyi problemlərini və bu sahədə ABŞ-nın qlobal liderliyinin bərpası zərurətini özünün xarici siyasət prioritetlərindən biri bəyan etmişdi. Hətta onun idarəçiliyində 25-dən çox nazirlik və idarənin nümayəndələrini birləşdirən Milli İqlim İşçi Qrupu yaradılıb ki, bu da planlaşdırılan iqlimə nəzarət tədbirlərinin hərtərəfli olduğunu nümayiş etdirir.

Prezidentin İqlim Məsələləri üzrə Xüsusi Nümayəndəsi ilk dəfə olaraq ABŞ-ın xarici siyasət qərarlarının qəbulu sistemində əsas institut olan Milli Təhlükəsizlik Şurasına (məsləhətçi orqan statusuna baxmayaraq) daxil edilib. C. Baydenin dövründə Birləşmiş Ştatlar 2005-ci ilə nisbətən 2030-cu ilə qədər istixana qazı emissiyalarını 50-52 faiz azaltmaq, 2050-ci ilə qədər karbon neytrallığına nail olmaq, 2035-ci ilə qədər elektrik enerjisi sektorunu karbondan təmizləmək, iqlim və təmiz enerjiyə yatırılan dövlət investisiyalarından əldə edilən mənfəətin 40 faizini enerji qiymətlərinin yüksəlməsindən ağır zərbə ala biləcək aşağı gəlirli icmalara yönəltmək kimi məqsədlər müəyyən edib.

İki əsas qanunvericilik tədbiri – “Antiinflyasiya qanunu” və “İnfrastruktur İnvestisiyaları və İş yerləri Qanunu” bu məqsədlərə nail olmağa yönəldilib. Birincisi, təmiz texnologiyalara keçidi təşviq edir: “çirkli” yanacaq və qurğuların istifadəsi üçün əlavə ödənişlər əvəzinə, aşağı karbonlu həllərə keçid zamanı istehlakçılara qənaət təklif olunur. Məsələn, evin damında günəş panellərinin quraşdırılması, elektrik avtomobilinin alınması, məişət cihazlarının enerji səmərəliliyinin artırılması və s.

Bu tədbirlər getdikcə daha bahalı olan mədən yanacaqların istehlakını azaltmağa kömək edəcək, qanunun icrası, eyni zamanda, inflyasiya ilə mübarizəni, yeni iş yerlərinin yaradılmasını və istixana qazı emissiyalarının azaldılmasını nəzərdə tutur. Ümumilikdə, karbonsuzlaşdırmaya 391 milyard dollar yönəldiləcək. İnfrastruktura İnvestisiyalar və İş yerləri Qanunu da iqlim problemlərini önə çəkir və elektrik şəbəkələrini yeniləmək, ictimai nəqliyyatı inkişaf etdirmək, karbonsuz, o cümlədən elektrik avtomobillərinin enerji doldurma stansiyalarının şəbəkələrini genişləndirmək və digər tədbirlər üçün ABŞ-də görünməmiş maliyyə vəsaitləri yönəldir.

Bütün bunlara baxmayaraq, ABŞ-də karbon qiymətinin tətbiqi ilə bağlı istixana qazlarının emissiyalarını tənzimləmək üçün Avropa İttifaqında istifadə olunan mexanizmləri tətbiq etmək çətindir. Ətraf Mühitin Mühafizəsi Agentliyi fiskal mexanizmlər vasitəsilə ümummilli iqlim siyasətini həyata keçirə bilməz. Məhz buna görə ABŞ-də hələ də ölkə miqyasında karbon qiymətləri sistemi yoxdur və emissiyaların ticarəti sistemi yalnız bir neçə ştatda – Kaliforniya, Vaşinqton və ölkənin şimal-şərq əyalətlərində işə salınıb.

**(ardı var)**

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

# Azərbaycan və Macarıstanın qlobal məsələlərə birgə baxışı

**Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma ADA Universitetində keçirilən “COP29 işığında kənd təsərrüfatında və su ehtiyatlarının idarə edilməsində dayanıqlılıq və innovasiyalar” adlı beynəlxalq simpoziumda hər iki ölkənin yerləşdikləri önəmli coğrafi vəziyyətdən yararlanaraq, qlobal əhəmiyyətli məsələləri müzakirə etməyə çalışdığını bildirib.**



Səfir çıxışında hazırda Macarıstanın Avropa İttifaqında (Aİ) sədrliyi həyata keçirdiyini, ümumilikdə, Aİ-nin rəqabət qabiliyyətinin artırılmasının Macarıstan sədrliyinin əsas məqsədlərindən biri olduğunu qeyd edib. T.Torma daha sonra deyib: “Kənd təsərrüfatında dayanıqlılıq və innovasiyalara dəstək vermək sədrliyimizin vacib hissəsini təşkil edir. Buna görə də Avropa kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılmasına, eyni zamanda ekoloji cəhətdən təmiz texnologiyalardan istifadə etməklə ekoloji izlərin azaldılmasına xüsusi diqqət yetirir”.

Səfir vurğulayıb ki, Macarıstan rəqabətədavamlı, resursları səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan, biliklərə əsaslanan və innovativ kənd təsərrüfatı və qida sənayesinin yaradılmasını hədəfləyir, eyni zamanda, innovativ kənd təsərrüfatı və qida sənayesinin iqtisadi sarsıntılara və hazırkı istehsala birbaşa təsir göstərən təbii amillərə daha dayanıqlı olmağı qarşıya mühüm vəzifə kimi qoyur.

Qeyd edək ki, ADA Universitetində Macarıstan, İtaliya və Qazaxıstan səfirliklərinin birgə təşkilatçılığı ilə keçirilən “COP29 işığında kənd təsərrüfatında və su ehtiyatlarının idarə edilməsində dayanıqlılıq və innovasiyalar” adlı beynəlxalq simpoziumda qlobal və regional perspektivlər müzakirə olunur, iqlim dəyişikliyinin təsirlərinə xüsusi diqqət yetirilir.

# Su torpağın dirilik iksiridir

## *Buna görə də 120 min hektarda müasir suvarma sistemi quraşdırılıb*

**Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri Azad Cəfərli Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçirilən konfransda Azərbaycanda 120 min hektar ərazidə müasir suvarma sistemləri quraşdırıldığını bildirib. O qeyd edib ki, respublikamız iqlim dəyişikliyinin davamlı olması, ekstremal hava hadisələrinin çoxalması, yağıntı rejiminin dəyişməsi kimi ekoloji nəticələr və çağırışlarla üzləşir. İqlim dəyişikliyinin təsirlərinə və emissiyaların azaldılmasına hazırlaşmaq üçün ölkəmizdə səylər göstərilir. Belə sektorlardan biri də kənd təsərrüfatıdır.**



Nazirlik rəsmisinin sözlərinə görə, Azərbaycanda illik su balansının yalnız 30 faizi ölkə daxilində formalaşır: “Respublikada, təxminən, 12 milyard kubmetr su istehlak edilir. Bunun 7-8 milyard kubmetri suvarma və kənd təsərrüfatı məqsədləri üçün istifadə olunur. Azərbaycanda, təxminən, 1,5 milyon hektar suvarılan torpaq sahəsi var. Ümumi əkin sahəsi 4,78 milyon hektardır”.

A.Cəfərli onu da əlavə edib ki, hökumət fermerləri, xüsusən də qadın fermerləri və ucqar ərazilərdə yaşayan fermerləri dəstəkləmək üçün təşviq proqramları həyata keçirir: “Azərbaycanda fermerlər müasir texnologiyaları və suvarma sistemlərini tətbiq etmək yolu ilə subsidiyalar və yaxud digər proqramlardan faydalana bilərlər”.

# Braziliyada COP29-un enerji gündəliyi müzakirəsi



**Energetika naziri Pərviz Şahbazov Braziliyada G20 tədbirləri çərçivəsində Beynəlxalq Enerji Agentliyinin (IEA) icraçı direktoru Fatih Birol və Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera ilə görüşlər keçirib.**

Energetika Nazirliyinin məlumatına görə, IEA-nın icraçı direktoru Fatih Birolla görüşdə enerji bazarlarında vəziyyət və perspektivlər, həmçinin COP29 çərçivəsində əməkdaşlığa dair məsələlər müzakirə edilib. Görüş zamanı “Bərpaolunan enerji və enerji səmərəliliyinə dair qlobal vəd”in yerinə yetirilməsində Azərbaycanın təşəbbüskarı olduğu “Qlobal enerji anbarları və şəbəkələri öhdəliyi”nin vacib rolundan danışılıb. Bildirilib ki, “yaşıl” enerji zonası və dəhlizlər də daxil olmaqla iki öhdəlik Azərbaycanın bu sahədə təcrübəsindən irəli gəlir.

Bu il noyabrın 15-də “Enerji Günü”ndə keçiriləcək COP29 Fəaliyyət Gündəliyinin enerji təşəbbüslərinin elanına həsr olunmuş nazirlər səviyyəsində “dəyirmi masa”, bərpaolunan mənbələrin üç dəfə, enerji səmərəliliyinin isə ikiqat artırılması üçün investisiyaların çoxaldılması, neft və qaz sənayesinin sürətlə karbonsuzlaşdırılması, enerji keçidinə nail olmaq üçün infrastrukturun qurulması, elektrik sistemlərində ötürmə gücünün üçqat artırılması ilə bağlı tədbirlərdə agentliyin iştirakı və bu çərçivədə əməkdaşlıq imkanlarına nəzər salınıb.

Görüş zamanı energetika naziri və İEA-nın icracı direktorunun həmsədrliyi ilə keçiriləcək “Enerji keçidi üzrə 4-cü yüksək səviyyəli dialoq”la bağlı da fikir mübadiləsi aparılıb, “EU4Energy” proqramı çərçivəsində IEA tərəfindən hazırlanmış “Azərbaycan üçün enerji səmərəliliyi üzrə Yol Xəritəsi”nin təqdimatına həsr olunmuş tədbirin COP zamanı keçirilməsi təklifi müzakirə edilərək razılaşdırılıb.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera ilə görüşdə də əsas diqqət COP29 zamanı agentliklə birgə təşkil olunan tədbirlərə yönəldilib. Bu xüsusda, Azərbaycanın ev sahibliyi ilə Pre-COP29 zamanı keçiriləcək “BƏƏ konsensusunun enerji nəticələrinin izlənməsi – hesabatın başlanması” tədbiri və Mərkəzi Asiya üçün Enerji Keçid İnvestisiya Forumunun təşkili məsələləri müzakirə edilib. Həmçinin IRENA-nın iştirakı ilə planlaşdırılan digər tədbirlər və aktual məsələlər nəzərdən keçirilib.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# “Yaşıl dünya” naminə həmrəylik



# Audit və ekoloji problemlər

**Dünya bu gün biomüxtəlifliyin itirilmə təhlükəsi, hava və suyun çirklənməsi, təbii ehtiyatların həddindən artıq istehlak olunması kimi ciddi problemlərlə üzləşir. Bu isə yaşanan narahatlığın aradan qaldırılmasına ölkələr səviyyəsində yanaşma tərzininin kökündən dəyişməsini gündəmə gətirir, eyni zamanda, ekoloji problemlərə, iqlim dəyişikliyinə, davamlı inkişafa və ətraf mühitin qorunması üçün zəruri tədbirlərə diqqəti artırır. ETN İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru Yaşar Məmmədovla söhbətimiz də bu barədədir.**



**– COP29-un Bakıda keçiriləcəyi beynəlxalq səviyyədə mühüm hadisə kimi dəyərləndirilir. Bu barədə nə deyə bilərsiniz?**

– “Yaşıl” iqtisadiyyat quruculuğu müasir tələblərə cavab verən ekoloji auditin və ya “yaşıl” nəzarət sisteminin tətbiqini zəruri edir, bu sahədə əsaslandırılan siyasətin icrasını gündəmə gətirir. Heç də təsadüfi deyildir ki, noyabrda keçiriləcək COP29-a beynəlxalq səviyyədə mühüm hadisə kimi yanaşılır və Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin müzakirəsi üçün ən vacib qlobal məkanlardan biri hesab olunur. COP29 konfransında dünya liderləri və mütəxəssislər istixana qazı emissiyalarını azaltmaq, iqlim layihələrini maliyyələşdirmək və dəyişən iqlim şəraitinə uyğunlaşmaq üçün ciddi strategiyaların hazırlanamsı ilə bağlı müzakirəyə xüsusi diqqət yetirəcəklər.

**– İşğaldan azad edilmiş torpaqlarımız “yaşıl” enerji zonası elan edilib. Məqsəd 2050-ci ilə qədər Qarabağ və Şərqi Zəngəzuru xalis sıfır emissiya bölgələrinə çevirməkdir.**

– Azərbaycan digər ölkələr kimi, ekoloji problemlərdən əziyyət çəkir. 30 ilə yaxın bir zaman ərzində Qarabağ və Şərqi Zəngəzurun işğalda saxlanılması minlərlə hektar meşələrin yandırılması və məhv edilməsi ilə nəticələnib. İşğal dövründə çaylarımızın, su anbarlarımızın çirklənməsi ümumi ekoloji vəziyyətə mənfi təsir göstərib. Hazırda ekoloji problemlərin aradan qaldırılması istiqamətində böyük işlər görülür. Bunlardan biri də dövlət başçımızın sərəncamı ilə düşməndən təmizlənən torpaqların “yaşıl” enerji zonası elan edilməsidir.

Sərəncamın icrası istiqamətində müvafiq konsepsiya hazırlanıb. Məqsəd işğaldan azad edilmiş ərazilərdə zəngin bərpaolunan enerji potensialından istifadə etməklə ərazini ekoloji cəhətdən təmiz enerji ilə təmin etməkdir. Bunun üçün müxtəlif ssenarilərin tətbiqi ilə ərazilərin enerji tələbatı modelləri hazırlanıb. 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40 faizə qədər azaldılması və Qarabağda xalis sıfır emissiya zonası yaradılması niyyəti bəyan edilib.

“Yaşıl” enerji zonasının yaradılması çərçivəsində artıq düşməndən təmizlənən ərazilərdə bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsal edilir, elektrik nəqliyyat vasitələrinə üstünlük verilir, tikililərin damlarında bərpaolunan enerji qurğuları (xüsusən günəş panelləri) yerləşdirilir, həmçinin küçələrin və yolların işıqlandırılmasında günəş enerjisi əsaslı “LED” lampalarının istifadəsi diqqətdə saxlanılır. İstilik, soyutma və isti su təchizatında bərpaolunan enerji texnologiyaları, “ağıllı” enerji idarəetmə texnologiyaları tətbiq edilir. Tullantıların enerji məqsədli idarə edilməsi kimi tədbirlər həyata keçirilir.

**– “Yaşıl” auditin inkişafı ekoloji problemlərin həllində mühüm əhəmiyyət kəsb edir, nəzarət sistemini gücləndirir. Bu amil həm də ekologiyaya vurulan zərərin qiymətləndirilməsi və bu zərərdən əmələ gələn risklərin müəyyənləşdirilməsini gündəmə gətirir.**

– Dünyada iqlim dəyişikliyi fəsadlarının genişləndiyi bir dövrdə ekoloji auditin imkanlarından geniş istifadəyə ehtiyac artır. Xüsusilə, ekologiyaya vurulan zərərin qiymətləndirilməsi və bu zərərdən əmələ gələn risklərin müəyyənləşdirilməsi həm təbiət istifadəçiləri, həm də nəzarəti reallaşdıran dövlət institutları, özəl və ictimai təşkilatlar qarşısında duran əsas vəzifələrdən biridir. Ekoloji problemlər münaqişə zonalarında daha ciddidir. Belə bir problemi Ermənistan dövləti yaradıb. Belə ki, işğalçı ölkənin 1988-ci ildə etibarən Azərbaycana qarşı ərazi iddialarını həyata keçirməsi, torpaqlarımızın 20 faizini tapdaq altına salması nəticəsində bu coğrafiya xarabalıqlara çevrilib, ekosistem dağılıb, onun təbii balansı pozulub, eləcə də məhsuldarlığı azalıb.

Hazırda həmin ərazilərdə quruculuq işləri həyata keçirilir, “yaşıl” texnologiyadan istifadə olunur. Müasir iqtisadiyyatda “yaşıl” texnologiya keçid ciddi maliyyə–kapital qoyluşunu önə çəkir. Eyni zamanda, “yaşıl” iqtisadiyyat quruculuğu bu sahədə maliyyə–texniki nəzarət sisteminin təkmilləşdirilməsini, idarəetmə və fəaliyyət proseslərinin ekoloji tələblərə uyğunluğunun qiymətləndirilməsini önə çıxarır. Bununla da “yaşıl” nəzarət sisteminin aparıcı qolu sayılan ekoloji audit qarşısına mühüm vəzifələr qoyulur.

**– İqtisadi və ekoloji zərərin qiymətləndirilməsi ilə bağlı məcburi ekoloji auditin təşkili və keçirilməsi sahəsində vəziyyət necədir?**

– Azərbaycan Respublikasına dəymiş iqtisadi və ekoloji zərərin qiymətləndirilməsi ilə bağlı məcburi ekoloji auditin təşkili və keçirilmə prosedurları müəyyən olunmalıdır. Ölkədə auditin bir çox qolları (müstəqil, dövlət və daxili audit) fəaliyyət göstərsə də ekoloji audit daha fərqli xüsusiyyətləri ilə seçilir. Nazirlər Kabinetinin 2001-ci il 22 fevral tarixli qərarı ilə “Ekoloji auditor fəaliyyətinin aparılması qaydaları” adlı hüquqi sənəd mövcud olsa da, o çox yığcam və ümumi müddəaları ehtiva edir. Belə ki, Bu sənəddə ekoloji auditin aparılma metodologiyası və qiymətləndirmə mexanizmləri kimi bir çox mühüm müddəalar öz əksini tapmayıb. Müasir təcrübə deməyə əsas verir ki, müvafiq sənəd işğaldan azad olunmuş ərazilərimizə dəymiş ciddi zərərlərin qiymətləndirilməsinin öhdəsindən kifayət qədər gələ bilməz. Bu baxımdan ekoloji auditin aparılması ilə bağlı bir çox baxışın irəli sürülməsi məqsədəuyğun hesab oluna bilər. Ekoloji auditin dövlət tənzimlənməsi sisteminin yaradılması zəruridir. Ekoloji audit ekoloji cəhətdən təhlükəli ərazilərdə və konkret fəaliyyətlər üzrə həyata keçirilməlidir. Bunun üçün qanunvericilik bazası təkmilləşdirilməli və beynəlxalq standartlara uyğunlaşdırılmalı, texnoloji infrastruktur yaxşılaşdırılmalı, kadr hazırlığı gücləndirilməli və təlim proqramları genişləndirilməlidir.

***Müsahibəni apardı:***
***P.ŞÖVKƏTOĞLU***
***XQ***

# Naxçıvan – təmiz enerji məkanı



**Bu ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikasında istehsal olunan ümumi elektrik enerjisinin 35 faizi alternativ və bərpaolunan enerji mənbələrinin payına düşüb.**

Muxtar respublikanın Dövlət Energetika Xidmətinin məlumatına görə, ötən ilin 9 ayı ilə müqayisədə alternativ və bərpaolunan enerji mənbələrində istehsal olunan elektrik enerjisinin payı 20 faizə yaxın artıb. Belə ki, həmin dövrdə “yaşıl” enerjinin istehsal payı 35,1 faiz olduğu halda, cari ilin müvafiq dövründə bu rəqəm 53 faizə yüksəlib.

Bütövlükdə isə, ötən ay muxtar respublikada istehsal olunmuş ümumi elektrik enerjisinin 65 faizi istilik, 20 faizi su, 15 faizi isə günəş elektrik stansiyalarının payına düşüb.

# Azərbaycanda “yaşıl” hüquqi baza formalaşdırılır

**Azərbaycan Mərkəzi Bankı (AMB) kiçik və orta biznes subyektlərinin “yaşıl” layihələrinin maliyyələşdirilməsi məqsədilə müəyyən təlimatların formalaşdırılmasına və müvafiq qanunvericilik bazasına dəyişikliklər edilməsinə başlayıb. Eyni zamanda, bazar inkişaf etdikcə sektordan gələn bildirişlər üzrə növbəti təkmilləşdirmələrin yerinə yetirilməsi nəzərdə tutulub.**

COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bununla bağlı bildirib ki, AMB-nin “yaşıl” maliyyənin inkişafı məqsədilə hazırlayacağı “yaşıl” taksonomiya vasitəsilə ölkədə iqtisadi fəaliyyət “yaşıl” standartlar əsasında təsnifləşdiriləcək, beləliklə də, müəssisələr dayanıqlı və ekoloji təmiz investisiyalara daha çox dəstək alacaq.

M.Babayevin sözlərinə görə, taksonomiya KOB-ların “yaşıl” keçidini maliyyələşdirmək üçün mövcud maliyyə resurslarından daha səmərəli istifadə etməyə şərait yaradır. İnnovasiya sahəsində unikal imkanlara malik olan kiçik və orta biznes sistemi daha çevikdir, yeni texnologiyaların və iş modellərinin tez bir zamanda tətbiqini gerçəkləşdirir. Ona görə də “yaşıl” iqtisadiyyata keçid zamanı bu çeviklikdən istifadə edilərək təmiz enerji mənbələrinə, enerji səmərəliliyi və tullantıların azaldılması texnologiyalarına sərmayənin artırılması zərurəti qarşıya çıxır. Bu, həmçinin iqlim məqsədlərini həyata keçirmək üçün əhəmiyyətli addımdır.

Azərbaycan hökuməti bu addımların atılması ilə iqtisadiyyatın karbon intensivliyini azaldacağına, kiçik və orta biznes strukturlarının rəqabət qabiliyyətinin artırılacağına inanır. Ekspertlərin fikrincə, kiçik və orta biznes strukturlarının dayanıqlı təchizat zəncirlərinə inteqrasiyası üçün böyük şirkətlərin də onlarla əməkdaşlığı zəruridir. “Yaşıl” kiçik və orta biznes resurs mərkəzlərinin yaradılması isə bu özəl bölmə strukturlarının daha dayanıqlı təcrübələrə keçidini asanlaşdırır və onların lazımi bilik, məsləhət və texnologiya ilə təminatını gerçəkləşdirir.

Burada o da vurğulanmalıdır ki, “yaşıl” enerji sahəsində dövlətin atdığı addımlar özəl sektor və investorlar üçün uzunmüddətli baxışı təmin edir və yeni layihələrin inkişafına təkan verir. Amma bu çərçivədə dövlət və özəl sektorda ekoloji layihələrin sayının artırılması zəruriliyi də unudulmamalı, kiçik və orta biznes subyektləri dayanıqlı infrastruktur yaratmağa və “yaşıl” texnologiyalardan istifadə etməyə təşviq edilməlidir. Şübhəsiz ki, belə bir hal həm iqtisadi artımı, həm də ekoloji səmərəliliyi şərtləndirir. Kiçik və orta biznes strukturlarının bu keçiddə qarşılaşdığı maliyyə çətinliklərini aradan qaldırmaq üçün onların güzəştli maliyyə resurslarına çıxışı genişləndirilməlidir.

Yeri gəlmişkən, bu məsələdə Sahibkarlığın İnkişafı Fondunun fəaliyyəti xüsusi diqqət çəkir. Belə ki, fond ətraf mühitinin mühafizəsi, emissiya tullantılarının atmosferə buraxılmasının azaldılması və “yaşıl” texnologiyalara dair layihələrə güzəştli kreditlər ayırmasında səmərəli fəaliyyət göstərir.



Xatırladaq ki, adıçəkilən maliyyə qurumu indiyədək bu istiqamətdə daxil olan müraciətlərə həssaslıqla yanaşıb. Fond indiyədək 5 “yaşıl” layihə üzrə 3,6 milyon manat dəyərində güzəştli kredit verib. İstehsal müəssisəsində günəş panellərinin quraşdırılması, elektrik doldurma stansiyasının yaradılması kimi təşəbbüslərin gerçəkləşdirilməsi mühüm önəm daşıyıb.

Hazırda ölkəmizdə bizneslərin 99 faizdən çox hissəsini kiçik və orta biznes subyektləri təşkil edir. Bu baxımdan, “yaşıl” artımın və “yaşıl” iqtisadiyyata keçidin təmin edilməsi böyük ölçüdə həmin strukturların “yaşıl” transformasiyasından keçir. İstilik effekti yaradan qazların emissiyasında daha çox pay sahibi olan tikinti, daşıma, sənaye, energetika, kənd təsərrüfatı kimi sektorlarda kifayət qədər kiçik və orta biznes subyektləri fəaliyyət göstərir. Onların enerji və xammal baxımından səmərəli texnologiya və təcrübələrin tətbiqinə önəm verməsi rəqabət qabiliyyətini daha da artırır.

Dünya təcrübəsi də göstərir ki, kiçik və orta biznes subyektləri çox vaxt təmiz texnologiyalar və biznes modellərində daha qabaqcıl olur. Onların çevik fəaliyyəti yeni tendensiyalara tez uyğunlaşır və innovasiyaları mənimsəyir, bazardakı dəyişikliklərə və istehlakçı seçimlərinə operativ reaksiya verir və bununla da sürətlə trendə çevrilən “yaşıl” iqtisadi uğurlar əldə edilir.

Dünya üzrə şirkətlərin 90 faizdən çoxu kiçik və orta biznes subyektləridir. Bu biznes strukturları məşğulluğun 70 faizini, ümumi daxili məhsulun 50 faizini təmin edir. Həmin biznes qurumlarının ətraf mühitə fərdi təsiri nisbətən kiçik olsa da, qlobal miqyasda istixana qazı emissiyasının 50 faizi, enerji istifadəsinin isə 30–60 faizi onların payına düşür. Milyonlarla kiçik və orta biznes subyektinin “yaşıl” iqtisadiyyata keçidi iqlim dəyişiklikləri ilə qlobal mübarizəyə öz müsbət töhfəsini verə bilər. Azərbaycanda fəaliyyətdə olan sahibkarların 99,6 faizini həmin subyektlər təşkil edir.

Azərbaycanın kiçik və orta biznes subyektlərinin sosial-iqtisadi inkişafda çəkisi və rolu artmaqdadır. Onların ÜDM-nin artmasında, məşğulluqda, azad olunan ərazilərimizin iqtisadi reinteqrasiyasında mühüm rolu var.

# “İqlim keçidlərində ali təhsilin rolu”




**Bakıda COP29-a həsr olunmuş “İqlim dəyişmələri ilə mübarizə üzrə Fəaliyyət Həftəsi”nin dördüncü günü də müzakirə edilən məsələlər baxımından yaddaqalan olub. Həftə çərçivəsində keçirilən beynəlxalq konfransda müxtəlif mövzularda çıxışlar dinlənilib.**

ADA Universitetində keçirilən “İqlim keçidlərində ali təhsilin rolu” adlı sessiyada “İqlim dəyişikliyi üzrə Azərbaycan universitetləri şəbəkəsi” mövzusunda müzakirələr aparılıb. COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarai giriş nitqi ilə çıxış edərək bildirib ki, iqlim dəyişikliyi sırf texniki məsələ deyil, bilavasitə iqtisadi, sosial ədalət sahəsi ilə bağlantılıdır. O bildirib ki, sabahın işçi qüvvəsinin bu gündən formalaşması çox mühümdür.

Enerji infrastrukturunun, kənd təsərrüfatının artıq yeni kadrlar, bacarıqlar tələb edəcəyini diqqətə çatdıran N. Arpadarainin sözlərinə görə, bu səbəbdən də universitetlər, kolleclər yaxşı mənada bu sahələrdə kadrlar yetişdirməlidir: “Universitetlər yaşayan laboratoriya olmalıdır. Onların bərpaolunan enerji ilə bağlı dedikləri sözdə qalmamalıdır. Biz COP rəhbərliyi olaraq 14 təşəbbüslə çıxış etmişik. Onlardan biri də insan inkişafı ilə bağlıdır. Xüsusilə gələcəkdə uşaqlara və gənclərə növbəti COP-ların təlqin edilməsi çox əhəmiyyətlidir. İqlim dəyişikliyi bütün cəmiyyəti narahat edən məsələ olmalıdır. Universitetlərin bu sahədə rolu çox mühümdür”.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev çıxışında qeyd edib ki, UNİCEF-in 2023-cü il hesabatına əsasən, iqlim fəlakətləri 40 milyon uşağın təhsilinə mənfi təsir göstərir. Paris sazişinin öhdəliklərinin, iqlimlə bağlı vədlərin yerinə yetirilməsinin vacibliyini önə çəkən nazir deyib ki, yaxşı nəticə əldə etmək üçün iqlim maliyyələşdirilməsi gücləndirilməlidir. Nazirin sözlərinə görə, daha yüksək səviyyədə fəaliyyət planı icra edilməli, yekunda şəffaflıq hesabatı təqdim olunmalıdır. Bu məsələdə universitetlərin birgə fəaliyyəti də önəmlidir: “Yaşıl” təhsil sisteminin aşağı siniflərdən tədrisi, öyrədilməsi vacibdir. Hesabata əsasən, iqlim dəyişikliyi ilə bağlı uşaqlar kiçik yaşlarda informasiya ala bilmirlər. Ona görə bu sahədə fəaliyyətin gücləndirilməsi vacibdir”. Bununla yanaşı, nazir bu gün gənclərin iqlim maarifləndirilməsi ilə bağlı fəaliyyətində özlərini doğrultduqlarını vurğulayıb.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edərək ekoloji şüurun və mədəniyyətin təkcə ali təhsillə formalaşmadığını vurğulayaraq bildirib ki, məktəbəqədər təhsil olacaqlarında, orta məktəblərdə, ali məktəblərdə ekoloji mədəniyyəti, ekoloji şüuru, dünyagörüşünü formalaşdırmaq mümkündür. İnsan kapitalının formalaşmasında ali təhsilin mühüm rol oynadığını diqqətə çatdıran nazir müavininin sözlərinə görə, universitetlərdə ekoloji təhsilin trayektoriyasına yenidən baxmaq və onu gücləndirmək lazımdır.

F.Qurbanov Elm və Təhsil Nazirliyinin uşaqların və gənclərin ekoloji şüurunun formalaşması məqsədilə bir sıra tədbirlər keçirdiyini diqqətə çatdırıb: “Bu günlər “yaşıl” həftə adlandırılıb. Bununla bağlı təhsil müəssisələrində bir çox seminarlar, forumlar keçirilir, sənədli filmlər nümayiş etdirilir. Əsas məqsəd uşaqlarda ekoloji tərbiyə formalaşdırmaqdır”.

Tədbirdə “British Council”ın Azərbaycan üzrə direktoru Nərgiz Hacıyeva, Kembric Universitetinin strategiya direktoru Stefan Davidson, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev və digər qonaqlar çıxış edərək universitetlərin iqlim problemləri ilə bağlı fəaliyyətdə şəbəkələşməsi, birgə işin qurulması, iqlim dəyişiklikləri ilə əlaqədar gənclərin və uşaqların maarifləndirilməsinin önə çəkilməsi istiqamətində təkliflər səsləndirilib.

Sessiya iştirakçıları beynəlxalq ali təhsil ocaqlarının bu sahədə təcrübələrini diqqətə çatdırıb, mövcud addımların Azərbaycanda tədbiq edilə biləcəyini vurğulayıblar.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

4 Oktyabr Cəbrayıl şəhəri günüdür

# Şəhər bayramınız mübarək, əziz cəbrayıllılar!




**2020-ci il oktyabrın 4-də Qarabağın güney qapısı sayılan Cəbrayıl erməni işğalından azad olunmuşdur. Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli sərəncamı ilə həmin gün Cəbrayıl şəhəri günü elan edilmişdir.**



1985-1993-cü illərdə “Bakinski raboçi” qəzetinin, mərkəzi Cəbrayıl şəhəri olmaqla, Mil-Muğan zonasının bölgə müxbiri kimi çalışırdım. O dönəmdə bu rayonun doğma yurda, torpağa qəlbən bağlı olan saf, mərd, hünərvər insanlarını yaxından tanımışam, onlarla dostluq, yoldaşlıq etmişəm. Xoşbəxtlikdən bu gün də səmimi əlaqələrimiz davam edir.

1990-cı illərin ortalarında quldur erməni yaraqlıları Cəbrayılın Hadrut rayonu ilə həmsərhəd olan kəndlərində ağır zorakılıqlar törətməyə başlamışdılar. O zaman Cəbrayılın əli silah tutan igidləri könüllü özünümüdafiə dəstələri düzəldərək ata-baba yurdunu düşməndən qorumağa başladılar. Həmin ağır və gərgin dönəmdə Cəbrayıl artıq ilk şəhidlərini vermişdi. Rayon polis şöbəsinin əməliyyatçısı, milis kapitanı Zahid Məmmədovun xətrini hamı çox istəyirdi, qeyrətli, vətənpərvər zabit idi. Erməni yaraqlılarının qəfil basqınına məruz qalan kənd sakinlərinə köməyə tələsən zaman yolda basdırılmış minaya düşərək şəhid olmuşdu.



Tələbə şəhid Fuad Əsədovun məsum olduğu qədər qürurlu siması heç vaxt yadımdan çıxmayacaq. Bu istedadlı gənc Azərbaycan İnşaat və Memarlıq Universitetinin tələbəsi idi. Bakıda dərslərini yarımçıq qoyub doğma Cəbrayıla gəlmişdi, könüllü olaraq ağır döyüşlərdə fəal iştirak edirdi və 1992-ci ilin yazında qəhrəmancasına şəhid oldu.

Elə həmin günlərdə rayonun Qaracalı kəndindən olan 14 yaşlı qorxubilməz yeniyetmə Samir Əliyev düşmənin ağlına belə gətirmədiyi keçilməz dağ yolları ilə səngərdə növbə çəkən döyüşçülərimizə onların doğmalarından ərzaq sovqatları, sevgililərindən məktublar gətirirdi. Samir o vaxt Avropada çox populyar olan qaradərili məşhur futbolçu Tiqanaya zahirən çox bənzədiyi üçün hamı onu elə bu adla da çağırırdı.

Bir ildən sonra 15 yaşlı “Tiqana” Cəbrayıl şəhəri uğrunda gedən ağır döyüşlərdə sinəsindən güllə yarası alaraq həlak oldu. Atası Qədir kişi, anası Əminə xala Samirin ölümünə ömürlərinin sonunadək inana bilmirdilər. Rəhmətliklər sinələrində ağır oğul dərdi gəzdirib Cəbrayılın azad olunduğu günü görmədilər.

Bütün bu qəhrəmanlıq və şücaət nümunələrinə baxmayaraq, 1993-cü il avqustun 23-də erməni silahlı birləşmələri Cəbrayılı işğal etdilər. Rayon əhalisi ölkəmizin demək olar ki, bütün şəhər və kəndlərinə səpələnərək ağır, nisgilli köçkün taleyi yaşamalı oldu. Mən cəbrayıllılarla tez-tez İmişli, Sabirabad və Biləsuvardakı çadır düşərgələrində və başqa yelərdə görüşürdüm. Onların hər biri düşməndən qisas almağa hər an hazır olduqlarını söyləyirdi.

Atalar düz deyiblər: Qisas qiyamətə qalmaz! 2020-ci ilin payızında Azərbaycan Ordusu Qarabağın azadlığı naminə Vətən müharibəsinə başladı. Qarabağda ağır döyüşlər başlananadan 7 gün sonra Cəbrayıl şəhəri azad edildi. Ali Baş Komandan İlham Əliyev həmin gün televiziya ilə xalqa müraciət edərək bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını, eləcə də cəbrayıllıları təntənə ilə təbrik etdi.

Hər birimiz dünyalar qədər sevinirdik. Bu tarixi qələbənin müharibənin sonrakı taleyində olduqca böyük əhəmiyyəti var idi. Belə ki, ilk dəfə olaraq yağı düşmənlə silahlı qarşıdurmanın 1-ci həftəsində rayon mərkəzimiz azad edilmişdi. Bu, Milli Ordumuza əlavə güc və inam verdi.

Həmin 4 ildə Cəbrayıl rayonu Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin diqqət və qayğısı ilə yenidən inşa edilir. Rayonda müasir yollar salınır, yaşayış binaları tikilir, məktəblər ucaldılır, geniş infrastruktur yaradılır.

Xatırladaq ki, cəmi 4 gün əvvəl Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhərinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı yola salınıb. Bu dəfə Cəbrayıl şəhərinə 40 ailə - 123 nəfər köçürülüb. İndiyədək Cəbrayıl şəhərində 117 ailənin, yəni 364 nəfərin daimi məskunlaşması təmin edilib.

Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıq edirlər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə ehtiramlarını bildirirlər, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyirlər.

Bölgə müxbiri kimi, Cəbrayılda məskunlaşdığım illərdə Araz çayının üzərində yerləşən tarixi Xudafərin körpülərini tez-tez ziyarət edərdim. O vaxt eşitmişdim ki, burada hər il erkən yazda Vətənin güneyindən quzeyinə uçub gələn qaranquşlar Arazdan su içir, sonra Qarabağa uçur, oradan da bütün Azərbaycana yayılırlar. Onillər, qərinələr, əsrlər boyu belə olub! Ornitoloqlar qeyd ediblər ki, Qarabağın işğal altında olduğu 27 ildə qaranquşlar bu yerlərə, bir dəfə də olsun gəlməyib. Onlar da sanki ermənilərin viran qoyduğu evləri görmək istəməyib...



Cəbrayıllı dostum bu yaxınlarda fəxrlə dedi ki, artıq 4 ildir qaranquşlar əvvəlki “marşrutlarını” bərpa ediblər. Onlar Cəbrayılda, bütün Qarabağda yeni ucaldılan evlərin eyvanlarında özlərinə isti yuvalar qurur, bu məmləkətin əsl sahiblərini doğma yurdda salamlayırlar.

Bayramınız mübarək, əziz cəbrayıllılar!

***Məsaim ABDULLAYEV***
***XQ***

# MSK-nın növbəti iclası



**Məzahir Pənahovun sədrliyi ilə oktyabrın 3-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

Əvvəlcə Komissiyanın sentyabrın 13-ü, 14-ü, 15-i və 16-sı tarixli iclaslarının protokolları təsdiq edilib.

Sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi məsələsinə baxılıb. Aparılan müzakirələrin ardınca 24 saylı Nizami birinci, 42 saylı Sumqayıt birinci, 82 saylı İmişli-Saatlı və 83 saylı Beyləqan seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

Media subyektləri nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin cari məsələlərə baxılıb.

***XQ***

# Yeseninin Azərbaycan dostları



**Milli Azərbaycan Ədəbiyyatı Muzeyində görkəmli rus şairi Sergey Yeseninin anadan olmasının 129-cu ildönümünə həsr olunan Sergey Yeseninin Azərbaycan dostları mövzusunda ədəbi-musiqili anım mərasimi keçirilib.**

Muzeyin direktoru, akademik Rafael Hüseynov “Həmişə Bakıda və Azərbaycanda” mövzusunda məruzəsində Sergey Yeseninin yalnız rus ədəbiyyatının təmsilçisi olmadığını, onun öz əsərləri ilə dünya ədəbiyyatında da silinməz izlər qoyduğunu bildirib. Şairin yaradıcılığının Bakı dövrü haqqında söz açan alim onun Mərdəkan qəsəbəsində yaşadığını və Bakıya olan sevgisinin silsilə şeirlərində əksini tapdığını vurğulayıb. O, Sergey Yeseninin tanınmış Azərbaycan şairləri, eləcə də görkəmli xanəndə Cabbar Qaryağdıoğlu ilə görüşlərindən də bəhs edib, şairin “Əlvida, Bakı” şeirini öz tərcüməsində səsləndirib.

Mərasimin davamında bildirilib ki, böyük rus şairinin xatirəsini əbədiləşdirmək məqsədilə 1975-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Mərdəkanda, bir zamanlar şairin yaşadığı mənzildə Sergey Yeseninin ev-muzeyi yaradılıb. 2008-ci ildə həmin ev-muzey Azərbaycan-Rusiya Ədəbi Əlaqələri Mərkəzinə çevrilib. Xəzər Universitetinin prorektoru, professor İsaxan İsaxanlının, yazıçı-publisist Reyhan Mirzəzadənin, Pedaqoji Universitetin professoru Leyla Vəzirovanın, Sergey Yesenin adına Azərbaycan-Rusiya Ədəbi Əlaqələr Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Natəvan Mustafayevanın Yesenin və Azərbaycan mövzusunda məruzələri dinlənilib.

Rusiyanın Azərbaycandakı Səfirliyinin birinci katibi Pavel Kuznetsov, Azərbaycan Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin və Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin şöbə müdiri Natalya Nenaşev xalqlarımızın zəngin ədəbi əlaqələr tarixinə nəzər salıblar, rus şairinin irsinə ölkəmizdə olan marağa və xatirəsinə göstərilən ehtirama görə minnətdarlıq ediblər.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Sergey Narışkin Azərbaycanda olub



**Rusiya Xarici Kəşfiyyat Xidmətinin (SVR) direktoru Sergey Narışkin oktyabrın 2-3-də Bakıda səfərdə olub.**

APA xəbər verir ki, bu barədə Rusiya SVR məlumat yayıb. Bildirilib ki, Narışkin Bakıda bir sıra görüşlər keçirib. Söhbətlərdə beynəlxalq vəziyyət, iki ölkənin xüsusi xidmət orqanları arasında qarşılıqlı əməkdaşlığın istiqamətləri müzakirə olunub.

# Ağdərədə kütləvi məzarlığa baxış



**“İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi” mövzusundakı beynəlxalq konfransın iştirakçıları Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri ilə birgə Ağdərə rayonunun Sırxavənd kəndində aşkarlanmış kütləvi məzarlığa baxış keçiriblər.**

Məzarlıqda Birinci Qarabağ müharibəsində itkin düşmüş 15-ə yaxın şəxsə aid meyit qalıqları aşkar edilib. Qonaqlara məlumat verilib ki, bir ay ərzində burada 6 nöqtədə qazıntı işləri aparılıb və insan sümüklərinin qalıqları aşkarlanıb. Ərazidə digər insan qalıqlarının olması da ehtimal edilir.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupunun üzvü Zaur İsmayılov jurnalistlərə açıqlamasında deyib: “Şahidlərin ifadələrinə əsasən, burada içərisində beş hərbçi və bir tibb bacısının olduğu hərbi yük avtomobili vurulub. Həmin yerdə bu qalıqlar aşkarlanıb. Ehtimal olunur ki, qalıqlar həmin adamlara məxsusdur. Burada hərbi avtomobilin qalıqları da aşkarlanıb. Bu ərazidə, ümumilikdə, 4 kütləvi və 2 fərdi məzarlıq aşkar edilib”.

Qonaqlar ərazidən tapılan minaların zərərsizləşdirilməsi prosesini də izləyiblər.

***XQ***

X Bakı Beynəlxalq Kitab Sərgisi davam edir

# Füzulinin söz süfrəsində kitab bayramı

**Xəbər verildiyi kimi, oktyabrın 2-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin (1494–1556) anadan olmasının 530 illiyinə həsr edilən X Bakı Beynəlxalq Kitab Sərgisi açılıb. Dünyanın 4 qitəsini təmsil edən 18 ölkədən 56 xarici təşkilat, 110 yerli nəşriyyat-poliqrafiya müəssisəsi öz təmsilçilərini Azərbaycan paytaxtına göndərib.**

Milli mədəniyyət tarixində yeni bir dövr açmış, ədəbiyyatı yüksək bəşəri ideallarla, dərin insani duyğularla zənginləşdirmiş Məhəmməd Füzuli türk, fars və ərəb dillərində bənzərsiz əsərlər yaradıb və hələ sağlığında dünyada böyük şöhrət qazanıb. O həm də geniş erudisiyalı oxucu, nəyi oxuyub öyrənməyi anladan mahir kitab təbliğatçısı olub. Qitələrindən birində yazıb:



**Mən elə bir süfrə açdım**
**sözdən əhli aləmə,**
**Onda bir zövq artıran**
**hər dürlü nemət düzmüşəm...**
**Kim gəlir-gəlsin,**
**aparsın hər nə istər xatiri,**
**Qurtaran nemət deyil,**
**süfrəmdən olmaz heç nə kəm...**

Kitabı və mütaliəni yüksək qiymətləndirən Füzuli sanki bu misraları elə 10-cu Bakı Beynəlxalq Kitab Sərgisi üçün qələmə alıb və deyib ki, "Hər nə qədər artıq kitab oxusan, o qədər də artıq heyrətdə qalacaqsan".

Göründüyü kimi, yubileyi qeyd olunan ölməz söz sərkərdəsi kitabı nadanlığa qarşı əsas silah sayıb. Biz də onun ehtiramla yad edildiyi və özünəməxsus kitab bayramı sayılan sərginin ab-havasının ulu şairin ruhunu şad edəcəyinə inanaraq, bir-birindən maraqlı tədbirləri müşahidə elədik.

Bəri başdan vurğulayaq ki, sərgidə elmi ədəbiyyatın təbliği, təhsil müəssisələrinin, eyni zamanda, akademik təsisatların, nəşriyyatların burada iştirak etməsi sevindirici haldır. Mədəniyyət naziri Adil Kərimli də jurnalistlərlə söhbətində bu barədə danışaraq dedi: "Ümumiyyətlə, son 2 ildə elmi ədəbiyyatın inkişafına və təşviqinə böyük üstünlük verilib. 2023-cü ildən başlayaraq kitab alınması istiqamətində daha çox üstünlük elmi və elmi-kütləvi kitablara verilir. Bu istiqamətdə elmi təsisatların nəşriyyatlarının iştirakı heç də təsadüfi deyil".

Qazax yazıçısı və ictimai xadim Kemel Tokayevin Azərbaycan dilinə tərcümə edilərək, Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən nəşr olunmuş "Xüsusi tapşırıq" kitabının təqdimatında beynəlxalq təşkilatın prezidenti Aktotı Raimkulova müharibə əleyhinə qələmə alınan əsərin "Türk ədəbiyyatının inciləri" seriyasından olduğunu bildirdi: "Qazax ədəbiyyatının detektiv janrının banilərindən olan Kemel Tokayev türk mədəniyyətinin və söz sənətinin inkişafına böyük töhfələr verib. Bu nəşr görkəmli yazıçının zəngin yaradıcılığının öyrənilməsinə və ədəbi irsinin təbliğinə Fondun verdiyi qiymətli yadigardır. Ümid edirik ki, gələcək nəsillər üçün vacib bir qaynaq olacaq".

Qazaxıstan Prezidentinin müşaviri Malik Otarbayev qeyd etdi ki, bu gün Türk dünyasının məşhur yazıçısı Kemel Tokayevin həm də doğum günüdür: "Bu baxımdan Bakı sakinləri üçün açılan sərgidə onun əsərin təqdimatı böyük əhəmiyyət kəsb edir. Müəllifin yazdığı hər bir əsər türk mədəniyyətinin inkişafına töhfə verən və gələcək nəsillərə ötürülən bir mirasdır".

Xalq yazıçıları Anar və Çingiz Abdullayev, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Azərbaycan Atatürk Mərkəzinin direktoru Nizami Cəfərov, Milli Məclisin Komitə sədri Fazil Mustafa da kitab haqqında fikirlərini bölüşdülər.

Sərgidə Azərbaycanlı müəlliflərin də əsərləri təqdim olundu, İmza günləri, poeziya saatları keçirildi, tənqidçilərin maraqlı ədəbi mülahizələri dinlənildi. Kitab sərgisinin ilk günündə tanınmış yazıçı-publisist, esseist, Əməkdar jurnalist Zemfira Məhərrəmlinin də oxucularla görüşü və yeni çapdan çıxmış "Çox kiçikdir bu dünya..." kitabının İmza günü də bu qəbildən idi. "XQ"-yə müsahibəsində o dedi:

– Azərbaycan Yazıçılar Birliyinin stendində təşkil olunan İmza günüm mənə unudulmaz təsir bağışladı. Oxucuların suallarını cavablandırdım, kitabda toplanmış povestləri və həyat hekayələri barədə söz açdım, çatdırmaq istədiyim mətləbləri açıqladım. Azyaşlı oxucular, məktəblilərlə görüşüm də maraqlı oldu. Zəfər savaşımızın qəhrəmanları barədə sənədli yazılarının, həmçinin uşaq hekayələrinin yer aldığı, türk, ingilis və rus dillərində nəşr edilmiş kitablarımı imzalayaraq məktəb kitabxanalarına hədiyyə etdim.



Sərgi çərçivəsində dünyanın 46 dilinə tərcümə edilmiş 25 kitab müəllifi olan irlandiyalı yazıçı Con Boynla da maraqlı görüş oldu. O, yerli oxuculara əsərləri haqqında məlumat verdi və sualları cavablandırdı. Balacalar üçün yazdığı ona əsl uğur gətirmiş "Zolaqlı pijamalı oğlan" romanı ilə Azərbaycanda daha çox tanınan ünlü yazarın sonda İmza saatı keçirildi. Dünən isə Con Boyn AZƏRTAC-ın sərgidəki stendini ziyarət etdi. O, Azərbaycana ilk dəfə səfər etdiyini və bu kitab sərgisinin onda böyük maraq doğurduğunu dedi. Sərgidə çox sayda insanların, gənc oxucuların olmasını, xüsusilə müəllimlərin şagirdlərini buraya gətirməsini və onların mütaliəyə maraq göstərməsini xüsusi qeyd etdi.

Bakı Beynəlxalq Kitab Sərgisinin fəxri qonaqlarından olan Azərbaycanəsilli İran yazıçısı Fəriba Vəfinin "Ədəbiyyatda qadın səsi" adlı mühazirəsi də diqqət çəkdi. Dinləyicilər öyrəndilər ki, Fəriba Vəfi 13 əsərin müəllifi, sakini olduğu Almaniyanın nüfuzlu "LiBeraturpries" mükafatının qalibidir. O, müəllifi olduğu və ingilis, italyan, ispan, alman və türk dillərinə çevrilmiş "Zirzəmi quşu" romanının ərsəyə gəlməsindən söz açaraq bildirdi ki, əsərdə həyatın ağır şərtlərinə dözən, ailə qurduqdan sonra bütün gücünü övladlarının tərbiyəsinə həsr edən qadından bəhs olunur. Oxucuların bütün suallarını ətraflı cavablandıran yazar soydaşımızın imza sessiyası da keçirildi.

– Əsərlərimdə qələmə aldığım xarakterlər qadınlara aiddir, – deyə o, sonda bildirdi. – Ona görə ki, mən onları çox yaxşı tanıyıram. Qadının səsi güclənməlidir, ucalmalıdır. Biz qadın dünyasından çox az şey bilirik. Ona görə də sadəcə yazaraq onları dünyaya tanıda bilərik.

Dünən Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası X Bakı Beynəlxalq Kitab Sərgisində elm, incəsənət, tarix və digər sahələri əhatə edən 300-dən artıq kitabla təmsil olundu. Stendlə tanışlıq zamanı kitabxananın direktoru Aslan Cəfərov kitabxananın gördüyü işlər, hazırladıqları materiallar, sərgilənən kitablar barədə məlumat verdi. Sərgidə "Nəşrlərin satınalması müsabiqəsi" nəticəsində əldə olunan və son illər çap edilən kitablar, ali məktəb, peşə təhsili dərslikləri üstünlük təşkil edirdi.

Bəli, "Artıran söz qədrini sidq ilə qədrin artırar", – deyən dahi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunan beynəlxalq Bakı sərgisi sözün, kitabın qədrini bilənlər üçün gözəl fürsət kimi dəyərləndirilə bilər.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Şərq filmlərinin Bakı təqdimatı




**Dünən Heydər Əliyev Mərkəzində Şərq ölkələrinin filmlərinin dünyaya tanıdılması üçün vacib platforma rolunu oynayacaq "Omarket"in (Şərq ölkələrinin kino marketi) açılış mərasimi keçirilib.**

Bu açılış Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə ölkəmizdə ilk dəfə keçirilən "Baku Cinema Breeze" adlı böyük film festivalı çərçivəsində reallaşıb. Audiovizual sənayenin inkişafına istiqamətlənən tədbir "Yaradıcı Azərbaycan" layihəsinin tərkib hissəsidir. "Baku Cinema Breeze" indiyə qədər ayrı-ayrılıqda təşkil olunan bir sıra tanınmış festivalları bir araya gətirərək dünya kinematoqrafiyasının şedevrlərini nümayiş etdirmək üçün vahid şəbəkə rolunu oynayacaq.

Qonaqlar əvvəlcə yaradıcı sənaye nümayəndələrinin fəaliyyətinin tanıdılması məqsədilə təşkil edilən sərgi ilə tanış olublar. Sonra tədbirdə mədəniyyət nazirinin müavini Səadət Yusifova çıxış edərək bildirib ki, ilk dəfə keçirilən "Baku Cinema Breeze" ölkəmizdə fəaliyyət göstərən bütün kino ekosistemini bir çətir altında toplayır. "Omarket"in təşkil edilməsi ölkəmizdə kino sənayesinin inkişafı üçün böyük potensialın olduğunu və dövlətimizin bu prosesə dəstək verdiyini göstərir.

Bildirilib ki, ümumilikdə "Baku Cinema Breeze" platforması 15-dən çox ölkənin nümayəndələrinin, 100-dən çox qonağın iştirak edəcəyi, müxtəlif ölkələrdən 300-ə yaxın filmin nümayiş ediləcəyi tədbirləri özündə birləşdirəcək. Platforma çərçivəsində keçirilən festivallar təkcə kino sənətinin inkişafına təkan vermir, həm də gənc və istedadlı rejissorlarımıza özlərini ifadə etmək, dünyaya çıxış əldə etmək imkanı yaradır. Beləliklə, Azərbaycan kinosu yalnız öz daxili auditoriyası üçün deyil, həm də beynəlxalq kino bazarı üçün əhəmiyyətli oyunçuya çevrilir. "Omarket" Şərq ölkələrinin filmlərinin dünyaya tanıdılması üçün vacib bir platformadır.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, film sənayesinin səmərəli şəkildə idarə edilməsi maliyyə, yaradıcı proseslər və insan resurslarının optimal şəkildə təşkil olunmasına bağlıdır. Bu əlaqələndirmə prosesi həm studiyalara, həm müstəqil prodüserlərə, həm də investorların öz maraqlarını qorumağa yönəlik mexanizmlərdən biridir.

Sonra "Omarket - sənaye lokomotivi, festivallar, yayım platforması, birgə istehsal" mövzusunda birinci panel iclası keçirilib. ABŞ televiziya sənədləri və elmləri akademiyasının üzvü Kamran Qasımovun moderatorluğu ilə panel müzakirələr təşkil olunub.

*XQ*

Replika

# Köynəklərin göynəkli mənzərəsi




**Modabazlıq hərfi mənasında dəbə uyma, moda düşkünlüyü mənalarını ehtiva edir.**

Amma bəzən dəbə aludəlik ifrat həddə çatır. Əyin-başları ilə fərqlənmək istəyənlər bilərəkdən, ya bilməyərəkdən özlərini gülünc hala salırlar. Lovğa-lovğa küçələrdə gəzir və ikrah doğurduqlarını bilmirlər. Şair də belələrinə baxıb təəccüblənir:

**Hardan çıxıb ədəbazlar,**
**Yekəxana modabazlar?**

Telekanallardan, internetdən gördüklərini kor-koranə götürüb əyinlərində sərgiləyən üzdəniraq soydaşlarımız məkan, mentalitet fərqinə varmır, pis nümunə olduqlarını anlamır, ya da anlamaq istəmirlər. Sinəsi, kürəyi, dizdən bir qarış yuxarısı açıq qızlar, alt paltarı tipli "şortik" (diz boyunda və daha qısa şalvar) və "mayka" (qolsuz və yaxalıqsız yay köynəyi) geyinmiş saqqallı oğlanlar Bakıda, Sumqayıtda, necə deyərlər, "itə tök" qədərdir. Abır-həya itib gedir. Bəzən düşünürsən ki, bircə qış tez gəlsəydi, bəlkə, bu biabırçılığa bir neçə aylıq da olsa, son qoyulardı.

Təqdim etdiyimiz şəkilləri bu günlərdə paytaxtın küçələrində "paparatsi" sayağı çəkmişik. Ehtiyar eləmişik ki, dönüb adamla dalaşarlar. Qızın belindəki yazını az-çox bildiyimiz ingiliscədən belə tərcümə etdik: "Fərqli olmana ehtiyacım var (?!)". Digər şəkildəki oğlansa lap "gül" vurub, – desək, doğru ironiya olar. Onun maykasının arxasında, görün, nə yazılıb: "Paranoid və toplum. Qurulu dünya çıldırdı" (?!).

Əvvəla, o qız, sanki, sevgilisinə aşkarca intim mesaj (ismarıc, iltimas) ünvanlayıb ki, bu da qəti olaraq yolverilməzdir. Oğlanın maykasındakı yazıya gəlincə isə, xatırladaq ki, "paranoid" yunanca psixi sağlamlıq probleminin mənşəyi "paranoya" sözündəndir və irrasional düşüncələrlə müşayiət olunan güclü inamsızlıq, narahatlıq, ətraf mühitdən qorxma ilə xarakterizə olunan bir vəziyyət anlamındadır. Qısası, "ağlını itirmək" deməkdir. Təəssüf ki, həmin oğlanın cəmiyyətə hansı ismarıcı verdiyini anlamaq çətindir. Bunun bayağılıq, əqidəsizlik və mənasızlıqdan özgə adı varmı?



Bir vaxt bəzi gənclər sinəsinə Çe Gevaranın məşhur şəkli həkk olunmuş köynəklər geyinib gəzirdilər. Daha bilmirdilər ki, Komandante Çe öz dövrünün bin Ladeni olub, yüzlərlə günahsız insanı, uşaq-qoca demədən, boynunun dalından güllələyib. Qısası, aşkar terrorçu olub...

Bəlkə, ətrafımıza nəzər salaq və ailə üzvlərimizin, qohum-qonşumuzun, tanış-bilişimizin anlar-anlamaz əyinlərinə keçirdikləri "tapmaca" yazılı əlbisələrə görə onlara irad tutmaq cəsarətində bulunaq? Kömək edərmi?

*Ə.ƏLİYEV*
*XQ*

Sona Aslanova – 100

# "Səsi ürəkləri fəth edən xanım"

**Gözəl səsli opera müğənnisi Əməkdar artist Sona Aslanova dahi Üzeyir Hacıbəylinin qayğısı ilə sənətə gəlmiş incəsənət nümayəndələrindən olub. Atası Şahnəzər kişi 1934-cü ildə bolşeviklər həbs edəndən sonra taleyin acılarını dadan istedadlı qızı digər oxşar taleli tələbələri kimi öz qanadının altına alan Üzeyir bəy onu "səsi ürəkləri fəth edən xanım" adlandırıb.**



Hələ uşaqlıq illərindən səsi ilə diqqət çəkən Sona xanım konservatoriyanı bitirəndən sonra Opera və Balet Teatrında çalışmaqla yanaşı, həm də yenicə məzunu olduğu sənət ocağında dərs deməyə başlayıb. Opera səhnəsində "Arşın mal alan"da Gülçöhrə, "Əsli və Kərəm"də Əsli, "Koroğlu"da Nigar obrazlarını yaradıb. 200-dən çox mahnı ifa edib. Müğənninin Qızıl Fondda 50-dək səs yazısı qorunur. "Görüş", "Anlamaq istəyirəm", "Bizim Cəbiş müəllim", "Bizim küçə", "O qızı tapın", "Ömrün səhifələri", "Telefonçu qız" filmlərinə çəkilib. Bir çox filmlərdə, o cümlədən də "Əhməd haradadır?"da Ceyran obrazının partiyalarını ifa edib.

Sona Aslanova 1956-cı ildə Əməkdar artist fəxri adına layiq görülüb, daha 3 il sonra isə "Şərəf nişanı" ordeni ilə təltif olunub.



1954-cü ildə rejissorlar Hüseyn Seyidzadə və Yan Fridin quruluş verdiyi, ssenarisini Həsən Seyidbəylinin yazdığı ilk rəngli sənədli-bədii film, həm də ilk film-konsert olan "Doğma xalqımıza" ekran əsərinin "Koroğlu" bölümündə Nigarı məharətlə canlandırıb. Səhnə plastikası, aktyorluq qabiliyyəti və geniş səs diapazonuna malik bənzərsiz ifaçı olduğunu bir daha sübut edib.

Aktrisaya ən böyük uğuru 1955-ci ildə ekranlaşdırılan "Görüş" filmində pambıqçı Firəngiz rolu qazandırıb. Manqa başçısı Bilqeyisin tənbəl kənd avarası, ərköyün qardaşı Kamilə aşiq olan və məhəbbətini gizləməyən, amma ondan qarşılıq görməyən Firəngizin həyəcanları film ekranlara çıxan gündən tamaşaçıların böyük rəğbətini qazanıb.

Sona Aslanova II Dünya Müharibəsinin iştirakçısı olmuş, vaxtilə Layihə institutunun direktoru işləmiş Kamal adlı şəxslə ailə qurub. Onun sənətinin pərəstişkarı olan bu şəxs maşınında daim sevdiyi qadının ifalarına qulaq asırmış. Bu evlilikdən onların Cahangir və Rüfət adlı oğulları dünyaya gəlib…

1992-ci ildə Sona xanımın oğlanlarından biri ABŞ-a köçür. Övladlarına hədsiz bağlı olan 70 yaşlı müğənni də oğlunun ardınca digər ailə üzvləri ilə birlikdə Amerikanın Los-Anceles şəhərinə köçür. Onun Azərbaycanla bütün əlaqələri elə o vaxtdan kəsilir. Ahıl çağında Sona Aslanova həyat yoldaşı ilə birlikdə yaşlı insanlar üçün yaradılmış sosial binada yaşamağa başlayır.

Qürbət havası könlünü heç cür açmayan sənətkarın ən böyük arzusu Bakıya qayıtmaq olsa da, bu, baş tutmur. Müğənni ömrünün sonuna yaxın iflic keçirərək, yataq xəstəsinə çevrilir. Ondan Azərbaycan haqqında soruşanda "Bakı üçün burnumun ucu göynəyir" deyib ağlayırmış.

Sona Aslanova 9 mart 2011-ci ildə 87 yaşında ABŞ-da dünyasını dəyişib. Ailəsinin onu aparıb Vətəndə torpağa tapşırmaq imkanı olmadığına, Amerikada isə dəfn üçün yer almağın 15–20 min dollara başa gəldiyinə görə Sona Aslanova vəsiyyət edir ki, onun nəşini yandırıb, külünü Sakit okeana səpsinlər. Elə də edirlər.

Bu da Vətəndən uzaq düşən istedadlı sənətkarın son aqibəti…

*Ə.DOSTƏLİ*
*XQ*

# Suqovuşan Zəfər yolumuza su səpdi



**Ağdərə rayonunun Suqovuşan qəsəbəsinin və Talış kəndinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsindən 4 il ötür. Vətən müharibəsinin ilk həftəsinin tamamında bu 2 məntəqədə Azərbaycanın üçrəngli şanlı bayrağı qaldırılıb.**

İkinci Qarabağ savaşının ən ağır döyüşlərindən biri Talış və Suqovuşan istiqamətində olmuşdu. Düşmən ən müasir qüvvələrini bu ərazidə cəmləşdirərək ordumuzun irəliləməsinin qarşısını almağa calışmışdı. Burada çox güclü istehkamlar qurulmuş, bir neçə müdafiə xətti təşkil edilmişdi. Düşmən bütün strateji yüksəkliklərdə, qəsəbəyə gedən yollarda möhkəmlənmişdi. Onlar illərdi qurduqları müdafiə səddini ordumuzun yara biləcəyinə əmin deyildilər. Üstəlik, əsgərlərimizin hücum etdiyi ərazi minalanmışdı. İşğalçı



ölkənin quldur dəstələri döyüşə atılanların Vətən sevdalı Azərbaycan əsgərləri, onlara rəhbərlik edən peşəkar zabitlər olduğunu unutmuşdular.

Ölüm-dirim savaşında əvvəlcə Suqovuşanın ətrafındakı yüksəkliklər, postlar düşməndən təmizlənərək ordumuzun nəzarətinə keçdi. Ermənistan silahlı qüvvələrinin bölmələri bir neçə əks-hücumla hərbiçilərimizi tutduqları mövqelərdən çıxarmağa çalışsalar da, uğursuzluğa düçar oldular. Ordumuzun uğurlu əməliyyatı nəticəsində düşmənin 6-cı dağatıcı alayı darmadağın edildi, müqavimət qırıldı. Hərbçilərimiz qəsəbəyə girəndə ermənilər artıq qaçmışdılar. Hər şey olduğu kimi qalmışdı. Düşmən hərbi texnikalarını, silah-sursat anbarlarını, bazaları dolu şəkildə qoyub 530, 851, 951 və digər yüksəkliklərə çəkilməyə məcbur olmuşdular.

Bayrağımızın qəsəbədə dalğalanması isə ordu və xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Bu şərəfli tarixçəni Suqovuşanda bayrağımızı qaldıran qazi İlkin Fərzəliyev belə xatırlayır: – Oktyabrın 2-də Suqovuşan yaxınlığındakı yüksəklikdə dayanmışdıq. Səhərə yaxın, saat 6-ya 5 dəqiqə qalmışdı. Əmr gəldi ki, qəsəbəyə girməliyik, bayrağımız bu yaşayış məntəqəsində qaldırılmalıdır. Mən və 3 döyüşçü yoldaşım düşmən bayrağı asılmış meydana daxil olduq. 4 kəşfiyyatçı isə əlverişli mövqedə yerləşərək bizi düşmən atəşindən qoruyurdu. Bayraq asılan yerdən, 1500–1800 metr arxada ermənilər təpənin üstündə dayanmışdılar. Yəni orada ermənilərin olduğunu bilirdik.

Düşmənin bayrağını endirdim, yerə düşən bayrağı ayağımla əski parçası kimi bir kənara atdım və öz bayrağımızı asdım. Yuxarı qaldırdığım bayrağın dalğalanmasını ürəyimin sevinc və qürurla döyünməsi müşayiət edirdi. Çox xoşbəxt idim, çünki bu torpaqlar illər idi ki, xilaskarlarının yolunu gözləyirdi. O torpaqlara ayaq basdığımız an, sanki, torpaq da canlanıb dizlərimizə qüvvət verirdi. Neçə illərdir biz həsrətlə bu yerlərə baxdığımız kimi, ondan da artıq bu torpaqlar bizi gözləyirmiş. Hamımız ən böyük arzumuza çatmışıq.

Zəfər qazisi xatirəsinin davamında bildirdi:

– Günlərlə ac-susuz yol gedir, yaralı yoldaşlarımıza kömək edirdik, eyni zamanda, döyüşürdük. Üçrəngli bayrağımızın Suqovuşanda dalğalanması hər birimizdə qələbəyə inamı birə-beş artırdı. Bütün torpaqlarımızın işğaldan azad ediləcəyinə inamımız gücləndi. Suqovuşan böyük zəfərimizə qapı açdı. Bu, Ordumuzun gücü, əsgər və zabitlərimizin qəhrəmanlığının nəticəsi idi.

Qeyd edim ki, bu qələbədə böyük rolu olanlardan biri də komandirimiz Əfqan Abdurahmanov olub. Onun peşəkarlığı sayəsində az itki ilə Suqovşanı düşməndən təmizlədik. Vətən Müharibəsi Qərəmanı Əfqan Abdurahmanov qəsəbənin yaxınlığında yerləşən 951 yüksəkliyi uğrunda döyüşdə şəhid oldu.



Bəli, Suqovuşanın azad edilməsi Azərbaycan Ordusuna bir çox üstünlüklər verdi. Çünki o çox böyük strateji əhəmiyyəti ilə Azərbaycan Ordusuna ətrafdakı əraziləri nəzarətdə saxlamaq imkanı verdi. Suqovuşan qəsəbəsinin və Talış kəndinin xilas olunmasının digər əhəmiyyətli tərəfi ondan ibarət idi ki, ilk azad edilmiş kəndlərdən sonra, – birinci kəndlər sentyabrın 27-də müharibənin ilk günündə alınmışdı– oktyabrın 3-nə qədər iri yaşayış məntəqəsi tutulmamışdı. Buna lazımi hazırlıq gedirdi, manevrlər aparılırdı, şiddətli döyüşlər davam edirdi.

Ancaq müharibənin ilk günündə əldə edilmiş irəliləyişdən sonra növbəti yaşayış məntəqələrinin azad edilməsi ordumuza mənəvi güc verdi. Müharibənin 7-ci günündə 8 kəndin azad edilməsi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşmiş bu kəndlərin azad edilməsi bizə strateji üstünlük qazandırdı. Bu barədə Prezident, Ali Baş Komandan İlham Əliyev demişdir: “Beləliklə, Suqovuşanın azad edilməsi ilə işğal altında olan Ağdərə və Ağdam şəhərlərini birləşdirən əsas təminat yolu ordumuzun nəzarətinə keçdi. Bununla Ermənistan silahlı qüvvələrinin əsas müdafiə səddi olan Ağdərə–Ağdam xəttini mühasirəyə almaq imkanı yarandı. Eyni zamanda, Suqovuşan Ağdərə və Sərsəng Su Anbarı istiqamətində mühüm əhəmiyyətli yolların nəzarətdə saxlanmasına da imkan verdi. Ağdərə–Kəlbəcər yolu artıq nəzarətdə idi”.

Suqovuşanın azad edilməsinin hərbi-strateji əhəmiyyəti ilə bərabər, eyni zamanda, mühüm iqtisadi önəmi də vardı. Sərsəng və Suqovuşan Su Anbarları enerji təyinatlı anbarlardır. Onların suyundan Aran Qarabağın rayonlarını əhatə edən 100 min hektar məhsuldar torpağın suvarılması həyata keçiriləcək.

Düşməndən təmizlənən digər yaşayış məntəqələrimiz kimi, Suqovuşanın da azad, işıqlı günləri başlandı. Hazırda tarixi torpağımızın dirçəldilməsi prosesi sürətlə davam etdirilir, quruculuq, təmir-bərpa layihələri yüksək səviyyədə həyata keçirilir. Tərtərdən Suqovuşana 28,5 kİlometr yol çəkilib. Ardınca uzunluğu 22 kilometr olan yeni layihə ilə Suqovuşan Naftalanla əlaqələndirilib və alternativ yol istifadəyə verilib. Düşmənin yararsız vəziyyətə gətirdiyi enerji infrastrukturu da yenidən qurulub. “Suqovuşan-1” və “Suqovuşan-2” Su Elektrik stansiyaları bərpa olunub. Bu stansiyalar regionun enerji təminatında rol oynayır.

Ümumi sahəsi 2 hektardan çox olan məhəllədə 25-i birotaqlı, 80-i ikiotaqlı, 75-i üçotaqlı, 10-u isə dördotaqlı olmaqla ümumilikdə 190 mənzil inşa edilir. Yeni inşa edilən yaşayış komplekslərinin bu il ərzində Suqovuşan sakinlərin istifadəsinə veriləcəyi gözlənilir. Məhəllədə, həmçinin futbol, idman və uşaq meydançaları, transformator yarımstansiyası və digər zəruri infrastruktur obyektlərinin tikintisi nəzərdə tutulur. Burada, həmçinin geniş yaşıllıq zolaqları da salınır. Məktəb, tibb müəssisəsi və digər sosial xidmət obyektlərinin tikintisi davam edir.

Qəsəbədə müasir infrastrukturun qurulması həm də əsrarəngiz gözəlliyə malik ərazini turizm məkanına çevirəcək. Gələcəkdə bu yerlərdə rahat və təhlükəsiz həyatı təmin edəcək. Qısa müddətdə görülmüş işlər isə Azərbaycanın gücündən xəbər verir. Bəli, tezliklə insanlar öz doğma yurdlarına dönəcək, bu yerlərdə həyat yenidən öz axarına qayıdacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**2020-ci il 27 sentyabr sabahının alatoranlığında işğalçı düşmən Qarabağın başı üstündəki qara pərdə kimi ordumuzun yeri-göyü titrədən top səslərindən, ərlərin- ərənlərin “qisas!” hayqırıtsından pərən-pərən düşdü. O sabah illər boyu cəzasızlıqdan daha da azğınlaşmış yağı üstünə yağdırılan mərmilərlərlə, güllələrlə şanlı tariximizin yeni və ən möhtəşəm zəfər salnaməsinin ilk səhifələri yazılmağa başladı.**

# Xocalının topçu qardaşları

## *Şəhriyar və Cavadın döyüş yolu intiqam örnəyidir*

Milli mənsubluğundan, dilindən, dinindən asılı olmayaraq müdrik bir xalqın milyonlarla övladı onlara Vətənin azadlığını bəxş edəcək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında bir daha “Dəmir yumruq” kimi birləşdi.

Məhz həmin “Dəmir yumruq” cəmi 44 günə düşmənin başına elə zərbələr endirdi ki, qaça bilməyənləri gorbagor oldu, qaçıb canlarını qurtaranları sağ qaldıqlarına sevindi, 30 ilə yaxın mənfur yağı tapdağı altında inləyən ata-baba yurdlarımız əbədi azadlığına qovuşdu. Rəşadətli ordumuz rəhbərliyin döyüş əməliyyatları ilə bağlı bütün tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirərək işğalçı Ermənistanı tam kapitulyasiyaya məruz qoydu və beləliklə də, ölkəmizin ərazi bütövlüyü təmin edildi!



Torpaqlarımızın azadlığı uğrunda gedən qanlı döyüşlərin iştirakçısı olmağı, dar gündə Vətənin hayına yetməyi özünə şərəf bilən igidlərin sırasında Xocalı rayonundan olan Şəhriyar və Cavad Quliyev qardaşları da var. 44 günlük zəfər dastanımızın dördüncü ildönümündə onlarla görüşüb keçdikləri döyüş yolu və müharibə xatirələrindən danışdıq. Öyrəndik ki, hər iki qardaş həqiqi hərbi xidmət zamanı topçu olublar.

Şəhriyar Hərbi Dəniz Qüvvələrinin artilleriya döyüş hissəsində üfüqi tuşlayıcı, Cavad isə Quru Qoşunlarının Fuzuli rayonunda yerləşən “N” saylı hərbi hissəsinin artilleriya briqadasında kəşfiyyat-manqa komandiri, baş tuşlayıcı kimi xidmət edib. Xidmətlərini bitirdikdən sonra evlərinə qayıdan qardaşlar qısa müddət sonra yenidən hərbi hissələrə üz tutublar. 2020-ci ilin əvvəllərində birlikdə topçu kurslarını bitirən Şəhriyar və Cavad həmin ilin may ayından bir-birindən ayrı düşərək Müddətdən Artıq Xidmət Edən (MAXE – M.R.) hərbi qulluqçu kimi Goranboy rayonunun ərazisində yenidən xidmətlərini davam etdiriblər.

Elə döyüş yolları da buradan başlayıb. Daha sonra Ağdərə rayonunun Kəhrilər xarabalığı, Talış və Suqovuşan yaşayış məntəqələrinin azad olunması uğrunda gedən döyüşlərdə düşmənin artilleriya qurğuları, zirehli texnika və canlı qüvvəsinin məhv edilməsi üzrə tapşırıqları layiqincə yerinə yetiriblər. “Həmin günlərdən ən çox yadınızda nə qalıb” sualına cavab olaraq Şəhriyar bildirdi ki, eyni hərbi diviziyanın fərqli artilleriya batareyalarında döyüşdükləri üçün iki qardaş 44 gündə cəmi bir dəfə, tam təsadüf nəticəsində görüşə biliblər:

–Nə müharibə xofu, nə yaxınlığımızda partlayan mərmilər məni narahat etmirdi. Hər an qürurla düşünürdüm ki, torpaqlarımızı sürətlə düşməndən təmizləyir, addım-addım doğma Xocalımıza doğru yaxınlaşırıq. Ancaq Cavaddan xəbər ala bilmirdim. O, mənimlə müqayisədə daha ön cəbhədəydi. Üstəlik, kimdənsə eşitmişdim ki, Cavadgilin topu vurulub. Həmin vaxt keçirdiyim hissləri indi sözlə ifadə edə bilmirəm. Az qalırdı ürəyim partlasın. Bildiyiniz kimi, oktyabr ayında iki dəfə humanitar atəşkəs elan olundu. Düzdür, hər ikisində də ermənilər atəşkəsi pozdular və müharibə əvvəlki şiddətilə davam etdi. Ancaq döyüşlərin səngidiyi qısa fasilədə qardaşımı gördüm. Heç ağlıma da gəlməzdi. Təminat daşıyan maşında yerləşdiyimiz mövqeyə gəlmişdi. Qaçaraq bir-birimizə sarıldıq!..

Düşmənlə üzbəüz mövqedə şiddətli döyüşlərdə iştirak etmiş, yaxınlığında partlamış mərminin təsirindən xeyli müddət eşitmə qabiliyyətini itirmiş Cavad üçün isə unutmadığı məqamlardan biri arxa cəbhədən göndərilən əsgər payıdır:

–Savaşın ilk günlərində düşmən artilleriyası bizim yeməkxanamızı dağıtmışdı. Elə həmin vaxtlarda mövqeyimizə gələn təminat maşınları özləri ilə sovqat gətirdilər. Dedilər, bunu Gəncədən göndəriblər. Ərzaq, su, isti geyim göndərmişdilər. Bu, məni çox qürurlandırdı. Hiss etdik ki, mənfur düşmən qarşısında tək deyilik, bütün xalqımız bizimlədir. Qələbə xəbərini eşidəndə yaşadığımız xoşbəxtlik duyğusu isə əvəzolunmaz hissdir. Müharibədə mən və qardaşım öz vətəndaşlıq borcumuzu yerinə yetirməyə çalışmışıq. Bundan sonra da nə zaman lazım gəlsə, Vətənimizin müsəlləh əsgəri olmağa hazırıq!

Söhbətimizə qəhrəmanlarımızın atası, Birinci Qarabağ müharibəsi veteranı Feyruz Quliyev də qoşuldu:

- Döyüş vaxtı Şəhriyarla Cavaddan xəbər ala bilmirdik. Mən də, anaları Könül xanım da gecə-gündüz Allaha dualar edirdik ki, sağ-salamat qayıtsınlar. Tez-tez cəbhəyə sovqat göndərməklə təsəlli tapırdıq...

Feyruz müəllim söhbətinin davamında dedi:

–Mən 1993-cü ildən orta məktəbdə gənclərin çağırışaqədərki hazırlığı fənnindən dərs deyirəm. Şagirdlərimə hərb elminin ilkin sirlərini öyrtəməklə yanaşı, onlara həm də vətənpərvərlik hissini aşılamağa çalışmışam. Fəxr edirəm ki, Vətənini sevən, onun uğrunda canını əsirgəməyən övladlar böyütmüşəm! Allah şəhidlərimizə rəhmət eləsin!

Onu da qeyd edək ki, topçu qardaşlar ordumuzun erməni təxribatlarının qarşısını almaq məqsədilə 2022-ci ilin 24-28 mart tarixlərində Xocalı rayonu istiqamətində həyata keçirdiyi “Fərrux” əməliyyatında, həmçinin həmin ilin sentyabrında dövlət sərhədimizin Kəlbəcər istiqamətində baş vermiş döyüşlərdə də iştirak edərək qəhrəmanlıq nümunəsi göstəriblər. Onların xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Hər ikisi Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə “Suqovuşanın azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif ediliblər. Hərbi xidmətdən təxris olunduqdan sonra isə müharibə veteranları kimi növbədənkənar işlə təmin olunublar.

İndi isə onları yeni bir yol gözləyir – döyüşərək azad etdikləri ərazilərdən keçərək daimi yaşamaq üçün azad Xocalımıza aparan yol. Hər zaman yolunuz açıq, üzünüz ağ olsun, Xocalının igid oğulları!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

# Vyanada ölkəmizi tanıtma mərasimi



**Avstriya paytaxtındakı Azərbaycan Mədəniyyət Mərkəzində BMT-nin Vyana bölməsində fəaliyyət göstərən Qadınlar Gildiyasının (UNWG) üzvləri üçün Azərbaycan haqqında tanıtım mərasimi təşkil olunub.**

Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova ölkəmizdə hələ 1918-ci ildə qadınların seçki hüququnun təsbit olunduğunu, bu gün isə qadınların cəmiyyətdə mühüm rol oynadıqlarını diqqətə çatdırıb.

BMT Qadınlar Gildiyasının prezidenti Kati Kieffer və koordinatoru Maya Subki bildiriblər ki, təşkilat üzvləri mütəmadi şəkildə Vyanadakı diplomatik missiyalarda tanıtım tədbirləri təşkil edirlər. Bu təqdimatlar bir tərəfdən fərqli ölkələr barədə məlumat əldə etməyə, digər tərəfdən isə üzvlər arasında əlaqələrin möhkəmlənməsinə töhfə verir. Bu mənada Azərbaycan qadınlarının uğurları ilə tanışılıq böyük əhəmiyyət kəsb edir.

Toplantıda ölkəmizin tarixi, mədəni müxtəlifliyi və turizm potensialına dair videoçarxlar nümayiş etdirilib, qonaqlara Azərbaycan milli mətbəxinin çeşidli nümunələri təqdim olunub.

Xatırladaq ki, BMT-nin Qadınlar Gildiyası 1967-ci ildə yaradılmış xeyriyyə təşkilatıdır və onun Vyana bölməsi öz sıralarında 100-dən artıq ölkədən beş yüzədək üzvü birləşdirir.

***XQ***

# TDT-nin ümumi hədəfləri uğur qazanır

**Türkiyənin xarici işlər naziri Hakan Fidan “X” sosial şəbəkəsində yazıb:**



Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində iqtisadiyyatdan təhlükəsizliyə, müdafiədən enerjiyə qədər bütün sahələrdə ortaq hədəflərə doğru əmin addımlar atılır.

Nazir sonra qeyd edib ki, bu il oktyabrın 3-də Türk Dövlətlərinin Əməkdaşlıq Gününü və Türk Dövlətləri Təşkilatının əsas sənədi olan Naxçıvan Sazişinin imzalanmasının 15-ci ildönümünü qürurla qeyd edirik. Bu, olduqca qürurverici hadisədir.

XİN başçısı sonra TDT-nin türk dünyası üçün daha güclü və müstəqil gələcək qurmağa kömək edəcəyinə ümidvar olduğunu bildirib. “Ümid edirəm ki, uğurlarımız daimi olacaq”, - deyə o vurğulayıb.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 217 (30621) 4 oktyabr 2024-cü il, cümə

## İdman xəbərləri

### “Qarabağ” qalib gələ bilmədi



**Dünən “Qarabağ” UEFA Avropa Liqasının Liqa mərhələsinin II turunda İsveç təmsilçisi “Malmö” ilə qarşılaşıb.**

Tofiq Bəhramov adına Respublika stadionunda keçirilən görüşü Yunanıstandan olan hakimlər briqadası idarə edib. Matçda qonaqlar 2-1 hesabı ilə qalib gəldilər.

Qeyd edək ki, Azərbaycan çempionu UEFA Avropa Liqasının Liqa mərhələsinin I turunda səfərdə “Tottenhem”ə 0:3 hesabı ilə uduzub. “Köhlən atlar” turnirdə növbəti matçını oktyabrın 24-də Bakıda “Ayaks”a (Niderland) qarşı keçirəcək.

### Güləşçilərimiz 2 medal qazanıblar

**Azərbaycanın sərbəst güləşçiləri Rusiyanın Vladiqafqaz şəhərində keçirilən beynəlxalq turnirdə 2 gümüş medala sahib olublar.**




“Xadartsov qardaşları kuboku”nda İslam Bazarqanov (57 kq) və Ağanəzər Novruzov (74 kq) fəxri kürsünün ikinci pilləsinə qalxıblar. Turnirdə məşqçi Əşrəf Əliyevin rəhbərliyi ilə milli komandanın bir neçə üzvü iştirak edib.

Qeyd edək ki, Azərbaycan təmsilçilərindən I dərəcəli hakim Elman İsmayılov turnirdə ədaləti qoruyanlar sırasında olub.

### 4 klub cərimələnib

**AFFA İntizam Komitəsi Misli Premyer Liqasında çıxış edən 4 klubu cərimələyib.**




Misli Premyer Liqasının VIII turunun “Araz-Naxçıvan”la oyununda 4 futbolçusu sarı vərəqə alan “Səbail” 700 manat cərimələnib. “Sumqayıt”ın 6 futbolçusu “Neftçi” ilə görüşdə sarı vərəqə aldıqları üçün “kimyaçılar” 700 manat ziyana düşüblər.

“Şamaxı” – “Turan Tovuz” matçında ev sahiblərinin 4, qonaqların isə 5 futbolçusu sarı vərəqə aldıqlarına görə, komandalar 700 manat cərimələniblər.

*Leyla QURBANOVA*
*XQ*

## Yaşantı

# Bir payız gecəsinin kövrək balladası

**Payızın sakit gecələrində bir kövrəklik var. Bu, yaşlı adamın yaşam tərzinə - təəssüfə bələnmiş qayğılı günlərinə, cavablandırılası çətin suala oxşayır. Adam hər şeyi bir tərəfə buraxıb doyunca yatmaq, dərd-sərdən uzaqlaşmaq, rahatlanmaq istəyir.**

Belə gecələr həm də insanın düşüncələrə dalması, bu dünyanın faniliyini bir daha xatırlaması, belə demək olarsa, özünün özünə hesabat verməsi üçün çox yaxşı məqamdı. O da var ki, yuxucul adam üçün nə yay, nə payız, başını balışa yox, lap quru daşın üstünə qoydumu, başlayır xoruldamağa. Sonra da lap top atsalar belə oyanmaq bilmir. Amma binəvalar var ki, nə yayın bürkülü axşamlarında, nə payızın sakit gecələrində ürəyinin istədiyi, gözünün acısını alacaq qədər uyuya bilmir. Biz də Allahın o qullarındanıq, hər şeydən təsirlənən, çox şeyin fikrini çəkən...

Şəhər mühiti belə dərdlilərin ömrünə balta çalır. Amma neyləyəsən ki, təkcə öz sağlamlığın, rahatlığın üçün hər şeyi şəhərdə buraxıb, birdəfəlik kəndə gedə bilmirsən. Bir də illər əvvəl qoyub gəldiyin kənd də o kənd deyil. Çox sular axıb, çox yerlər dəyişib, əvvəla, salam verib, salamını aldıqlarının çoxu köçünü çəkib gedib bu dünyadan. Yeni nəsillə də ki... Bir də, lap kəndə yox e, lap dünyanın o başına, insan ayağı dəyməyən adaya da getsən, bu dünyanın ağrı-acısından, nisgilindən, dərd-sərindən qurtara bilməyəcəksən...

Bu “lirik, sentimental” girişdən sonra hüzünlü bir payız axşamında yaşadıqlarımdan danışım sizlərə.

Canım sizlərə desin, bu ilin bir az qəribə və fikirli payızının daha bir gecəsi sübhə doğru ağır-ağır əriyib gedirdi. Yenə oyaq olduğumdan yataqda gecənin olaylarını “izləyirdim”. Qənaətimə görə, sübhə az qalır. Çünki arabir arxa küçədən maşınlar keçir. Bir də bunu ondan bilirdim ki, küçənin o biri tərəfindəki kafenin yanında dayanan taksi sürücülərinin səs-küyü evin içində adamı yatmağa qoymur. Məhəllədə dolaşan sahibsiz itlərin səsi gəlmir. Bir azdan küçədən işə tələsən qadının dikdaban ayaqqabılarının taqqıltısı eşidilməyə başlayacaq. Onda itlər də bu səsə “etiraz” əlaməti olaraq hürəcək və mışıl-mışıl



yatan körpələrin yuxusunu pozacaqlar.

Sonra da məhəllədə hamının yaxşı tanıdığı Pakizənin uzun süpürgəsinin fışıltısı eşidiləcək. Küçənin o başından başlayıb deyinə-deyinə süpürgə ilə heç nəyin fərqinə varmadan, atılmış zir-zibili, boş butulkaları, konserv və plastik su qablarını süpürə-süpürə bizim binanın arxasındakı hündür ağacın altına toplayacaq. Pakizə heç vecinə də almır ki, küçəni süpürərkən ordan-bura yumaladığı boş qabların asfaltın üstündə danqıltısı camaatın başına düşür. Arabir də çoxlarının eşidə biləcəyi səslə: “Çörək gözünüzü tutsun, bərəkəti küçəyə tökməyin!” - deyir.

Yəqin ki, o, bu sözləri bilə-bilə ucadan deyir. Və ona görə belə deyir ki, ay qonşular, baxın, görün küçəyə nəyi atırsınız. Əgər mənim belə etməyimdən narahat olmaq istəmirsizsə, təmizliyi gözləyin, zibilinizi balkondan küçəyə yox, zibil qablarına atın. Bir də deyilənə görə, Pakizə bu səs-küyü qonşumuz Gündüzə görə eləyir. Çünki məhəllə uşaqları yalan-doğru danışırlar ki, Pakizə Ağabala kişinin dustaqxanadan təzə çıxmış oğlu Gündüzü sevir, özü də dəlicəsinə. Noolar. Şair doğru deyir: “Bəzən eşqi çox gözəldi, özü gözəl olmayanların...” (Fikrət Qoca). Amma insafən, Pakizə çirkin də deyil. Vallah, özünə yaxşı baxsa, geyinib-keçinsə, çox oğlan ona minnətçi düşər. Ancaq Pakizə eşqində sabitqədəmdi. Deyir, gözümün görəcəyi Gündüzdü. Gündüz də ki, əhlikefin biridi, Pakizənin məhəbbətinə məhəl qoymur. Ah, gidi dünya!

Sən demə, onlar orta məktəbdə bir oxuyublar və bu sevgi macərası da o illərdə başlayıb. Ata-anası dünyasını dəyişəndən sonra Pakizə bizim qonşu binada yaşayır. Deyir ki, mənim uşaqlığım bu məhəllədə keçib, başqa yerdə yaşaya bilmərəm. Amma çoxları bilir ki, o, Gündüzə görə buradan köçüb getməyib və illərlə onun “türmə”dən qayıtmasını gözləyib. Bir az nağıla bənzəyən bu sevgi hətta məhəllə şairləri tərəfindən nəzmə də çəkilib:

***A Pakizə, Pakizə***
***Saqqızını ver bizə,***
***Səni verək Gündüzə...***

Pakizə yenə küçəni süpürə-süpürə bizim binanın arxasına doğru gəlirdi. Yenə boş şüşə və dəmir qablar danqıldaya-danqıldaya onun süpürgəsinin qabağında lazımi yerə tərəf irəliləyirdilər...

Bir azdan qəfil maşın səsi gəldi və guppultu eşidildi... Sonra qadın qışqırığı. Yataqdan qalxıb pəncərəyə tərəf yüyürdüm. “Mercedes” küçənin kənarındakı böyük ağaca çırpılmışdı. Tez geyinib qapıdan çıxdım. Avtomobilin qabaq hissəsi tamam əzilmişdi. Ancaq sürücü gözə dəymirdi. Küçənin o biri tərəfində müştəri gözləyən taksi sürücülərindən biri dedi ki, yüksək sürətlə gələn “Ceep” qırmızı işığı gözləmədən keçdi. “Mercedes”in sürücüsü isə vəziyyətdən çıxmağa çalışdı, axırı da belə oldu. “Ceep” heç saxlamadı da. Yazığın heç bir günahı olmasa da, qolunun biri qırıldı, sifəti iki yerdən bərk parçalandı. Bu binada yaşayan Ağabala kişinin oğlu Gündüzdür...

Bir qədər dayanıb evə qayıdırdım. Küçənin o qədər də işıqlanmayan hissəsində Pakizə divara qısılıb için-için ağlayırdı...

*Səməd MƏLİKZADƏ*

# İqtisadi gəlir mənbəyi və təbii gözəlliklər ünvanı

## *Əcnəbilər Vyetnamın çəltik terraslarını belə qiymətləndirirlər*

**Mütəxəssislər yazırlar ki, hər il dünyada təxminən 600 milyon tondan çox düyü istehsal olunur. Amma bu ərzaq məhsuluna tələbat daha böyükdür. Ona görə də istehsalı artırmaq üçün yeni yollar axtarılır. Məlum olduğu kimi, çəltik ən çox su tələb edən bitkidir. Bu bitki əkiləndən məhsulu tam yetişənə qədər kökləri suda olmalıdır. Ancaq planetimizin su ehtiyatları sürətlə azalır. İnsan övladı isə çətin vəziyyətlərdən çıxmağın asan yollarını tapa bilir. Həmin yollardan birini uca dağların yamacında çəltik əkməyi bacaran vyetnamlılar tapıblar.**



Beynəlxalq kütləvi informasiya vasitələri yazırlar ki, ən çox düyü istehsal edən ölkələrin siyahısında Çin birinci, Hindistan ikinci, Banqladeş üçüncü, İndoneziya isə dördüncü yerdədir. Ancaq turist və əcnəbi qonaqlar həmin siyahıda beşinci yeri tutan Vyetnamın zəmiləri haqqında daha çox danışırlar. Çünki bu ölkənin düyü istehsalçıları çəltiyi dağ yamaclarında, möcüzəyəbənzər gözəlliklə yaradılmış terraslarda əkirlər.

İnternet materiallarından oxuyuruq ki, bu ölkənin Mu Kan Çay əyalətindəki füsunkar süni düyü terrasları paytaxt Hanoydan 300 kilometr məsafədə yerləşir. Bildirilir ki, həmin terrasların bəziləri yeni olsa da, xeylisinin iki min ildən çox yaşı var və bütün bu müddət ərzində onlarda düyü və çay yetişdirilib. Terraslar dağlıq ərazilərdə zümrüd lentlərinin havada uçması, havada kilometrlərlə əyilməsi təsəvvürü yaradır. Sahələr addım-addım kəsilir ki, yağış suları bütün əraziyə axsın və ərazini suvarsın.

Həmin əraziləri görənlər yazırlar ki, Mu Kan Çayın düyü sahələri ilin müxtəlif fəsillərində fərqli görünür. Mayın sonunda tarlalar yağışlı mövsümdən sonra parlaq yaşıl rəng alır. Bir müddət sonra (sentyabr-oktyabr aylarında) sahələr qızılı sarıya çevrilir. Düyü demək olar ki, yetişəndən sonra isə terrasların rəngi qəhvəyi olur.

Xatırladaq ki, Vyetnam çəltikçilərinin yaratdığı bu terraslar təkcə iqtisadçıların deyil, turizm strukturlarının da diqqətini çəkir. Elə ona görə də Mu Kan Çay düyü terrasları tez-tez planetin ən gözəl yerlərinin siyahılarında görünür. Amma, burada bir əmma var. Aqrar sahə mütəxəssisləri turistlərin buraya axınını istəmirlər. Onların istəyinə görə isə həmin terraslara yaxın ərazilərin heç birində nəqliyyat yolu yoxdur.

**P.S.**Şəxsən mən bu sətirləri hazırlamaq üçün rusiyalı həmkarlarımızın tərtib etdiyi materiallara, xüsusən, terrasların fotosuna baxanda həmin yerləri görməyi arzuladım. Hələlik isə Vyetnamdan gələn çay və düyülərə əlimiz çatır.

*İttifaq MİRZƏBƏYLİ*

# Yarpaq tökümünə ağlayır yağış...



**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 13-17° isti, gündüz 20-24° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 40-45 faiz olacaq.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 12-17° isti, gündüz 22-27° isti, dağlarda gecə 2-7° isti, gündüz 10-15° isti olacaq.

*Q.QƏZƏNFƏR*
*XQ*

***✓ 2010-cu il mayın 26-da Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Masallı rayonu, 1-ci Yeddioymaq kənd məscidi dini icmasına verilmiş dövlət qeydiyyatı haqqında 100110A3-384 nömrəli şəhadətnamə və nizamnamə itdiyi üçün etibarsız sayılır.***

***✓ 2010-cu il aprelin 16-da Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dövlət qeydiyyatına alınmış Masallı rayonu, Təzə Alvadı kənd Cümə məscidi dini icmasına məxsus 100110A2-298 nömrəli şəhadınamə və nizamnamə itdiyi üçün etibarsız sayılır.***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2232
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00